RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 270 (9149) ŞƏNBƏ, 10 dekabr 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

# Qalibiyyət yürüşü



## İlham Əliyevin iki il öncə keçirdiyi Zəfər paradı böyük Qələbənin nidası, məğlub Ermənistanın isə rəzilliyinin dünyaya nümayişi oldu

İki il öncə, 44 günlük Vətən müharibəsindəki şanlı qələbəmizdən sonra dekabr ayının 10-da paytaxtın Azadlıq meydanında tarixi hadisə gerçəkləşdi. Bu parad Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə yenilməz Azərbaycan Silahlı Qüvvələrinin müdhiş Qələbəsinin təntənəli nümayişi idi.

Hərbi orkestrin səsləndirdiyi Zəfər marşının sədaları altında iki qüdrətli qardaş dövlət - Azərbaycan və Türkiyə silahlı qüvvələrinin 3000 nəfər şəxsi heyəti Azadlıq meydanında qürurlu addımlarla yürüş etdi. Noyabrın 8-də Şuşaya sancılan bayrağımız Azadlıq meydanında dalğalanırdı. Hansı ki bunu Ali Baş Komandan İlham Əliyev tarixi Zəfərdən xeyli öncə söyləmişdi. Paradda da həmin fikri bir daha xatırlatdı: "Bu paradın xüsusi önəmi var. Bu, Zəfər paradıdır. Bu, tarixi hadisədir. Paradların birində mən demişdim ki, parada 2016-cı ildə Lələtəpə yüksəkliyinə qaldırılmış bayraq gətiriləcək. Demişdim ki, gün gələcək və bu gün işğal altında olan torpaqlarda qaldırılan Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və bu gün gəldi".

### İki qardaş yan-yana

Zəfər paradında qürurverici məqamlardan biri Türkiyə Silahlı Qüvvələrinin əsgər və zabitlərinin bizim hərbçilərlə bərabər iştirak etməsi idi. Bu bir daha dünyaya iki qardaş ölkənin sarsılmaz bağlarının dünyaya nümayişi oldu. Çünki Vətən müharibəsi başlayan andan türkiyəli qardaşlarımız bizim yanımızda oldular və mənəvi-siyasi dəstək göstərdilər.

→ 11

# FHN-in və Tibbi Sığorta üzrə Dövlət Agentliyinin texniki parkları müasirləşdirilir

## Prezident İlham Əliyev yeni alınmış xüsusi təyinatlı texnikalar və təcili tibbi yardım avtomobilləri ilə tanış olub



Dekabrın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fövqəladə Hallar Nazirliyi (FHN) tərəfindən alınmış və işğaldan azad olunmuş ərazilərdə istifadə ediləcək xüsusi təyinatlı texnikalar və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən alınmış müasir təcili tibbi yardım avtomobilləri ilə tanış olub.

→ 2

# Azərbaycan memarlarının XX qurultayının iştirakçılarına!

Hörmətli qurultay iştirakçıları!

Sizi Azərbaycan memarlarının XX qurultayının öz işinə başlaması münasibətilə ürəkdən salamlayır, hər birinizə cansağlığı və gələcək fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram.

Çoxəsrlik bir yol keçən və özünəməxsus dəst-xətti ilə hər zaman seçilən Azərbaycan memarlığı xalqımızın mədəniyyət salnaməsində layiqli yer tutur. Sənətkarlarımızın klassik Şərq ənənə və prinsiplərinə sədaqətlə yaratdıqları misilsiz memarlıq inciləri dünya mədəni irsinin ayrılmaz hissəsi olaraq hər birimiz üçün qürur mənbəyidir. Bitkin kompozisiyalı bu abidələrin təbii və mədəni landşaftla unikal ahəngdarlığı heyranlıq doğurur.

Dövrün arxitektura üslublarını və milli memarlığın böyük təcrübəsini özündə birləşdirən uğurlu layihələr əsasında ötən müddət ərzində Azərbaycanda şəhərsalma sənətinin yüksək mənəvi-estetik təsir gücünə malik qiymətli nümunələri meydana gətirilmişdir. Dövlət müstəqilliyinin bərpasından sonra ölkəmizdə memarlıq və şəhər quruculuğu sahəsindəki yeni təzahürlər modern üslublu tikililərin və monumental komplekslərin dizayn həllində özünü qabarıq göstərmişdir.

Qırxdördgünlük Vətən müharibəsində parlaq Zəfərin ardınca hazırkı ən ümdə hədəflərimiz - azad olunmuş əzəli yurdlarımızda bütün zəruri infrastrukturun sürətlə qurularaq həyatın dirçəldilməsi, xarabalığa çevrilmiş şəhərlərimizin, kəndlərimizin yenidən abadlaşdırılması və mədəniyyət yadigarlarımızın əvvəlki görkəminə qaytarılması Azərbaycan memarlığı qarşısında da təxirəsalınmaz vəzifələr irəli sürür.

İnanıram ki, aktual mövzularda geniş diskussiya və ətraflı fikir mübadiləsi aparılaraq, qurultayınızda qəbul ediləcək mühüm qərarlar ölkə memarlığının gələcək inkişafına öz töhfəsini verəcəkdir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 dekabr 2022-ci il*

## Azərbaycanın özü qədər əbədi

# Tarix yaradan şəxsiyyət

Heydər Əliyevin üzərinə olan hücumların məhz müstəqilliklə bağlı olması faktını o özü ifşa etmişdir. Bütün həyatı boyu müstəqil şəxsiyyət kimi yaşayan Heydər Əliyev üçün müstəqillik həyat kredosu idi. Odur ki, Ulu Öndərin bu məsələdə güzəştə getməsi mümkün deyildi. Belə də oldu. Heydər Əliyev çıxışında bu məsələnin tarixi bir məsələ olduğunu vurğulamış, siyasi konyunktur dalınca qaçıb müstəqilliklə bağlı formal sənədlər qəbul etməyin əleyhinə olduğunu bildirmişdir.

→ 4

# Heydər Əliyev dühası

Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı və dövlətimiz qarşısında xidmətləri əvəzedilməz, ölçüyəgəlməzdir. İllər ötdükcə, Azərbaycan inkişaf edərək yüksəldikcə, uğurlarımızın miqyası genişləndikcə, Ulu Öndərin ölkəmiz qarşısındakı tarixi missiyasının böyüklüyünü daha yaxından görürük. Azərbaycana birinci rəhbərliyi dövründə ölkəmizi inkişaf səviyyəsinə görə keçmiş ittifaqın öncülləri cərgəsinə çıxaran Heydər Əliyevin o illərdə iqtisadi sferada həyata keçirdiyi tədbirlər bu gün də xalqımıza xidmət edir.

→ 7

# 2023-cü ilin dövlət büdcəsi qəbul edildi



Dekabrın 9-da Milli Məclisin növbəti plenar iclası keçirilib. İclasda Baş nazir Əli Əsədov və hökumət üzvləri iştirak ediblər.

Parlamentin sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, iclasın gündəliyinə 29 məsələ daxil edilib və ilk 16 məsələ 2023-cü ilin dövlət büdcəsi və büdcə zərfinə daxil edilən qanun layihələridir. O qeyd edib ki, bu qanun layihələrinə üçüncü oxunuşda baxılacaq.

### 30 milyard 773 milyon 978 min manat gəlir, 33 milyard 353 milyon 278 min manat xərc

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. Bildirib ki, 2023-cü ilin dövlət büdcəsi layihəsi bir aydan çoxdur ki, Milli Məclisin komitələrində və plenar iclaslarında geniş müzakirə edilməkdədir. Maliyyə və İqtisadiyyat nazirliklərinin, Mərkəzi Bankın, Hesablama Palatasının və digər dövlət orqanlarının rəhbərləri layihələr barədə həm komitə iclaslarında, həm də plenar iclaslarda ətraflı məlumatlar veriblər. Büdcə müzakirələrində ümumi olaraq deputatlar 127 dəfə çıxış ediblər.

Tahir Mirkişili bildirib ki, 2023-cü ilin dövlət büdcəsi layihəsinin Milli Məclisin plenar iclasında ikinci oxunuşda qəbul edilmiş layihəsinə bir sıra dəyişikliklər edilib və üçüncü oxunuşda təqdim olunmuş layihədə bu dəyişikliklər öz əksini tapıb.

→ 3

# 2023-cü il üçün Novruz, Ramazan və Qurban bayramları günləri müəyyən edilib

Gələn il üçün Novruz, Ramazan və Qurban bayramları günləri müəyyən edilib.

AZƏRTAC xəbər verir ki, Nazirlər Kabinetinin "2023-cü il üçün Novruz, Ramazan və Qurban bayramları günlərinin müəyyən edilməsi haqqında" qərarına əsasən, martın 20, 21, 22, 23, 24-ü Novruz bayramı, aprelin 21, 22-si Ramazan bayramı, iyunun 28, 29-u Qurban bayramı günləri müəyyən edilib.

Azərbaycan Respublikası Əmək Məcəlləsinin 105-ci maddəsinin 2-ci hissəsinə əsasən həmin günlər iş günü hesab edilmir.

# İranın eyforiyası

## Bu ölkənin molla rejimi təxribat cəhdləri ilə özünü ifşa edir

İran rəhbərləri işğalçı, terrorçu və separatçı dəstələrlə əməkdaşlıq edir, müsəlmanlara qarşı soyqırımları törətmiş bir dövlətin başçısı ilə öpüşüb-görüşürlər. İran həm də ona görə narahatdır ki, Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsi onun narkoticarət yolunu bağlayıb. Çox güman ki, ötən müddətdə Ermənistan bizim ərazilərimizdə narkotik maddələri elə məhz İranla birgə əkib-becərib, birlikdə də alver ediblər. Lakin torpaqlarımızda belə cinayətkar əməllərin törədilməsi artıq geridə qaldı. Bu gün qüdrətli orduya, sadiq və strateji dostlara sahib və bütün dövrlərdə humanitar xarakterli qlobal təşəbbüslərlə çıxış edən Azərbaycanla təhdid dilində danışmaq faydasızdır. Unutmaq olmaz ki, dövlətimiz bütün təxribatların qarşısını almağa, terrorçulara lazımi şəkildə cavab verməyə qadirdir", - deyə deputat bildirib.

→ 12

# Din pərdəsinə bürünən şər və terror

## Azərbaycana düşmənçilik "mollalar"ın dağılması labüd olan rejimini daha sürətlə uçuruma aparır

Bu yaxınlarda keçirilən Azərbaycan və Türkiyənin birgə növbəti hərbi təlimləri də İrana bir xəbərdarlıq mesajı idi. İranın sınıq-salxaq, köhnə texnikası ilə apardığı təlimlərə qarşı Arazın bu tayında Azərbaycanın və Türkiyənin yeni nəsil müharibə qaydalarına uyğun təlimi keçirildi. Bu həm də İrana müasir orduların əsl təliminin necə olmasına dair əyani bir dərs kimi də dəyərləndirilə bilər.

Fars rejimi bütün bu baş verənlərdən o nəticəni də çıxarmalıdır ki, qüdrətli Azərbaycanla hədə və güc dili ilə danışmaq mümkün deyil və buna cürət edənlərin aqibəti Ermənistanın acınacaqlı halı kimi olacaq.

→ 12

# Edamlar etirazları daha da alovlandıra bilər

## Avropa Birliyi İrana qarşı yeni sanksiyalar tətbiq etməyə hazırlaşır

İranın rəhbəri Əli Xameneyinin bacısı oğlu Mahmud Muradxani anasının bəyanatını şərh edib. Bildirib ki, anası Bədri Hüseyni Xameneyi İran xalqı ilə həmrəylik üçün bu addımı atıb və Əli Xameneyini tənqid edib. Mahmud Muradxani anasının bəyanatının İranda başqa din xadimlərini də danışmağa və hakim vəziyyətdən narazılıqlarını bildirmək üçün cəsarətləndirməyə hesablanıb. Fransada yaşayan Muradxani anasının açıqlamasının yayılmasının səbəblərindən birinin xalq hərəkatlarını və etirazları dəstəkləməklə bağlı olduğunu və bir neçə onillik fəaliyyət nəticəsində İran hakimiyyətinin mahiyyəti barədə insanların daha çox məlumatlı olmasına görə sevindiyini bildirib.

→ 12

# FHN-in və Tibbi Sığorta üzrə Dövlət Agentliyinin texniki parkları müasirləşdirilir

## Prezident İlham Əliyev yeni alınmış xüsusi təyinatlı texnikalar və təcili tibbi yardım avtomobilləri ilə tanış olub













*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov dövlət başçısına raport verdi.

Prezident İlham Əliyevə məlumat verildi ki, işğaldan azad edilmiş ərazilərdə yanğından mühafizə üçün Fövqəladə Hallar Nazirliyi tərəfindən "KamAZ" markalı 100 yanğınsöndürən və "İveco" markalı 50 xüsusi təyinatlı yanğınsöndürən avtomobil alınıb. "İveco" markalı avtomobillərdən 9-u artıq idxal olunub, 41-nin idxalı isə 2023-cü ilin birinci rübündə nəzərdə tutulur.

Bildirildi ki, "KamAZ" və "İveco" markalı avtomobillərdən xüsusilə yanğın yerinə şəxsi heyətin, yanğın texniki və xilasedici avadanlıqların, suyun və köpükəmələgətirən maddələrin daşınması, yanğın yerinin fasiləsiz olaraq odsöndürücü maddələrlə təmin edilməsi, çoxmərtəbəli binalardan insanların təxliyəsi və əşyaların çıxarılması, xilasedici və yanğınsöndürənlərin yuxarı mərtəbələrə qaldırılması, lafet lüləsi vasitəsilə yüksəklikdə yanğınların söndürülməsi, yanğın yerinin işıqlandırılması, eyni zamanda digər köməkçi işlərin görülməsi üçün istifadə olunacaq.

Diqqətə çatdırıldı ki, müxtəlif texnogen, təbii qəzalar və yol-nəqliyyat hadisələri zamanı xüsusi xilasetmə işlərinin aparılması, işğaldan azad edilmiş ərazilərdə yüklərin və köməkçi materialların daşınması üçün FHN tərəfindən "Nissan Patrol" markalı 5, "Lada Niva Travel" markalı 11 və "QAZEL" markalı 6 avtomobil (onlardan 3-ü idxal edilib, digərləri isə cari ilin sonunadək idxal olunacaq) alınıb.

Bildirildi ki, nazirlik tərəfindən alınan "GCS (Global Clearance Solutions) - 200" markalı, dizel mühərrikli, kənardan idarəedilən, müasir minatəmizləyən 4 robot işğaldan azad olunmuş rayonlarda piyada və tank əleyhinə minalarla çirklənmiş ərazilərin təmizlənməsi işlərində istifadə olunacaq.

Təqdim edilən texnikalar arasında "Ural" markalı avtomobillər də var. Bu avtomobillər yanğın hadisəsi zamanı yüklərin daşınması və digər işlərin həyata keçirilməsi üçün nəzərdə tutulub.

Sonra dövlət başçısı İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən alınmış müasir təcili tibbi yardım avtomobillərinə baxdı.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev məlumat verdi ki, artan tələbatın və yeni yaradılmış tibb mərkəzlərinin, məntəqələrin, o cümlədən işğaldan azad olunmuş ərazilərimizdə inşa edilən xəstəxanaların təcili tibbi yardım avtomobilləri ilə təmin edilməsi diqqət mərkəzindədir.

Agentlik tərəfindən 2020-ci ildən indiyədək 84 ədəd "Fiat Doblo", 131 ədəd "Mercedes", 34 ədəd "Ford Transit" markasına aid olan ümumilikdə 249 təcili tibbi yardım avtomobili satın alınıb. Həmçinin xüsusi 2 diferensiallı (4x4) "Mercedes Vito" avtomobilləri dağlıq relyefdə və yolsuzluq şəraitində təcili tibbi yardım briqadasının rahat və təhlükəsiz hərəkətini təmin edir. Həmin avtomobillərdən 44 günlük Vətən müharibəsi zamanı çətin və yolsuzluq şəraitlərində yaralıların təxliyəsində istifadə olunub.

Bildirildi ki, Bakı şəhəri və respublikanın digər şəhər və rayonlarında fəaliyyət göstərən tibb müəssisələrinin, təcili və təxirəsalınmaz tibbi yardım məntəqələrinin ümumilikdə 1487 ədəd təcili tibbi yardım avtomobili ilə təmin edilməsi nəzərdə tutulub və indiyədək tibb müəssisələri 909 tibbi yardım avtomobili ilə təmin edilib.

Təqdim edilən "Mercedes-Benz" markalı təcili tibbi yardım avtomobilləri 37-si sadə diferensiallı, 7-si xüsusi 2 diferensiallı, 20-si reanimobil və 1-i perinatal küvezli olmaqla ümumilikdə 65 ədəddir. Avtomobillər xəstə tibb müəssisəsinə aparılarkən artıq yolda müalicəyə başlamağa imkan verən geniş çeşiddə dərmanlar və tibbi avadanlıqlarla təmin edilib. Belə ki, avtomobillərin komplektasiyası istənilən vəziyyətdə olan pasiyentlərin daşınmasına imkan verir.

Yeni alınmış təcili tibbi yardım avtomobillərinin bölgüsü aparıldıqdan sonra ümumilikdə ölkə üzrə istifadədə olan təcili tibbi yardım avtomobillərinin sayı 974 olacaq.

* * *

Respublikamızda təbii və texnogen xarakterli fövqəladə halların vaxtında xəbərdar edilməsi, nəticələrinin çevik və səmərəli şəkildə aradan qaldırılması işinin vahid mərkəzdən idarə olunması məqsədilə Azərbaycan Prezidenti İlham Əliyevin 2005-ci il 16 dekabr tarixli Sərəncamı ilə Fövqəladə Hallar Nazirliyi yaradıldı. Beləliklə, fəlakətlərlə mübarizə işinin təşkilinə dövlət səviyyəsində sistemli yanaşmada yeni bir mərhələnin əsası qoyuldu. Əhalinin mülki müdafiəsinin, yanğın təhlükəsizliyinin, su hövzələrində insanların təhlükəsizliyinin və xilasetmə işlərinin təşkili, ölkə ərazisində radioaktiv tullantıların zərərsizləşdirilməsi, sənayedə və dağ-mədən işlərində texniki təhlükəsizliyə və tikintidə təhlükəsizliyə nəzarət kimi mühüm vəzifələri yerinə yetirən bir neçə dövlət qurumunun Fövqəladə Hallar Nazirliyinin tabeliyinə verilməsi əhalinin və ərazilərin fövqəladə hallardan daha etibarlı müdafiəsinin təmin olunması sahəsində mühüm rol oynadı. Nazirlik tərəfindən ötən dövr ərzində fəlakətlərin sistemli qaydada mərkəzləşdirilmiş idarə olunmasını təmin etmək üçün zəruri normativ-hüquqi və maddi-texniki bazanın formalaşdırılması, müxtəlif funksiyaları həyata keçirən qurumlar arasında əlaqəli fəaliyyətin təşkili istiqamətində zəruri işlər görüldü. Nazirliyin fəaliyyətində operativliyin artırılması məqsədilə zamanın çağırış və təhdidləri nəzərə alınaraq müvafiq struktur dəyişiklikləri aparıldı, regional mərkəzlərin fəaliyyəti təmin olundu. Bir sözlə, ölkə rəhbərliyinin xüsusi diqqət və qayğısı nəticəsində Fövqəladə Hallar Nazirliyi maddi-texniki cəhətdən hərtərəfli şəkildə təmin edildi və qarşısına qoyulmuş məsuliyyətli vəzifələrin öhdəsindən uğurla gəlmək iqtidarında olan mobil bir quruma çevrildi.

Azərbaycan vətəndaşlarının təhlükəsiz həyat və fəaliyyətinin təmin olunmasını ali məqsədi hesab edən Fövqəladə Hallar Nazirliyinin şəxsi heyəti dəfələrlə çətin sınaqların öhdəsindən layiqincə gəlib. Ötən illər ərzində yaşayış, sənaye və ictimai-iaşə obyektlərində, o cümlədən iri ticarət mərkəzlərində, meşə və açıq sahələrdə baş vermiş yanğınlar, sel və daşqınlar, uçqun, dağıntı, sürüşmə hadisələri, zəlzələlər və digər fövqəladə hadisələr zamanı operativ və səmərəli müdaxilə tədbirləri ilə nazirliyin qəza-xilasetmə qurumları öz peşəkarlıqlarını nümayiş etdiriblər.

Fövqəladə Hallar Nazirliyi yaradılarkən tabeliyinə verilən qurumların balansında olan xüsusi təyinatlı avtomobillərin və digər nəqliyyat vasitələrinin, avadanlıqların əksər hissəsi mənəvi və fiziki cəhətdən köhnəldiyinə görə müasir tələblərə cavab vermirdi. Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, nazirliyin texnika parkının müasirləşdirilməsi istiqamətində ciddi addımlar atılıb, büdcə vəsaitləri hesabına dünyanın ən qabaqcıl ölkələrinin istehsalı olan müxtəlif təyinatlı maşın və avadanlıqlar alınıb. Nazirliyin qurumlarında əsaslı təmir və yenidənqurma işlərinə xüsusi diqqət göstərilib, yararsız inzibati və texniki binalar, depolar əsaslı təmir olunub, yeniləri tikilərək istifadəyə verilib. Bölgələrdə 9 regional mərkəzin fəaliyyəti təmin edilib. Artıq müasir yanğınsöndürmə, qəza-xilasetmə maşınlarının, fövqəladə hallar zamanı hadisə yerində böhranları idarə etmək üçün ən müasir rabitə sistemləri ilə təchiz olunmuş və nazirliyin qurumları ilə videokonfrans əlaqəsi yaratmaq gücünə malik mobil qərargah - avtobusun, radiosistemli xüsusi təyinatlı avtomobillərin, hündürlük nərdivanlarının, xilasetmə işlərinin aparılmasında istifadə olunan xüsusi texnikaların, motosikletlərin, mina və hərbi sursatların aşkar edilməsi və zərərsizləşdirilməsi sistemlərinin, dənizdə xilasetmə əməliyyatları üçün yüksəksürətli və çoxfunksiyalı katerlərin, xilasedici qayıqların, axtarış gəmilərinin, yanğınsöndürmə və digər xilasetmə funksiyalarını həyata keçirən "Be-200 ÇS" amfibiya-təyyarənin, helikopterlərin, tikintilərin mövcud texniki təhlükəsizlik normaları və qaydalarına uyğun aparılmasına nəzarəti həyata keçirmək üçün səyyar laboratoriyaların, fövqəladə hadisə baş vermiş ərazidə, yol şəraiti çətin olan yerlərdə qısa müddət ərzində zərərçəkənlərə tamhəcmli tibbi yardım göstərmək üçün mobil hospitalların, yüzlərlə müxtəlif təyinatlı digər xüsusi texniki avadanlıqların imkanlarından gündəlik iş prosesində bacarıqla istifadə edilir.

Onu da qeyd edək ki, FHN-in qüvvə və vasitələri digər aidiyyəti dövlət orqanları ilə birlikdə ilk günlərdən işğaldan azad olunmuş ərazilərdə minatəmizləmə işlərinə fəal şəkildə cəlb edilib. Nazirliyin Xüsusi Riskli Xilasetmə Xidmətinin istehkam qrupları tərəfindən 2021-ci ilin yanvar ayından etibarən Ağdam və Füzuli rayonlarında minatəmizləmə əməliyyatları aparılır.

Minaaxtarma işlərinin keyfiyyətinin yüksəldilməsi və sürətləndirilməsi məqsədilə qısa müddət ərzində dislokasiya məntəqəsi Bərdə şəhərində olmaqla Nazirliyin Xüsusi Riskli Xilasetmə Xidmətinin "N" saylı hərbi hissəsi yaradılıb. Hazırda hərbi hissənin ən müasir texnika və avadanlıqlarla komplektləşdirilməsi işləri sürətlə davam etdirilir.

## Milli Məclisin iclasında

# 2023-cü ilin dövlət büdcəsi qəbul edildi

*Əvvəli 1-ci səh.*

O nəzərə çatdırıb ki, Azərbaycan Prezidentinin 27 oktyabr 2022-ci il tarixli Fərmanına uyğun olaraq, Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Xidmətinin strukturunda dəyişikliklər edilərək Naxçıvan Muxtar Respublikası üzrə Dövlət Təhlükəsizlik Xidmətinin Baş idarəsi, 28 noyabr 2022-ci il tarixli Fərmanına uyğun olaraq isə Dövlət Gömrük Komitəsinin strukturunda dəyişikliklər edilərək Naxçıvan Baş Gömrük İdarəsi yaradılıb. Yeni yaradılmış Baş idarələrin maliyyələşdirilməsinin muxtar respublikanın büdcəsindən deyil, dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərindən həyata keçirilməsi nəzərdə tutulub. Eyni zamanda muxtar respublikanın büdcəsinin gəlirlərinin bir hissəsini təmin edən 53 milyon 278 min manat həcmində gömrük daxilolmalarının dövlət büdcəsinin gəlirlərinə aid edilməsi, həmçinin yeni yaradılmış Dövlət Təhlükəsizlik Xidmətinin Baş İdarəsinin saxlanılması üçün tələb olunan 11.1 milyon manat, Naxçıvan Baş Gömrük İdarəsinin saxlanılması üçün tələb olunan 20.1 milyon manat, "Avtomobil Yolları" məqsədli büdcə fondunun xərclərinə 0.5 milyon manat vəsaitin muxtar respublikanın büdcəsinin xərclərindən azaldılaraq dövlət büdcəsinin xərclərində planlaşdırılması zərurəti yaranmışdır.

Qeyd olunub ki, Milli Məclisdə aparılan müzakirələr zamanı dövlət büdcəsinin bəzi maddələrində də ümumi məbləğə təsir etməyən düzəlişlər yeni layihədə öz əksini tapıb. Belə ki, Naxçıvan MR-in büdcəsinin 2023-cü il gəlirləri və xərclərində edilən dəyişikliklərə müvafiq olaraq muxtar respublikanın büdcəsinin gəlir və xərcləri bərabər olmaqla 614.7 milyon manat təşkil edir. Muxtar respublikanın gəlir və xərclərini tənzimləmək üçün dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərindən ayrılan dotasiyanın yuxarı həddi 482.4 milyon manat səviyyəsində müəyyən edilir.

Komitə sədri bildirib ki, təklif edilən dəyişikliklər nəzərə alınmaqla, 2023-cü il üçün dövlət büdcəsinin gəlirləri 53 milyon 278 min manat artırılaraq 30 milyard 773 milyon 978 min manat, xərcləri isə 53 milyon 278 min manat artırılaraq 33 milyard 353 milyon 278 min manat nəzərdə tutulub. Dövlət büdcəsi kəsirinin dəyişmədən 2 milyard 579.9 milyon manat, neftin bir barelinin orta illik qiymətinin isə 50 dollar olacağı ssenarisi əsasında 2023-cü ildə inflyasiyanın orta illik göstəricisinin 6.9 faiz, Ümumi Daxili Məhsulun real artım tempinin 2,7 faiz, orta aylıq əməkhaqqının isə 898 manat olacağı proqnozlaşdırılır. İcmal büdcənin gəlirləri və xərcləri eyni səviyyədə, yəni gəlirləri 33 milyard 26 milyon manat, xərcləri 37 milyard 969 milyon manat, kəsiri isə 4 milyard 944 milyon manat təşkil edəcək.

"Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Əmək və sosial siyasət komitəsinin sədr müavini Məlahət İbrahimqızı "Dövlət Sosial Müdafiə Fondunun 2023-cü il büdcəsi haqqında" (üçüncü oxunuş) və "İşsizlikdən Sığorta Fondunun 2023-cü il büdcəsi haqqında" (üçüncü oxunuş) qanun layihələrini təqdim edib. Qeyd olunub ki, hər iki layihə birinci və ikinci oxunuşlarda geniş müzakirə edilib və üçüncü oxunuşda heç bir təklif və düzəliş olmayıb.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bu qanun layihələri barədə təmsil etdiyi komitənin rəyinin müsbət olduğunu deyib.

"Dövlət Sosial Müdafiə Fondunun 2023-cü il büdcəsi haqqında" və "İşsizlikdən Sığorta Fondunun 2023-cü il büdcəsi haqqında" qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Daha sonra "Azərbaycan Respublikasında 2023-cü il üçün yaşayış minimumu haqqında" və "Azərbaycan Respublikasında 2023-cü il üçün ehtiyac meyarının həddi haqqında" qanun layihələri üçüncü oxunuşda qəbul edilib.

### 10 illik ƏDV-dən azad olunma

Komitə sədri Tahir Mirkişili daha sonra Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. Sənəd barədə birinci və ikinci oxunuşda ətraflı məlumat verildiyini deyən komitə sədri qanunvericilik təşəbbüsü subyekti tərəfindən qanun layihəsi ilə bağlı Milli Məclisə dəyişiklik daxil olduğunu söyləyib. O qeyd edib ki, üçüncü oxunuşda təqdim olunan layihədə bu dəyişiklik öz əksini tapıb. Bildirilib ki, 227-ci maddədə işğaldan azad olunmuş ərazilərdə qeydiyyatdan keçmiş rezidentlər tərəfindən istehsal fəaliyyəti üçün idxal olunan xammal və materialların 2023-cü il yanvarın 1-dən 10 il müddətinə ƏDV-dən azad olunması göstərilir. Daxil olmuş dəyişiklik bunun əhatə dairəsinin daha da genişləndirilməsini, yəni yalnız xammal və materiallar deyil, eyni zamanda texnika və texnoloji avadanlıq və qurğuların da növbəti il yanvarın 1-dən etibarən 10 il müddətinə ƏDV-dən azad olunmasını nəzərdə tutur.

Qanun layihəsi üçüncü oxunuşda qəbul olunub.

İclasda Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihələri də üçüncü oxunuşda qəbul edilib.

Deputat Məlahət İbrahimqızı "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. O, layihənin birinci və ikinci oxunuşları zamanı hər hansı qeyd və təklifin daxil olmadığını söyləyib. Təklif olunan dəyişiklik işğaldan azad edilmiş ərazilərdə qeyri-dövlət qeyri-neft-qaz sektoru üzrə 10 il müddətində məcburi dövlət sosial sığorta haqqının subsidiyalaşdırılması mexanizmini, o cümlədən tətbiq ediləcək kontingent və şərtləri müəyyən edir.

Qanun layihəsi üçüncü oxunuşda qəbul olunub.

İclasda İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) də təqdim edib. Bildirib ki, sənəd əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilən iş icazəsinin uzadılmasına görə dövlət rüsumunun məbləğini müəyyən edir. İkinci oxunuşdan sonra layihədə heç bir düzəliş edilməyib.

Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (üçüncü oxunuş) diqqətə çatdırıb. Bildirilib ki, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində əmək miqrasiyası proseslərinin tənzimlənməsi ilə əlaqədar olaraq Miqrasiya Məcəlləsinə bəzi dəyişikliklər təklif olunur. İkinci oxunuşdan sonra sənədə hər hansı təklif daxil olmayıb.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

### Azad edilmiş ərazilərdə işləyən mütəxəssislər üçün birdəfəlik müavinət

Əmək və sosial siyasət komitəsinin sədr müavini Məlahət İbrahimqızı "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsinə dair məlumat verib. O, üçüncü oxunuş üçün layihəyə heç bir təklif edilmədiyini söyləyib və sənədi dəstəkləməyi xahiş edib. Dəyişikliyə əsasən, işğaldan azad edilmiş ərazilərdə işləyən mütəxəssisə bu ərazilərdə işləmək üçün azı bir il müddətinə bağlanılmış əmək müqaviləsi olduqda, ilkin maddi-məişət şəraitinin dəstəklənməsi üçün 2023-cü il yanvarın 1-dən 5 il müddətinə birdəfəlik müavinət müəyyən olunur.





Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında, "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə və "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihələri də üçüncü oxunuşda qəbul olunub.

Milli Məclisin Sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, bununla da büdcə zərfinə daxil olan bütün qanun layihələri üçüncü oxunuşda qəbul edilib. O, çıxış etmək üçün Azərbaycan Respublikasının Baş naziri Əli Əsədova söz verib.

Baş nazir Əli Əsədov "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" qanun layihəsinin Milli Məclisdə aktiv müzakirəsinə, qaldırılan vacib məsələlərə, suallara, dəyərli təklif və tövsiyələrə görə deputatlara təşəkkürünü bildirib.

Baş nazir plenar və komitə iclaslarında deputatların verdiyi sualların hökumətin iqtisadi blokuna daxil olan qurumların rəhbərləri tərəfindən cavablandırıldığını deyərək, qaldırılan bir sıra məsələlərlə bağlı öz fikirlərini açıqlayıb.

### Son 2 ildə Böyük qayıdış planının layihəsinə 5,8 milyard manatdan çox vəsait yönəldilib

Əli Əsədov bildirib ki, iki il bundan əvvəl Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə əzəli torpaqlarımız rəşadətli ordumuz tərəfindən işğaldan azad edilib, ölkəmizin ərazi bütövlüyü bərpa olunub. 44 günlük Vətən müharibəsində qazanılan şanlı tarixi Qələbədən sonra Prezident İlham Əliyev qlobal iqtisadi prosesləri, o cümlədən postpandemiya və postmünaqişə dövrünün çağırışlarını nəzərə alaraq, 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"i təsdiq edib. Baş nazir qeyd edib ki, əsas istiqamətləri əhatə edən Milli Prioritetlər qarşıdakı illərdə ölkə iqtisadiyyatının davamlı və yüksək artımını təmin edir. Milli Prioritetlərin icrası iki dövrə bölünüb. Birinci dövr 2022-2026-cı illəri əhatə edir və bununla bağlı "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" cənab Prezidentin sərəncamı ilə təsdiq edilib.

Müəyyən edilmiş 5 milli prioritetin hər birinin vacib olduğunu deyən Baş nazir milli prioritet kimi müəyyən edilən işğaldan azad olunmuş ərazilərə Böyük qayıdışın mənəvi baxımdan mühüm əhəmiyyət kəsb etdiyini söyləyib. O qeyd edib ki, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair Birinci Dövlət Proqramı" ölkə Prezidentinin 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq olunub.

Sonra Baş nazir bununla əlaqədar bir neçə göstəriciləri diqqətə çatdırıb. Bildirib ki, ilkin hesablamalara görə, inkişaf strategiyasının icrası məqsədilə ümumilikdə büdcədən 32,7 milyard manat vəsait tələb olunur ki, bunun 19,2 milyard manatı (58,7%) işğaldan azad edilmiş ərazilərə Böyük qayıdışın təmin edilməsinə yönəldiləcəkdir. 2023-cü ilin dövlət büdcəsinə gəldikdə isə, inkişaf strategiyası ilə nəzərdə tutulan layihə və tədbirlərin maliyyələşdirilməsi üçün 5,2 milyard manat vəsait nəzərdə tutulub ki, onun da 3 milyard manatı işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası ilə bağlı xərclərdir. Son iki ildə isə Böyük qayıdış planının layihəsinə dövlət büdcəsindən 5,8 milyard manatdan çox vəsait yönəldilib.

Baş nazir deyib ki, 2023-cü il dövlət büdcəsinin fəlsəfəsi "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nı əhatə edir. Azərbaycan Respublikasının icmal və dövlət büdcəsinin parametrləri ortamüddətli dövr üçün sosial-iqtisadi inkişaf göstəricilərinə əsaslanaraq tərtib edilib.

### Zəngəzur dəhlizinin açılması Azərbaycanın inkişafına böyük təkan verəcək

Baş nazir Vətən müharibəsindən ötən müddət ərzində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası istiqamətində mühüm işlərin görüldüyünü, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin, xüsusilə Zəngəzur dəhlizinin açılmasının Azərbaycanın inkişafına böyük təkan verəcəyini vurğulayıb. Azərbaycan Prezidenti İlham Əliyevin birbaşa iştirakı və rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələrin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsinə, habelə işğaldan azad olunmuş ərazilərə verilən vergi, gömrük, sosial sığorta, investisiya təşviqi, kredit və digər güzəştlər paketinin həmin ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyasına, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi aktivliyinin təmin olunmasına xidmət edəcəyini söyləyib.

Əli Əsədov Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin müdafiə potensialının və ordumuzun maddi-texniki bazasının möhkəmləndirilməsinin, onun müasir hərbi texnika və silah-sursatla təchizatı və hərbçilərin sosial-məişət və xidmət şəraitinin yaxşılaşdırılmasının hər zaman əsas xərc istiqamətlərindən biri olduğunu bildirib. O, bu istiqamətdə gələn ilin büdcə xərclərinin 16 faizi həcmində vəsaitin nəzərdə tutulduğunu deyib.

Baş nazir deputatların təmsil etdikləri regionlarda məşğulluq, infrastruktur, kommunal, enerji, su, qazlaşma və digər sosial xidmət sahələrində keyfiyyətin yüksəldilməsi, yolların təmiri və bu qəbildən olan digər məsələlərin həll edilməsi üçün təkliflərlə çıxış etdiklərini deyərək, bu məsələlərin əksəriyyətinin strategiya, habelə investisiya proqramları çərçivəsində vaxtında həll edilməsi üçün hökumət tərəfindən ardıcıl işlər görüldüyünü söyləyib.

Əli Əsədov xarici şokların təsirinin minimuma endirilməsi və ölkənin inkişafının ahəngdarlığının təmin edilməsi məqsədi ilə büdcə qaydasına uyğun olaraq, yeni makrofiskal çərçivə formalaşdırıldığını və dövlət büdcəsinin əsas göstəricilərinin müəyyən olunması zamanı nəzərə alındığını qeyd edib. Bildirilib ki, növbəti ilin dövlət büdcəsində əhalinin, şəhid ailələrinin, qazilərin sosial müdafiəsi və sosial təminatının gücləndirilməsi üzrə islahatların davam etdirilməsi, inflyasiya təzyiqi nəzərə alınmaqla həssas əhali qruplarına sosial dəstək tədbirlərinin həyata keçirilməsi nəzərdə tutulur. 2023-cü ilin dövlət büdcəsinin cari xərclərinin 67 faizi məhz sosialyönlü xərclərdir.

Qeyd edilib ki, yüksək inflyasiya fonunda qlobal artım sürətinin zəifləməsi dünya iqtisadiyyatını tənəzzül ilə üz-üzə qoyur. Qlobal iqtisadiyyata inteqrasiya etmiş Azərbaycan da inflyasiya təzyiqləri ilə üzləşir. Azərbaycanın dərman vasitələri üzrə daxili tələbatının 95 faizdən çoxunu idxal etdiyini deyən Baş nazir qeyd olunan səbəblərin dərman qiymətlərinə və təminatına da mənfi təsir etdiyini söyləyib. O, dərman vasitələrinin qiymətlərinin Tarif Şurası tərəfindən müvafiq qaydalara uyğun tənzimləndiyini deyib. Son zamanlar Azərbaycanda bir neçə adda dərman vasitələrinin çatışmazlığı və təchizatı problemi ilə əlaqədar məsələ qaldırıldığını, bununla bağlı vəziyyətin hökumət tərəfindən nəzarətə götürüldüyünü, hazırda həyati vacib dərmanların təminatında hər hansı bir ciddi çətinliyin müşahidə olunmadığını bildirib.

### Ölkəmizdə ərzaq ehtiyatı ilə bağlı hər hansı problem yoxdur

Əli Əsədov dünya ərzaq bazarlarındakı vəziyyətlə bağlı, əksər ölkələrdə olduğu kimi, Azərbaycan üçün də ərzaq təminatı və ərzaq təhlükəsizliyi, idxaldan asılılıq səviyyəsinin azaldılması məsələlərinin daha da aktuallaşdığını deyib. O, Nazirlər Kabinetinin "Azərbaycan Respublikasında antiinflyasiya tədbirlərinin gücləndirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında" 2022-ci il 21 fevral tarixli Sərəncamının icrası istiqamətində bir çox vacib tədbirlərin görüldüyünü qeyd edib. Bildirib ki, növbəti ildə ərzaq təhlükəsizliyi tədbirləri üçün büdcə xərclərinin həcmi artırılır və cari ilə nisbətən 38,6% çoxdur. Ümumiyyətlə, dünyada və regionda baş verən geosiyasi proseslərə və çətinliklərə baxmayaraq, ölkəmizdə ərzaq ehtiyatı ilə bağlı hər hansı problem yoxdur.

Diqqətə çatdırılıb ki, hökumət tərəfindən strategiya çərçivəsində fiskal sahədə islahatların davam etdirilməsi, fiskal dayanıqlıq və tənzimləmənin, maliyyə intizamının təkmilləşdirilməsiilə bağlı tədbirlər nəzərdə tutulub. Səmərəsiz vergi və gömrük güzəşt və azadolmadan itirilən gəlirlərin bərpası üçün qiymətləndirmələr aparılaraq, bu məsələlərə yenidən baxılması diqqətdə saxlanılacaq. İri dövlət şirkətlərində korporativ idarəetmənin təkmilləşdirilməsi və büdcədən asılılığın azaldılması sahəsində islahatlar davam etdiriləcək. Strategiya çərçivəsində təhsil sahəsində islahatların aparılması, eləcə də ümumi təhsil müəssisələrinin infrastrukturunun yaxşılaşdırılması istiqamətində tədbirlər həyata keçiriləcək.

Çıxışının sonunda Baş nazir aparılan səmərəli müzakirələrə, verilən təklif və tövsiyələrə görə bir daha Milli Məclisin Sədri Sahibə Qafarovaya və deputatlara minnətdarlığını bildirib. Ölkə Prezidenti tərəfindən müəyyən edilmiş sosial-iqtisadi siyasətin uğurla həyata keçirilməsi, ölkəmizin inkişafı və xalqımızın rifah halının yüksəldilməsi naminə göstərdikləri qanunvericilik fəaliyyətində onlara uğurlar arzulayıb.

Milli Məclisin Sədri Sahibə Qafarova iclasda iştirak etdiklərinə görə Baş nazirə və hökumət üzvlərinə təşəkkürünü bildirib. Onlara Azərbaycanın inkişafı naminə dəyərli fəaliyyətlərində, dövlət büdcəsinin və digər büdcə sənədlərinin icrasında uğurlar arzulayıb.

Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli diqqətə çatdırıb ki, gündəliyin növbəti iki məsələsi Milli Məclisin qərar layihələridir. Bu məsələlər Azərbaycan Respublikası Milli Məclisinin və Azərbaycan Respublikası Hesablama Palatasının 2023-cü il üçün xərclər smetası ilə bağlıdır. Milli Məclisin noyabrın 16-da keçirilmiş iclasında qeyd edilib ki, qanunvericiliyə uyğun olaraq, bu qərar layihələri dövlət büdcəsi ilə eyni vaxtda qəbul edilməlidir.

Sonra deputatlar Milli Məclisin bu qərar layihələrinə münasibət bildiriblər.

Azərbaycan Respublikası Milli Məclisinin 2023-cü il üçün xərclər smetası haqqında və Azərbaycan Respublikası Hesablama Palatasının 2023-cü il üçün xərclər smetası haqqında Milli Məclisin qərar layihələri ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib.

Daha sonra "Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Konstitusiya qanununun layihəsi və "Dövlət-özəl tərəfdaşlığı haqqında" qanun layihəsi üçüncü oxunuşda qəbul olunub.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında və "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihələri isə ikinci oxunuşda qəbul olunub

### İki yeni medal təsis olunur

Növbəti məsələ - "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin 10 illiyi (2012-2022)" yubiley medalının və "ASAN xidmət" ilə səmərəli əməkdaşlığa görə" medalın təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" qanunda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsi ilə bağlı Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov məlumat verib. O bildirib ki, qanun layihəsində adları çəkilən iki yeni medalın "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" qanuna əlavə edilməsi və onların əsasnamələrinin və təsvirlərinin təsdiqi təklif olunur.

Məsələ ilə bağlı deputatlar Fazil Mustafa, Hikmət Məmmədov və Cavid Osmanovun fikirləri dinlənildikdən sonra qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Sonra birinci vitse-spiker Əli Hüseynli Miqrasiya Məcəlləsində və "Ələt Azad İqtisadi Zonası haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) müzakirəyə təqdim edib. O bildirib ki, layihədə Ələt Azad İqtisadi Zonasında fəaliyyət üçün əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisinə daxil olması, müvəqqəti qalması məsələlərinin tənzimlənməsi üçün hüquqi əsaslar müəyyən edilir.

Qanun layihəsi birinci oxunuşda qəbul olunub.

Daha sonra iclasda "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihələri birinci oxunuşda müzakirə olunub. Sənədlərin müzakirəsində deputatlar Musa Qasımlı, Qüdrət Həsənquliyev, Hikmət Məmmədov çıxış edərək layihələrlə bağlı fikirlərini, qeydlərini səsləndiriblər. Deputatlar çıxışlarında Milli Məclisin Sədri Sahibə Qafarovanı Türkmənistana rəsmi səfəri çərçivəsində bu ölkənin "Əməkdaşlığın inkişafına töhfəyə görə" Dövlət ordeni ilə təltif olunmasına görə təbrik ediblər və ürək sözlərini çatdırıblar.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili və komitənin bu qanun layihələri üzrə məruzəçisi Elnur Allahverdiyev deputatların qeydlərinə aydınlıq gətiriblər.

Milli Məclisin Sədri Sahibə Qafarova səsləndirilən məsələlərə münasibətini bildirib, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin deputatların Azərbaycanın efir məkanının xarici müdaxilələrdən qorunması ilə bağlı qaldırdıqları məsələni diqqətə almasını tövsiyə edib.

Hər üç qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul olunub.

İclasda son olaraq "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələri birinci oxunuşda qəbul edilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

Azərbaycanın özü qədər əbədi



# Tarix yaradan şəxsiyyət

**Heydər Əliyevin ölümsüzlüyə qovuşmasından 19 il ötür. Bu tarix Azərbaycan xalqının qəlbində ən hüznlü gündür.**

Dahi Səməd Vurğun "Ölüm sevinməsin qoy!" adlı şeirində yazmışdır:

*Ölüm sevinməsin qoy! Ömrünü vermir bada*
*El qədrini canından daha əziz bilənlər*
*Şirin bir xatirətək qalacaqdır dünyada*
*Sevərək yaşayanlar, sevilərək ölənlər...*

Təbii haldır ki, hər bir xalq özünün yetişdirdiyi tarixi şəxsiyyətləri ilə fəxr edir, onların yaratdığı irsə böyük ehtiramla yanaşır. Müasir Azərbaycan dövlətinin memarı və qurucusu, ölkəmizin müstəqilliyi, inkişafı naminə böyük və əvəzedilməz işlər görmüş, bununla da dünya və regional proseslərə təsir göstərmiş Heydər Əliyev hər zaman fəxr edəcəyimiz, qürur hissi ilə xatırlayacağımız dahi şəxsiyyətdir. Bu nadir düha XX əsrin sonunda bərpa etdiyimiz müstəqilliyimizin əbədi və dönməz xarakter almasına nail olmuş, misilsiz xidmətləri sayəsində xalqın dövlətçilik şüurunda ümummilli lider yüksəkliyini fəth etmişdir. Ulu Öndər Heydər Əliyev dünya siyasətinə təsir göstərməyə qadir şəxsiyyət kimi Azərbaycan xalqı və dövlətçiliyi üçün çox böyük və fövqəladə işlər görmüşdür. O, Azərbaycan xalqının və dövlətinin taleyüklü problemlərini həll edən tarixi şəxsiyyət olmaqla yanaşı, həm də tarix yaradan şəxsiyyətdir.

Heydər Əliyev el qədrini canından əziz bilən şəxsiyyətlərdən idi. Onun sevgisi milyonların qəlbində özünə əbədi məskən salmışdır. Ulu Öndərə əbədiyaşarlığı qazandıran ən böyük amil də elə bu idi.

Heydər Əliyev şəxsiyyətini səciyyələndirən ən üstün keyfiyyətləri sadalamaqla qurtarmaz. Heydər Əliyev fenomeni, şəxsiyyəti müstəqillik və azadlıqdan yoğrulmuşdur. Bu gün həmin səciyyəvi xüsusiyyətlərin ayr-ayrı çalarlarından bir neçəsini diqqətinizə çatdırmaq istəyirəm.

Heydər Əliyevin Azərbaycan Ali Sovetində 7 mart 1991-ci il, 29 avqust 1991-ci il və 30 avqust 1991-ci il tarixlərindəki çıxışları hər biri tarix və siyasətşünaslıq elminin araşdırma mövzusudur. Heydər Əliyevin bütün çıxışlarında olduğu kimi, həmin çıxışlarının da əsas qayəsi Azərbaycanın müstəqilliyinə çağırışı olmuşdur. Hər üç çıxışında Heydər Əliyev "Azərbaycan müstəqil yaşaya bilməz deyən manqurtlara Azərbaycanın müstəqil yaşaması üçün potensialının olduğunu vurğulamışdır. Həmin dövrdə eyforiyada olan müstəmləkə nökərləri dahi siyasətçinin çıxışlarına qarşı səs-küy salmaqla xalqın diqqətini öz sevimli oğlundan yayındırmağa çalışırdılar. Hətta ona Azərbaycanın müstəqil yaşaması imkanları haqqında geniş çıxış etməyə imkan verməmişdilər. Gözəl bir deyim var: tarix unudulmur.

Müstəqilliyə doğru atılmış ən mühüm addımlardan biri də Azərbaycan Ali Sovetinin qəbul etdiyi 30 avqust 1991-ci il tarixli Azərbaycanın Müstəqillik Bəyannaməsidir. Burada Azərbaycan Ali Soveti iki qütbə bölünmüşdür - müstəqilliyin tərəfdarları və əleyhidarları. Müstəqillik əleyhdarlarının avanqardı hakimiyyətini qoruyub saxlamağa çalışan Ayaz Mütəllibov və onun komandası idi. Onlar M.S.Qorbaçovun yenidənqurma adlı konsepsiyasını və onun ittifaqın yeni əsaslarla yenidən formalaşdırılması ideyasını dəstəkləyirdi.

Müstəqillik qütbünün başında dayanan isə təcrübəli siyasətçi Heydər Əliyev idi. O, kürsüdən xalqına səslənir, onu müstəqilliyə çağırır, deputatları bu yolu tutmağa sövq edirdi. Müstəqillik əleyhdarlarını isə kəskin şəkildə tənqid edirdi. Bu çıxışlardan biri də 30 avqust 1991-ci ildə edilmişdir. Heydər Əliyev: "Çox mühüm məsələ həll olunur. Tarixi məsələdir. Bunu tələm-tələsik həll etmək olmaz. Bu, Azərbaycan xalqı qarşısında parlament tərəfindən öz üzərinə böyük məsuliyyət götürmək deməkdir və Tofiq Köçərlinin durub hər suala cavab verməsinə səlahiyyəti yoxdur. Birinci, mən hesab edirəm ki, bu məsələ müzakirə olunmalıdır. Yenə də deyirəm, bunu belə tələm-tələsik keçirmək olmaz. Bu barədə iki-üç kəlmə demək istəyirəm. Çox qəribədir. Martın 7-dən 10-na qədər keçirilən Ali Sovetin sessiyasında bir çox deputatlar, o cümlədən mən də Azərbaycanın müstəqilliyini təklif edərkən bizim əleyhimizə cürbəcür hücumlar başlandı".

## Həyat kredosu - azadlıq

Heydər Əliyevin üzərinə olan hücumların məhz müstəqilliklə bağlı olması faktını o özü ifşa etmişdir. Bütün həyatı boyu müstəqil şəxsiyyət kimi yaşayan Heydər Əliyev üçün müstəqillik həyat kredosu idi. Odur ki, Ulu Öndərin bu məsələdə güzəştə getməsi mümkün deyildi. Belə də oldu. Heydər Əliyev çıxışında bu məsələnin tarixi bir məsələ olduğunu vurğulamış, siyasi konyunktura dalınca qaçıb müstəqilliklə bağlı formal sənədlər qəbul etməyin əleyhinə olduğunu bildirmişdir: "A.Mütəllibovun o qədər də dərin mənalı olmayan, əsassız çıxışından sonra hamı hay-küylə səs verdi ki, Azərbaycanın müstəqilliyi ola bilməz və biz referenduma getməliyik, yeni ittifaq müqaviləsini imzalamalıyıq (salonda səs-küy). Xahiş edirəm, Elmira xanım, şərait yaradın, sözümü deyim. Xahiş edirəm (səs-küy). Mən xahiş edirəm. Mənim deputatlıq... (səs-küy). Tələm-tələsik referendum keçirildi. Azərbaycanın ittifaq müqaviləsinə getməsi haqqında qərar qəbul olundu. Belə olan halda, indi xalqın iradəsi olmadan bu cür qərarın, ya bəyanatın qəbul olunması qanunu pozmaq deməkdir. Mən bu bəyanatın qəbul olunmasının əleyhinə deyiləm. Ancaq bu bəyanatı indi qəbul edib, xalqa müraciət etmək lazımdır. Qısa müddətdə, 3-4 gün içərisində referendum keçirmək lazımdır və referendumun nəticəsinə görə sessiya yığışıb bu qərarı qəbul etməlidir. Bağışlayın, fikrimi deyirəm. İkinci, mən mart ayında da demişdim. İkiüzlü siyasət aparmaq olmaz. Bu qərar bu gün konyunktur xarakter daşıyır, başqa yerlərdə qərar qəbul olunur. Demək, biz də qərar qəbul etməliyik. Biz artıq gecikmişik".

## Tarixə diktə edən siyasi lider

Göründüyü kimi, Heydər Əliyevin hər çıxışından sonra mötərizədə "səs-küy" qeydləri var. Bu, tarixdir. Həmin "səs-küy" edən şəxslər müstəqilliyin əleyhdarları idilər. Onlar Azərbaycanın müstəqil yaşaya bilməsinə inanmayan manqurtlar idi. Bu şəxslərin bəziləri indi Heydər Əliyev haqqında kitablar yazır özlərini qatı müstəqillik tərəfdarı kimi göstərməyə çalışırlar. Dahi siyasətçi Heydər Əliyevin çıxışındakı "ikiüzlü siyasət aparmaq olmaz" sözləri bu adamlar üçün deyilmişdir.

Heydər Əliyev böyük dövlət adamı və tarixçi kimi təkidlə tələb etmişdir ki, qəbul olunan sənəddə Azərbaycan Cümhuriyyətinin zorakılıqla devrildiyini və 28 aprelin işğal olduğu qeyd edilsin: "Bu bəyanatın mətninə mütləq əlavə olunmalıdır ki, 1920-ci il aprelin 28-də Azərbaycan işğal olunub. Mən Azərbaycan Kommunist Partiyasına 14 ilə yaxın rəhbərlik etmişəm, mən tam qətiyyətlə deyirəm, 28 apreldə Azərbaycan işğal olunub. Azərbaycan Demokratik Respublikası zorakılıqla ləğv olunub. Əgər biz bunu qeyd etməsək, yenə də xalqın qarşısında ikiüzlü olarıq. Mənim fikrim budur".

Heydər Əliyev həmin dönəmlərdə Ali Sovetdəki çıxışlarında hər dəfə rəhbərlikdən vaxt istəyirdi ki, müstəqilliklə bağlı məsələləri izah etsin. Lakin ona bu imkan verilmirdi. Səbəb çox sadə idi. Heydər Əliyevin yenidən böyük siyasətə qayıdışını istəməyən kütbeyinlər bununla onu siyasət meydanından uzaqlaşdıracaqlarını düşünürdülər. Onların yanıldıqlarını tarix sübut etdi.

Heydər Əliyev öz həyat kredosuna həmişə sadiq qaldı. Onun siyasi fəaliyyətinə Bakıda imkan verilmədiyi üçün o, müstəqillik ideyalarını Naxçıvanda gerçəkləşdirməyə başladı.

## Gizlədilən gerçəkliklər

Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyalarında ümumrespublika əhəmiyyətli məsələlərə münasibət bildirir və əhalini məlumatlandırırdı. Ulu Öndər Məclisin 20 noyabr 1990-cı il tarixli iclasında Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması və digər məsələlərə münasibət bildirərkən vəziyyətin acınacaqlı olmasını vurğulayaraq gerçək durumu belə anlatmışdır: "Bunun tarixi böyükdür. Burada durub deyirlər ki, nə bilim 1923-cü ildə nə olub, 24-cü ildə nə baş verib... Bu günün məsələlərini həll etmək lazımdır. DQMV düzgün olaraq yaranıb, yaxud düzgün yaranmayıb, - bu məsələlərə uysaq - bunlar, əlbəttə diqqətəlayiq məsələlərdir, - bu günün məsələləri yaddan çıxar. Əlimizdə olan vilayət əlimizdən gedib, indi hər yerdə yazırıq: Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayəti. Haradadır bu Azərbaycan Respublikası? DQMV-də bu ilin əvvəlində Ermənistan Respublikasının Ali Sovetinə seçkilər keçirilib və 12 nəfər deputat seçilib. Bu 12 nəfər deputatın Dağlıq Qarabağ Muxtar Vilayətindən seçilməsi indiyə qədər respublika ictimaiyyətindən gizlədilir. Eyni zamanda hamıya da olmasa, çox adama məlumdur ki, bu 12 nəfər deputat Ermənistan parlamentində fəal iştirak edir və orada bizə qarşı özlərini ən təcavüzkar aparan deputatlardır. Belə olan halda Dağlıq Qarabağa nə cür demək olar ki, bizimkidir. Xeyr, o, bizim əlimizdən gedib. Bunun tarixi isə uzundur, artıq üç ildir çəkir. Bunu deməklə vaxtınızı almaq istəmirəm... Bəs Şaumyan rayonu nə üçün əlimizdən gedib? Bəs Çaykənd kəndi nə üçün əlimizdən gedib? Nə üçün Azərbaycanın hakimiyyətinə tabe olmurlar?"

Heydər Əliyev həmişə gerçəkliklərin əhali ilə paylaşılmasını zəruri hesab edirdi. Bunun əksi olaraq, ozamankı respublika rəhbərliyi müti qul kimi Kremlə xidmət edir, onlardan imdad diləyirdi. Heydər Əliyev isə Kremlin bu məsələdə səmimi olmadığını və Qarabağ məsələsinin həllində ermənipərəst mövqe tutduğunu, problemin həlli ilə bağlı atdığı bütün addımların zərərli olduğunu vurğulayırdı.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 21 noyabr 1990-cı il tarixli sessiyasındakı çıxışında Heydər Əliyev demişdir: "Volskinin rəhbərliyi ilə xüsusi idarəetmə komitəsinin yaranması. İndi gəlin həqiqəti danışaq, bunu bir Qorbaçov ortaya atmayıb ki? Bu, uzun müzakirədən sonra yaranıbdır. Məsələn, Moskvada bir-iki adam mənim buna fikrimi soruşdu, mən qəti etiraz etdim. Ancaq Azərbaycanın rəhbərləri bu idarənin yaranmasını vəziyyətdən çıxış yolu kimi bildilər, bunu çıxış edən deputatların da dediyi kimi, çox təmtəraqla qəbul etdilər, bunu böyük bir nailiyyət kimi qələmə verdilər. Anlamadılar, yaxud da anlayaraq, qəsdən buna getdilər ki, Qarabağ əldən getsin... O ləğv olundu, indi yaradılıb - Təşkilat Komitəsi. Mən dünən dedim, yenə də öz fikrimi deyirəm: Təşkilat Komitəsi orada bir fəaliyyət göstərmir. Beləliklə, Dağlıq Qarabağ əldən gedibdir. Bu məsələlərə, bu prosesə öz fikrimizi bildirsək və göstərsək ki, mərkəzin siyasi rəhbərliyi və Azərbaycanın siyasi rəhbərliyi Dağlıq Qarabağda gedən bu proseslərin qarşısını almayıblar və get-gedə Dağlıq Qarabağ, həmçinin Şaumyan, Çaykənd Azərbaycanın əlindən gedir, mənə elə gəlir ki, bu bizim üçün kifayətdir və bu məsələni mərkəzin qarşısında, Azərbaycan Ali hakimiyyət orqanının qarşısında qoya bilərik ki, onu həll etsin".

## İdeoloji gerçəklikliyə münasibət

Heydər Əliyevin Sovet İttifaqı Kommunist Partiyasının rəhbərliyini siyasi riyakarlıqdan çəkindirməyə çalışaraq onları ittifaqı saxlamaqla bağlı illüziyalara qapılmamağa, xalqların azadlıq istəyini qəbul etməyə çağırırdı. Lakin odövrkü SSRİ rəhbərliyi M.Qorbaçov başda olmaqla öz ikiüzlü siyasətlərini davam etdirirdi. Bunun nəticəsi idi ki, 19 iyul 1991-ci il tarixdə Heydər Əliyev Kommunist Partiyası sıralarını tərk etdi. Heydər Əliyev SSRİ Nazirlər Kabinetinin partiya təşkilatına rəsmi müraciət edərək Kommunist Partiyasına olan münasibətini belə ifadə etdi: "Sizin nəzərinizə çatdırıram ki, mən Sov. İKP-dən çıxmaq qərarına gəldim. Dərhal xəbərdarlıq edirəm ki, bu, sadəcə, "dəbə" uymaq deyil, son illər ərzində keçdiyim ağır məyusluqlar yolunun məşəqqətləri və hadisələrini yenidən qiymətləndirməyimin yekunudur. Məni bu addımı atmağa məcbur edən başlıca səbəblər aşağıdakılardır:

**Birincisi,** hələ 1990-cı ilin yanvarında Mərkəzin və Azərbaycan KP-nin siyasi rəhbərliyi altında Azərbaycan xalqına qarşı edilmiş hərbi təcavüzdən sonra məndə Sov. İKP sıralarından çıxmaq fikri yarandı. Yanvar hadisələrində yüzlərlə adam öldürüldü və şikəst edildi. Bu antihumanist, konstitusiyaya və hüquqa zidd hərəkəti ittiham edərkən Sov.İKP və Azərbaycan KP MK-nın bu cinayətin üstünü açacağına və günahkarları üzə çıxaracağına ümid bağlayırdım. Özümü ələ alıb səbirlə gözlədim. Çıxışlarıma cavab əvəzinə çox çəkmədi ki, "Pravda"dan başlayaraq partiyanın mətbu orqanlarında mənə qarşı hücumlar təşkil edildi. Mənə qarşı yönəldilmiş uydurma faktları əsaslandırılmış şəkildə həmin kütləvi informasiya vasitələrinin özündəcə təkzib etmək cəhdlərim boşa çıxdı. Yenidənqurmanın əsas nailiyyəti olan aşkarlıq özünü birtərəfli göstərirdi. Yanvar faciəsinin günahkarlarını üzə çıxarmaq və cəzalandırmaq haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, ayrı-ayrı vətəndaşların, görkəmli ziyalıların müraciətlərini Azərbaycan kommunist rəhbərliyi qətiyyətlə rədd edirdi. Artıq il yarım keçib. Nəinki bu dəhşətli cinayətlərin hamıya çoxdan məlum olan günahkarları üzə çıxarılmayıb, əksinə, bunları ört-basdır etmək üçün əllərindən gələni edirlər. Ümid edirlər ki, zaman keçdikcə bu faciə unudulacaq. Ancaq tarix dəfələrlə sübut etmişdir ki, doğma xalqa qarşı yönəldilmiş qanlı cinayətləri on illər keçsə də, unutmaq və bağışlamaq mümkün deyil.

**İkincisi,** üç ildən artıqdır ki, mərkəzin ikiüzlü siyasəti nəticəsində, Sov.İKP-nin havadarlıq etdiyi erməni millətçilərinin səyi ilə DQMV-də yaranmış kəskin münaqişəli vəziyyət saxlanmaqdadır. Vilayət, əslində, tamamilə Azərbaycanın dövlət idarəçiliyindən çıxıbdır. Azərbaycanın dövlət suverenliyi, ərazi bütövlüyü konstitusiyaya zidd olaraq kobud şəkildə pozulub. Ermənistan və Azərbaycan arasında elan edilməmiş müharibə gedir. Hər gün iki tərəfdən də adamlar ölür. Bütün bunlar "humanist ideologiyalı" sovet dövləti üçün adi haldır. Əminəm ki, partiya rəhbərliyi istəsəydi, hələ 1987-ci ildə üzdəniraq Qarabağ problemi ətrafında milli münaqişə təzə başlananda onun qarşısını ala bilərdi, get-gedə güclənən qarşıdurmaya və həm Azərbaycan, həm də erməni xalqına ağır fəlakət və müsibətlər gətirmiş bu qırğınlara imkan verməzdi. Deməli, siyasi mərkəzə bu münaqişə lazımdır.

**Üçüncüsü,** bütün cəmiyyətin demokratikləşməsi, siyasi azadlıqların və plüralizmin bəyan edildiyi bir dövrdə Azərbaycanda ərazi bütövlüyünün müdafiəsinə qalxmış geniş demokratik hərəkat və cəmiyyətin demokratikləşməsi Sov.İKP-nin rəhbərliyi altında Azərbaycan KP MK-nın səyi ilə boğulur. Bu illərdə nə qədər adam siyasi fəaliyyətinə görə repressiyalara məruz qalıb. İlyarımdır ki, Azərbaycanın 2 milyonluq paytaxtı heç bir əsas olmadan fövqəladə vəziyyət rejimində yaşayır. Məhz belə bir şəraitdə respublika Ali Sovetinə üzdəniraq demokratik seçkilər və nəticələri ittifaqın xeyrinə irəlicədən həll olunmuş referendum keçirilmişdir. Fövqəladə vəziyyət şəraitində hər hansı demokratikləşməyə və xalqın iradəsini sərbəst ifadə etməsinə ümid bağlamaq avamlıq olardı. Demokratik təşkilatlar dəfələrlə seçicilərin əksəriyyətinin referendumda iştirak etməməsi və referendumun nəticələrinin saxtalaşdırılması barədə məsələ qaldırmışlar. Ancaq Azərbaycanın kommunist rəhbərliyi bu müraciətlərə hətta baxmağa belə lüzum bilməyib. Mən mərkəz tərəfindən sırınan yeni ittifaq müqaviləsinin əleyhinə çıxmışam və çıxıram. Hər hansı bir suveren dövlətin tərkibində bir neçə suveren dövlət və eləcə də bundan irəli gələn azadlıqlar, səlahiyyətlər və funksiyalar ola bilməz. Bütün müttəfiq respublikalara əsl siyasi, iqtisadi azadlıqlara, milli dövlət dirçəlişi üçün müstəqilliyə imkan vermək lazımdır. Bu heç də respublikaların iqtisadi birliyinə və ənənəvi mədəni əlaqələrinə mane olmaz, əksinə, onların təkmilləşməsinə, ikitərəfli və çoxtərəfli istiqamətdə inkişafına təsir göstərər. Naxçıvan Muxtar Respublikasının və Azərbaycanın xalq deputatı kimi öz çıxışlarımda bu məsələləri dəfələrlə qaldırdım. Təklif etdim ki, xalq arasında tam nüfuzunu itirmiş Azərbaycan KP təkhakimiyyətlikdən imtina etsin, bütün siyasi qüvvələrin azad və bərabərhüquqlu fəaliyyətini təmin etsin, demokratik cəmiyyətin yaranmasına, aşkarlıq və plüralizmə şərait yaratsın. Ancaq bu çıxış və təkliflərimə Azərbaycanın kommunist rəhbərliyi nəinki baxır, əksinə, mənim ünvanıma təşkil olunmuş və hazırlanmış hücumlar şəklində cavab verir. Azərbaycanda mənim çıxışlarımı dərc edən qəzet redaktorları, jurnalistlər işdən çıxarılır, təqiblərə məruz qalırlar. Bütün yuxarıda ifadə etdiklərim məni bu axırıncı addımı atmağa və Sov.İKP sıralarından çıxmaq haqqında bəyanat verməyə məcbur etdi; baxmayaraq ki, bu qərara gəlmək mənim üçün olduqca çətin olub. Mən kommunist ailəsində böyümüşəm və bütün şüurlu həyatım Kommunist Partiyası ilə bağlı olub. 1943-cü ildə 20 yaşında ikən öz taleyimi bolşeviklər partiyasına bağlamışam. Kommunist Partiyasının ideallarına varlığımla inanmışam və onun planlarının həyata keçirilməsində fəal iştirak etmişəm. İndi bütün bu inamlarım məhv olub. Yeniləşən partiya və respublikaların yeniləşən ittifaqı haqqında saysız-hesabsız bəyanatlar yenə də xalqı aldatmaqdır. Xalqa açıq və doğrusunu demək lazımdır ki, bizim ölkədə kommunizm eksperimenti, sosializm yolu özünü doğrultmadı, zorakılıqla yaranan və saxlanan respublikaların ittifaqı süquta uğramaqdadır. Bu bəyanatdan sonra qarşıma çıxa biləcək çətinlikləri təsəvvür edir, hər cür hücumları və mənəvi zərbələri qabaqcadan görürəm. Partiyanın keçdiyi yolun ayıq təhlili məni yuxarıda bəyan etdiyim indiki mövqeyə gətirdi. Bununla belə üzərimə düşən məsuliyyətin dərəcəsini də başa düşürəm. Sov.İKP sıralarını tərk edərkən, mən bütün təmiz və namuslu kommunistlərə hörmət bəslədiyimi bildirirəm".

Heydər Əliyevin müraciətindəki son cümləyə nəzər salaq: *"Sov.İKP sıralarını tərk edərkən, mən bütün təmiz və namuslu kommunistlərə hörmət bəslədiyimi bildirirəm"* - yazan Ulu Öndər əqidəcə təmiz insanlara hörmət bəslədiyini vurğulayır.

Heydər Əliyev bu müraciəti imzalayarkən Moskva şəhərində idi. O, Sov.İKP üçün bu addımın nə qədər böyük zərbə olduğunu və partiya rəhbərliyinin ona qarşı kəskin həyati risk yaradacaq addımlar atacağı gerçəkliyini bilirdi. Lakin ürəyinin səsinə qulaq asdı və bu addımı atdı.

## Müslüm Maqomayevi partiyaya qəbul olmağa qoymadı

Heydər Əliyevin Kommunist partiyasına münasibətini xarakterizə edən daha bir maraqlı hadisə dünyaşöhrətli müğənni Müslüm Maqomayevin xatirələrində yer alıb. M.Maqomayev müsahibələrindən birində demişdir: "Kommunist Partiyasına üzv qəbul olunmaq istəyirdim. Heydər Əliyevlə məsləhətləşmək üçün ona müraciət etdim. Heydər Əliyev mənə bildirdi ki, sən yaradıcı adamsan, istedadlı insansan, partiya sənin nəyinə gərəkdir. Partiyaya istedadı olmayan sənət adamları gedir ki, bu xətlə inkişaf etsin. Partiya sənin vaxtını alacaq. Və beləliklə, Heydər Əliyev məni Kommunist Partiyasına üzv qəbul olunmaqdan çəkindirdi".

*Heydər Əliyevin zəngin həyatından dərs alan İlham Əliyevin siyasi xadim kimi yetişməsində bu siyasi təbəddülatların böyük rolu olmuşdur. Onun uğurlu siyasi varis kimi yetişməsi də böyük dövlət adamı Heydər Əliyevin Azərbaycan xalqına ən böyük töhfəsidir.*

**Sadiq QURBANOV,**
**Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri**

## Azərbaycanın özü qədər əbədi

# Heydər Əliyev Xankəndidə onu salamlayan plakatı sökdürdü: "Biz Azərbaycandayıq!"

### Ulu Öndərin əsl vətənpərvərlik, güclü dövlətçilik və böyük ədalət irsi barədə polkovnik Hüseyn İsgəndərovun xatirələri

**Bu** gün xatirələrini bölüşdüyümüz insan hələ sovet dövründə Heydər Əliyevin uzaqgörənliklə milliləşdirdiyi respublikanın idarəetmə sisteminə, konkret olaraq, xüsusi xidmət orqanlarına gətirdiyi milli kadrlardan olub. Eyni zamanda Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi illərdə onu müşayiət edən DTK-nın xüsusi əməliyyat qrupunun üzvü olmuş, sonralar isə Azərbaycan təhlükəsizlik orqanlarında müxtəlif məsul vəzifələrdə çalışmış və o illərdə respublika rəhbərini fərqli situasiyalarda müşahidə etmək, ondan bilavasitə öyrənmək imkanına sahib olmuşdur.

DTK-da işlədiyi uzun illər ərzində daim prinsipiallığı, ədaləti və mərhəməti ilə fərqlənən, heç kimdən köməyini əsirgəməyən bu insan Qarabağ hadisələri başlayarkən, mərkəzin ədalətsiz və ermənipərəst siyasətinə qarşı etirazlara dəstək verdiyinə görə, Moskvadan göndərilən komissiya tərəfindən "millətçi hərəkata liberal yanaşma" ittihamı ilə təqiblərə məruz qalıb...

...Azərbaycan xüsusi xidmət orqanlarının veteranı, mərhum polkovnik Hüseyn İsgəndərovla müxtəlif dövrlərdə danışmaq, onun Heydər Əliyev haqqında xatirələrini dinləmək imkanı olsa da, bunları Hüseyn müəllimin sağlığında müfəssəl müsahibə şəklinə salmaq nəsib olmadı. Amma o söhbətlərdən bir çox qeydlər qalırdı.

Heydər Əliyevin portretinin unikal cizgilərini əks etdirən bu xatirələr itməməli, tarix yaddaşımızda öz yerini tapmalıdır...





**1973**-cü ildə Heydər Əliyev Dağlıq Qarabağ Muxtar Vilayətinin 50 illiyi münasibətilə yubiley tədbirlərində iştirak etmək üçün Xankəndiyə (ozamankı Stepanakertə) dəvət olunur. Şəhərin girişində vurulan böyük plakata "Dağlıq Qarabağ Muxtar Vilayətinə xoş gəlmisiniz, yoldaş Heydər Əliyev" yazısı qeyd olunmuşdu. Heydər Əliyev bu plakatın yanında avtomobilini saxlatdı və vilayət partiya komitəsinin birinci katibi Boris Kevorkovu yanına çağırtdırıb ona plakatı sökdürməyi tapşırdı. Orda hamının yanında bildirdi ki, biz Azərbaycandayıq, başqa bir respublikada deyilik, bu cür yazılar olmamalıdır. O zaman çoxları bu hərəkətin mənasını başa düşməsə də, Heydər Əliyevin uzaqgörən addımının səbəbi çox sonralar bilindi.



### Heydər Əliyevin dövləti milliləşdirmə fəaliyyəti müstəqillikdən çox-çox əvvəl başlamışdı

Hüseyn müəllim xatırlayırdı ki, o dövrün şərtlərinə görə, onun DTK orqanlarında işə qəbul olması mümkün deyildi. Düzdür, o, Azərbaycan Neft və Kimya İnstitutunu (indiki Neft və Sənaye Universiteti) fərqlənmə ilə bitirdikdən sonra, neft-qaz sənayesində çalışan perspektivli mühəndis hesab edilirdi. Lakin ötən əsrin 60-cı illərinin sonlarına qədər dövlət təhlükəsizliyi orqanlarında işləyən azərbaycanlıların sayı çox az idi. Seçilən kadrlar isə ailə kökləri daxil olmaqla orqanlar tərəfindən çox ciddi şəkildə yoxlanılırdı. Hüseyn müəllimin ailəsinin isə nəinki sovet nomenklaturası ilə əlaqəsi olmayıb, əksinə, 1930-cu illərdə "milli burjuaziya" təmsilçisi kimi repressiyalara məruz qalmış, hətta bir müddət səsvermə hüququndan məhrum edilmişdir.

Ancaq 1964-cü ildə Heydər Əliyevin DTX rəhbərliyinə gəlişindən sonra, tədricən bu sistemdə milliləşmə cəhdləri baş verib. Təbii ki, gənc mühəndis olan Hüseyn İsgəndərov bunu bilə bilməzdi. Bu səbəbdən də o, DTK-ya işə qəbul olunacaq namizəd kimi seçilməsi, ardınca bir çox yoxlamadan uğurla keçməsini, nəhayət, işə qəbul olunmasına həmin vaxt izah tapa bilmirdi. Bütün bu sualların cavabını o, yalnız 1969-cu ildə DTK-nın Minskdə yerləşən ali məktəbinə göndərilməzdən öncə respublika DTK-nın sədri general Heydər Əliyev tərəfindən qəbul ediləndə tapır.

Mərhum polkovnik deyirdi ki, həmin vaxt ixtisaslaşmış təhsilə ezam edilən hər bir əməkdaşla DTK sədri ayrı-ayrılıqda görüşüb söhbət edirdi. General Əliyevlə ilk görüş və qısa söhbət Hüseyn İsgəndərovda dərin iz buraxır. O xatırlayırdı ki, Heydər Əliyev ünsiyyətdə olduğu hər kəsdə sankı uzun müddətdir onu tanıdığı təəssüratı yaradır, onunla söhbət insanların qəlbini isindirir, səmimi ünsiyyətə sövq edirdi.

Qısa tanışlıqdan sonra Heydər Əliyev Minskə oxumağa göndərilən gənc kadra tövsiyələrini verir. Ozamankı nomenklatura funksionerlərinin əksəriyyətindən fərqli olaraq, DTK sədri bayağı rəsmi şüarlarla danışmır, daha konkret və vacib mövzulardan söz açır, ona Minskdə təhsil alarkən millətini təmsil edəcəyini unutmamağı tapşırır: *"O hər bir azərbaycanlıdan nümunəvi davranış tələb edirdi. Deyirdi ki, respublika xüsusi xidmət orqanlarında milli kadrlara etibar artdığı üçün hər bir müdavimin davranışı bütövlükdə milli kadrlar haqqında rəy formalaşdıracaq".*

Məhz bu görüş gənc müdavimdə respublika təhlükəsizlik orqanı rəhbərliyinə "milli adamın" gəldiyi əminliyini yaradaraq, onun özünün də bu sistemə qəbulunun təsadüf olmadığı qənaətini doğurur. Digər tərəfdən, Heydər Əliyevin tövsiyələri onda xüsusi məsuliyyət hissi yaradır. Bu məsuliyyəti hiss edən Hüseyn İsgəndərov Minsk Ali Məktəbini, ilk dəfə rus dilində təhsil almasına baxmayaraq, bütün fənlər, ən əsası da xüsusi ixtisas fənləri üzrə əla qiymətlərlə bitirir.

### İlin üçdəbirini rayonlarda səfərdə olan Birinci katib

Hüseyn İsgəndərov ixtisaslaşmış təhsili bitirib Azərbaycana qayıdanda respublikaya artıq Heydər Əliyev rəhbərlik edirdi. *"İlk görüşümüzdən az sonra Heydər Əliyevin Azərbaycan SSR Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi təyin olunması xəbəri bir çox milli kadrlar kimi, Minskə yeni göndərilmiş azərbaycanlı müdavimləri, o cümlədən məni də çox sevindirdi. Çünki onun istedadına və bacarığına, ən əsası millətin adamı olmasına inanırdıq",* - deyə Hüseyn müəllim xatirələrində qeyd edirdi.

Yeni Birinci katib kabinetdə az oturur, respublikanın sənaye, tikinti və xüsusilə də, kənd təsərrüfatı obyektlərində aparılan genişmiqyaslı işlərlə şəxsən tanış olur, bununla əlaqədar demək olar ki, hər ay bölgələrə səfər edirdi. Respublika rəhbərinin iş rejimini nəzərə alaraq onu DTK əməkdaşları tərəfindən müşayiət edəcək xüsusi əməliyyat qrupuna ehtiyac yaranmışdı. Bu qrup həm Ulu Öndərin mühafizəsini təşkil etməli, regionlarda əməliyyat vəziyyətini tam dəqiqliklə öyrənərək Birinci katibin dəqiq tələblərinə uyğun obyektiv məruzələr hazırlayıb təqdim etməli idi. Üzvlərini Heydər Əliyevin şəxsən təsdiq etdiyi bu qrupa Hüseyn İsgəndərov da daxil edilir.

Hüseyn müəllim deyirdi ki, bu qrupda fəaliyyəti dövründə o, Azərbaycanın əksər rayonlarını qarış-qarış gəzmişdi. *"Bəzi gərgin illərdə Heydər Əliyevlə ilin demək olar ki, üçdəbirini ölkənin müxtəlif şəhər və rayonlarında səfərlərdə olurduq".*

Hər bir səfər həm də həmin bölgəni araşdırmaq demək idi: *"Heydər Əliyevin tapşırığı ilə getdiyimiz hər rayondakı vəziyyət haqqında hesabatlar hazırlanırdı. Çünki Birinci katib rayonlarda ona təqdim olunan "quru" statistik məlumatlara qane olmurdu. Onu insanların real qayğıları, düşündükləri, rayonlarda hökm sürən abhava maraqlandırırdı. Hər bir problemlə, o cümlədən vətəndaşların şikayətləri ilə maraqlanır və problemlərin yerində həlli ilə bağlı konkret tapşırıqlar verirdi. Bu səfərlər zamanı hərbi sistemdən çıxmış respublika rəhbəri olmasına rəğmən, onun istər sənaye, istər tikinti, istərsə də kənd təsərrüfatının müxtəlif sahələri ilə bağlı bilikləri bizi heyrətə gətirirdi".*

### Heydər Əliyev Qarabağa xüsusi həssaslıq göstərirdi

Ulu Öndərin milli məsələlərdəki uzaqgörənliyi və həssaslığı onu yaxından izləmək imkanı olan əməliyyat qrupu əməkdaşlarının xüsusi ilə diqqətini çəkirdi.

Qeydlərdə Hüseyn müəllimin bununla bağlı tarixi bir fakt haqqında xatirəsi belə əks olunub: *"1973-cü ildə Heydər Əliyev Dağlıq Qarabağ Muxtar Vilayətinin 50 illiyi münasibətilə yubiley tədbirlərində iştirak etmək üçün Xankəndiyə (ozamankı Stepanakertə) dəvət olunur. Şəhərin girişində vurulan böyük plakata "Dağlıq Qarabağ Muxtar Vilayətinə xoş gəlmisiniz, yoldaş Heydər Əliyev" yazısı qeyd olunmuşdu. Heydər Əliyev bu plakatın yanında avtomobilini saxlatdı və vilayət partiya komitəsinin birinci katibi Boris Kevorkovu yanına çağırtdırıb ona plakatı sökdürməyi tapşırdı. Orda hamının yanında bildirdi ki, biz Azərbaycandayıq, başqa bir respublikada deyilik, bu cür yazılar olmamalıdır. O zaman çoxları bu hərəkətin mənasını başa düşməsə də, Heydər Əliyevin uzaqgörən addımının səbəbi çox sonralar bilindi".*

### Cəzalandırmaq deyil, tərbiyələndirmək lazımdır

Heydər Əliyev respublikanın idarəetməsində DTK-nın imkanlarından geniş istifadə etsə də, bu qurumun roluna sovet praktikasından fərqli yanaşma nümayiş etdirir, DTK-nı bir cəza maşını kimi görmürdü. Komitə rəhbərliyinə cinayətin profilaktikasına üstünlük verməyi tövsiyə edirdi.

Hüseyn müəllim xatirələrində bu yanaşmanın bariz nümunəsi sayılacaq bir hadisəni xüsusi qeyd etmişdi: *"1980-ci illərdə Bakının Nərimanov rayonu DTK şöbəsinin rəisi vəzifəsində çalışırdım. Bir gün həmin rayonda o dövrün standartlarına görə böyük "ÇP" baş verdi - mərkəzi prospektlərin birində asılan Brejnevin böyük portret-plakatında onun ulduzları kəsilib götürülmüşdü. Hadisə barədə xəbər ildırım sürəti ilə yayıldı. Azərbaycan DTK-nın rus əsilli sədri Vitali Krasilnikov hadisəni siyasi-ideoloji təxribat kimi göstərməyin tərəfdarı idi. Moskvaya bu cür hesabat verməklə, işin araşdırılmasını DTK-nın uğurlu əməliyyatı kimi təqdim etməyə çalışırdı. Şübhəsiz ki, məsələ böyüyəcəyi təqdirdə hadisəni törətmiş şəxsi ağır cəza gözləyirdi".*

Krasilnikov rayon şöbəsinin rəisi Hüseyn İsgəndərova öz kabinetində tapşırıq verdikdən sonra elə onun yanında hökumət telefonu ilə Heydər Əliyevə hadisə barədə məruzə edir. Lakin Birinci katib DTK sədrinin bu məruzəsi ilə kifayətlənmir, bilavasitə rayon rəisi ilə danışaraq ona hadisəni araşdırıb dəqiq səbəblərini öyrənməyi tapşırır. Hüseyn müəllim deyirdi ki, *"söhbət zamanı hiss etdim ki, Krasilnikovdan fərqli olaraq Heydər Əliyev hadisənin böyüdülüb ona siyasi don geyindirməyin tərəfdarı deyil".*

Hadisə tez bir zamanda araşdırılır və onu törədən şəxs tapılır. Məlum olur ki, hadisəni Nərimanov rayonunda yerləşən zavodlardan birində işləyən fəhlə törədib. Evdə ailəsi ilə münaqişəsi olub, o da hirslənib maaşının azlığının günahkarı kimi "qisasını" sovet liderinin plakatından almaq istəyib. Ulu Öndərin yanaşmasını rəhbər tutan Nərimanov rayon DTK şöbəsinin rəisi, məsələni olduğu şəkildə, məişət zəminində baş vermiş hadisə kimi məruzə edir. Nəticədə zavallı fəhlə ilə profilaktik söhbət aparıldıqdan sonra o, sərbəst buraxılır.

### Milli-mənəvi dəyərlərin böyük hamisi

Sovet dövründə qəbul edilmiş qaydaya əsasən, ölkə xaricinə səfər edən hər bir heyətin tərkibində mütləq təhlükəsizlik orqanı əməkdaşı olmalıydı. Bu qaydaya əsasən, 1970-ci illərdə Hüseyn müəllim də respublikanı təmsil edən mədəniyyət və idman heyətləri ilə birlikdə xarici səfərlərdə iştirak etmişdir. Bunlardan biri də Azərbaycan futbolçuları ilə birgə İraqa səfər olmuşdur. Yarışlarla yanaşı, səfər çərçivəsində qonaq heyət üçün İraqın bir neçə tarixi məkanına ekskursiyalar təşkil edilir. Amma burada azərbaycanlı heyətin proqramda olmayan istəyi meydana çıxır - sovet dövrünün ateizm təbliğatı və sərt qadağalarına baxmayaraq, komandanın əksər üzvləri Kərbəla şəhərinə getməyi, İmam Hüseynin (ə) məqbərəsini ziyarət etməyi çox arzulayırdılar.

Hüseyn İsgəndərov heyətin bu arzusunu SSRİ-nin Bağdaddakı səfirliyinin müşaviri, gənclik illərindən tanıdığı həmyerlimiz Elman Araslıya çatdırır. O isə öz növbəsində cavab verir ki, əvvəlcədən təsdiq edilmiş səfər proqramını yalnız DTK-nın Bağdaddakı sovet səfirliyindəki rezidenti dəyişə bilər. Bağdadda sovet kəşfiyyatının nümayəndəsi ilə görüşən Hüseyn İsgəndərov əlbəttə, ona Kərbəlaya səfərin əsl məqsədini deyə bilməzdi. Hüseyn müəllim rezidentə həmin dövrdə Ulu Öndərin təşəbbüsü ilə Azərbaycan ədəbiyyatının dühası Məhəmməd Füzulinin beynəlxalq müstəvidə tanıdılması ilə əlaqədar geniş tədbirlər həyata keçirildiyini bildirir.

Bildiyimiz kimi, Məhəmməd Füzulinin məzarı da Kərbəlada, İmam Hüseyn məqbərəsinin yaxınlığında yerləşir. Məhz Azərbaycandan gələn idman heyətinin də "böyük həmyerlimizi ziyarət etmək arzusunu" əsas gətirən və bunu Heydər Əliyevin "Sovet Azərbaycanı ilə Şərq ölkələri arasında mədəni əlaqələrin genişlənməsi siyasətinə cavab verəcəyini" deyən və Ulu Öndərin SSRİ miqyasındakı siyasi nüfuzuna istinad edən Hüseyn müəllim DTK rezidentinin proqramı dəyişməsinə nail olur.

### "Öncə xalqın taleyini düşünürdü"

1980-ci illərin ikinci yarısında, yenidənqurma dövründə, xüsusilə də Heydər Əliyev siyasi intriqalarla SSRİ rəhbərliyindən kənarlaşdırıldıqdan sonra Azərbaycanda onun kadrlarına qarşı təqiblərə start verildi. Əslində isə Ulu Öndərə "yaxın kadrlar" adı altında milli təəssübkeşliyi olanlar müxtəlif bəhanələrlə respublikanın idarəetməsindən uzaqlaşdırılırdı. Bu prosesdə cəzalandırılanlardan biri də Hüseyn İsgəndərov olur.

Azərbaycanda yoxlama aparmaq üçün 1988-ci ildə ittifaq mərkəzindən göndərilmiş komissiya Hüseyn İsgəndərov haqqında Azərbaycan KP Mərkəzi Komitəsinə yazılan arayışda onu "millətçi hərəkata çəhrayı eynəklə baxmaqda" ittiham edir və az sonra, o, vəzifəsi aşağı salınaraq paytaxtdan əyalətə, DTK-nın Şamaxı şöbəsinə göndərilir.

Bakıdan davam edən təzyiqlərə baxmayaraq, Hüseyn müəllim qısa müddətdə Şamaxı şöbəsinin xidməti məsuliyyət dairəsində olan rayonlarda hörmət qazanır, 1990-cı il 20 Yanvar qırğınından sonra isə məhz onun səyi nəticəsində kurasiyasında olan Ağsu rayonundan bir nəfər belə olsun repressiyalara məruz qalmır. Bunu yüksək qiymətləndirən rayon əhalisinin göstərdiyi etimadla o, 1990-cı ildə Ali Sovetə keçirilən seçkilərdə Ağsu rayonunun deputatı seçilir.

Beləliklə, uzun fasilədən sonra o, 1991-ci ildə parlamentdə Ali Sovetə Naxçıvandan seçilmiş Heydər Əliyevlə görüşür. Respublikada süni şəkildə yaradılmış ab-hava, eləcə də Ulu Öndərə qarşı açıq sezilən qısqanclıq səbəbindən həmin vaxt hətta keçmişdə irəli çəkdiyi insanlar ona yaxınlaşmaqdan belə qorxurdular.

Ali Sovetin iclasında isə əvvəlcədən hazırlanmış ssenari əsasında ona qarşı hücumlar təşkil edilirdi. Hətta MK-dən parlament rəhbərliyinə mümkün barışdırıcı çıxışların önünü almaq üçün Heydər Əliyevə simpatiyada şübhəli bilinən deputatların siyahısı tələb edilmiş və onlara söz verməmək tapşırılmışdı.

Bu şəraitdə parlamentin foyesində cəmisi 3 nəfər - Zeynəb Xanlarova, Nadir Quliyev və Hüseyn İsgəndərov Ulu Öndərlə görüşüb, hal-əhval tuturlar. *"Bu, bizim Heydər Əliyevə hörmətimizlə yanaşı, həm də ona qarşı baş verən ədalətsizliyə etirazımızın təzahürü idi",* - deyən Hüseyn müəllim xatırlayırdı ki, *"Heydər Əliyev üçün Ali Sovetdə ona qarşı hökm sürən abhava ağır olsa da, onu əsas narahat edən respublikanın ağır durumu, günü-gündən tüğyan edən erməni təcavüzünün nəticələri idi".*

Parlament foyesində baş vermiş ayaqüstü söhbət zamanı da o məhz bu məqamı qeyd edib və yeganə amalının unikal təcrübəsindən respublikanın düşdüyü ağır vəziyyətdən çıxarılması üçün istifadə edilməsi olduğunu bildirib. Hüseyn müəllim xatırlayırdı ki, onu bu söhbət zamanı ən çox təsirləndirən də, bu qədər ədalətsizliyə məruz qalmış bir insanın ilk növbədə özünü deyil, millətin taleyi narahat etməsi olub: *"O gün bir daha əmin oldum ki, xalqı dərinləşən böhrandan yalnız Heydər Əliyev fədakarlığı və əzmi çıxara bilər".*

*Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri Elşad İsgəndərov da qeyd edir ki, atası Hüseyn müəllim üçün Heydər Əliyev yalnız millətin və dövlətin xilaskarı deyildi, həm də əsl müəllim, həmçinin ədalət, qətiyyət, cəsarət simvolu, böyük vətənpərlik örnəyi idi.*

*...Və bu yol, bu irs indi Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilir, Zəfərlə taclandırılır, tarixin ən qüdrətli Azərbaycanı gerçəkliyi ilə tarixi hədəflərinə çatır...*

***Kənan QULİYEV***

Azərbaycanın özü qədər əbədi

# HEYDƏR ƏLİYEV və CƏNUBİ AZƏRBAYCAN

Azərbaycan rəhbəri digər mühacirləri də dövlət mükafatlarına təqdim edirdi. Qeyd etmək lazımdır ki, 1976-cı ilədək 479 siyasi mühacir istehsal göstəricilərinə görə müxtəlif orden və medallarla təltif olunmuşdu. Cənubi Azərbaycandan olan 3 nəfərə Sosialist Əməyi Qəhrəmanı fəxri adı verilmişdi.

Heydər Əliyevin bilavasitə qayğısı ilə 21 Azər Günü həmişə qeyd edilirdi. Cənubi Azərbaycandan olan siyasi mühacirlərə yaxşı şərait yaradılmışdı. 1981-ci ildə siyasi mühacirlər üçün 142.500 rubl daimi yardım ayrıldı. Mühacirət cəmiyyətinin yerləşdiyi bina təmir etdirildi. Azərbaycan Demokrat Partiyasının birinci katibi Əmirəli Lahrudi 1981-ci il oktyabr ayının 28-də Heydər Əliyevə yazdığı məktubunda mühacirlərə göstərdiyi qayğıya görə təşəkkür etmişdi.

Respublika rəhbəri əsərləri həm cənubda, həm də şimalda tanınan, lakin Azərbaycan SSR-də yaşamağa məcbur olan cənublu alim, şair, yazıçı və publisistlərə qayğı göstərirdi. Onların əsərləri nəşr edilir, mənzil şəraitləri yaxşılaşdırılır, yubileyləri qeyd olunur, müxtəlif mükafatlara layiq görülürdülər və s. Məsələn, Cənubi Azərbaycanın Mərənd mahalının Zunuz kəndində anadan olmuş dilçi alim Muxtar Hüseynzadənin 80 illiyi 1980-ci ildə qeyd edildi. Bu toplantının keçirilməsi həm ana dilinə, həm də cənublu alimlərə qayğının nümunəsi idi.

Bakıda Cənubi Azərbaycan Yazıçılar Cəmiyyəti fəaliyyət göstərirdi. Cəmiyyət üçün normal iş şəraiti yaradılmışdı. Azərbaycan rəhbəri bu təşkilatın müraciətlərinə diqqətlə yanaşaraq istəklərini yerinə yetirirdi. Cəmiyyətin 1971-ci il 20 aprel tarixli müraciətinə əsasən, tanınmış şair Balaş Azəroğlunun anadan olmasının 50 illiyi təntənəli şəkildə qeyd edildi. Bu toplantı təkcə Balaş Azəroğluya deyil, bütün cənublu yazıçı və şairlərə qayğının, diqqətin nümunəsi idi. Azərbaycan yazıçılarının 1971-ci ilin iyun ayında keçirilən V qurultayının materiallarında yazılırdı: "Ölkəmizdə İran Azərbaycanından bir qrup yazıçı yaşayıb-yaradır". Qurultayda cənublu yazıçı və şairlərin adından çıxış edən Balaş Azəroğlu cənublu qələm sahiblərinə Azərbaycanın şimalında göstərilən diqqət və qayğıya görə Azərbaycan rəhbərinə dərin minnətdarlığını bildirdi. Qurultayda Heydər Əliyevin parlaq nitqi təkcə ədəbiyyatı və ədəbi yaradıcılıqda gedən prosesləri dərindən bilməsi ilə deyil, eyni zamanda xalqla yaradıcı adamların arasında səmərəli, səmimi əlaqələrin qurulması yolları barədə aydın milli proqramının olması ilə səciyyələnirdi. Heydər Əliyev deyirdi: "Yazıçı xalq üçün yaradır... kütlələrlə, oxucularla yaxınlıq ona xüsusilə coşqun ilham verir". O, bütün yazıçıları, o cümlədən cənubluları xalqla daha yaxın olmağa və xalqın həyatından yazmağa səsləyirdi.

## İran inqilabı: rejim dəyişir, azərbaycanlılara münasibət isə olduğu kimi qalır. Bəs Heydər Əliyev nə edir?

İnqilabdan sonra İranda rejim dəyişsə də, azərbaycanlılara münasibət olduğu kimi qaldı. Əgər şah rejimi azərbaycanlıları iranlı deyərək assimilyasiya edirdisə, İran inqilabından sonra qurulan yeni hakimiyyət hamını müsəlman adlandırırdı. Bu mərhələnin başlıca səciyyəvi cəhəti İran inqilabından sonra beynəlxalq aləmdə və regionda yaranmış mürəkkəb vəziyyətlə bağlı idi. ABŞ-də nəşr olunan kitablarda yazıldığı kimi, Heydər Əliyevin fəaliyyətində İran şahının qovulması mühüm yerlərdən birini tuturdu. İnqilabın qalib gəlməsi ilə onun liderləri tərəfindən SSRİ, ABŞ və İsrailin dünyada üç şeytan elan edilməsi İranda nüfuz savaşı aparan həm ABŞ-nin Mərkəzi Kəşfiyyat İdarəsinin, həm də SSRİ DTK-sının məğlubiyyətə uğraması demək idi. Bundan sonra sovet-İran münasibətləri xeyli soyuqlaşdı. Cənubi Azərbaycanda NATO və Varşava Müqaviləsi Təşkilatının aparıcı dövlətləri arasında nüfuz savaşı gücləndi. Çarizm dönəmindən ötən bütün dövr ərzində birinci dəfə olaraq Rusiyanın bu ölkə üzərində təsiri azaldığından sovet rəhbərliyi İrana öz gücünü göstərmək üçün yeni yollar və təzyiq vasitələri axtarmağa başladı.

(Əvvəli qəzetin 8 dekabr sayında)

Bu zaman azərbaycanlılar ana dilinin, mədəniyyətinin qorunması şüarları ilə daha fəal çıxış edirdilər. İnqilabdan sonra nəşrə başlayan bir sıra qəzet və jurnalların adları da həmin istəyi ifadə edirdi. Məsələn, görkəmli həkim Cavad Heyətin nəşr etdirdiyi jurnalın adı "Varlıq" qoyulmuşdu. Bu ad azərbaycanlıların diriliş, var olmaq istəyini ifadə edirdi. Qeyd etmək lazımdır ki, bu nəşr Bakıda rəğbətlə qarşılanır və təşviq olunurdu.

Yaranmış beynəlxalq şəraitdən məharətlə istifadə edən Heydər Əliyev Azərbaycan xalqının mənafeləri naminə onu uzun illər boyu düşündürən problemin yenidən gündəliyə gətirilməsi və həlli uğrunda fəaliyyətini genişləndirdi. Ovaxtadək bədii ədəbiyyatda əks olunan Cənubi Azərbaycan mövzusu bilavasitə Heydər Əliyevin səyləri ilə ictimai-siyasi həyatda yer tutmağa başladı. Çünki bu zaman Cənubi Azərbaycanda yaşayan xalqın hüquqlarının müntəzəm olaraq kobud şəkildə pozulması və bundan törənən narazılıq güclənmişdi. Beləliklə, müharibədən sonra ilk dəfə olaraq Heydər Əliyevin hakimiyyəti illərində bütöv Azərbaycan şüarı təkcə ədəbi, ictimai mühitdə deyil, eyni zamanda siyasi dairələrdə geniş müzakirə obyektinə çevrildi.

Heydər Əliyev cənublu yazıçı, şair və publisistlərə qayğı göstərməyin, onların əsərlərinin nəşrini genişləndirməyin, Cənubi Azərbaycanla ədəbi-mədəni əlaqələri möhkəmləndirməyin zəruriliyi barədə ən yüksək kürsülərdən açıq şəkildə gur səslə deyirdi. Onun göstərişinə əsasən, 1979-cu ildə Azərbaycan Yazıçılar İttifaqında Cənub ədəbiyyatı üzrə katib vəzifəsi təsis edildi. Heydər Əliyevin Azərbaycan yazıçılarının 1981-ci ildə keçirilən VII qurultayında iştirakı və fəaliyyəti bu baxımdan daha cəlbedicidir. Azərbaycan rəhbəri qurultayda etdiyi nitqində deyirdi: "Respublika Yazıçılar İttifaqının tərkibində Cənubi Azərbaycandan olan ədəbiyyatçılar da məhsuldar işləyirlər. Yaradıcılıq ittifaqının rəhbərliyi onlara daim diqqət yetirməli, onların əsərlərini respublikada və respublikanın hüdudlarından kənarda geniş təbliğ etməlidir. Ümumiyyətlə, Cənubi Azərbaycanla ədəbi əlaqələri möhkəmlətmək, mədəniyyətin, mənəvi yaradıcılığın bütün sahələrində geniş əlaqələri inkişaf etdirmək, toplanmış zəngin bədii-estetik təcrübəni qələm yoldaşlarına vermək barədə düşünmək lazımdır".

Azərbaycan rəhbəri soyuq müharibə şəraitində aparılan nüfuz savaşında cənub və şimalı vəhdətdə görərək vətənin hər iki tayını ümumi məsələlərdə bir olmağa çağırır, Cənubi Azərbaycan üzərində Azərbaycan SSR-in təsirinin güclənməsinə çalışırdı. Azərbaycan Yazıçılarının elə həmin qurultayında Heydər Əliyev şair Balaş Azəroğluya üzünü tutaraq deyirdi: "... bütün Cənubi Azərbaycanda yaşayan şairlərə təsir göstərib başa salınız ki, türk dili deməsinlər, Azərbaycan dili desinlər və buna nail olmaq lazımdır. Bu, birincisi sizin borcunuzdur. Çünki onlar özlərini azərbaycanlı sanır, dilləri də Azərbaycan dilidir. Biz Azərbaycan dilini qəbul etmişik... Necə ki burda vardır, eləcə də Cənubi Azərbaycanda". Bu fikirlər, əslində, Cənubi Azərbaycan məsələsində bütöv Azərbaycan, birlik ideyasının geniş təbliği demək idi.





Принято 15 июля 1980 г. прот. № 146 § Y Сов.секретно

ПОСТАНОВЛЕНИЕ

БЮРО ЦЕНТРАЛЬНОГО КОМИТЕТА КОМПАРТИИ АЗЕРБАЙДЖАНА

Об усилении информационно-пропагандистской работы на Иран

В постановлении ЦК КПСС от 8 июля 1980 года по данному вопросу отмечается:

В связи с активизацией империалистической пропаганды на Иран, существенным увеличением объема американских и других западных радиопередач на Иран, в которых искажается внешняя и внутренняя политика Советского Союза, а также принимая во внимание усиление враждебной Советскому Союзу деятельности реакционных иранских кругов, в которой принимают участие некоторые правящие круги и духовенство, ЦК КПСС счел необходимым принять дополнительные меры по информационно-пропагандистской работе на Иран, в том числе:

– Поручено Международному отделу и Отделу внешнеполитической пропаганды ЦК КПСС провести необходимые координирующие мероприятия по усилению пропаганды на Иран, имея в виду, что эти мероприятия должны обеспечивать:

разоблачение политики империалистических кругов США и иранской реакции;

развитие в Иране общедемократических тенденций и закрепление страны на антиимпериалистических позициях, проведение Ираном политики неприсоединения;

широкое информирование иранской общественности о политике Советского Союза, оказывающего поддержку и помощь иранскому народу в защите его суверенитета и национальной целостности.

Вся эта пропагандистская работа должна строиться с учетом развития в Иране политической обстановки и состояния советско-иранских отношений. Предусмотреть, что содержание теле- и радиопередач, а также основных пропагандистских материалов подлежит оперативному согласованию в централизованном порядке.

– Гостелерадио СССР и Министерству связи СССР совместно с ЦК Компартии Азербайджана изучить вопрос об увеличении времени вещания из Баку на языке фарси, а также возможности расши-



6.

– совместно с Гостелерадио республики подготовить и направить в Иран магнитофонные записи историко-революционных пьес азербайджанских и советских авторов на языке фарси и азербайджанском языке и азербайджанской музыки;

– совместно с Госкомиздатом республики регулярно направлять в Иран в качестве дара произведения азербайджанских писателей и поэтов, общественно-политическую и информационно-пропагандистскую литературу и грампластинки;

– совместно с Союзом писателей республики подготовить к изданию малоформатные книги азербайджанских поэтов на азербайджанском языке на арабской графике для направления в Иран.

10. Нахичеванскому обкому, Бакинскому горкому, Астаринскому райкому Компартии Азербайджана, Каспийскому морскому пароходству, Управлению Азербайджанской железной дороги обеспечить таможенные пункты, железнодорожные, автомобильные и морские вокзалы информационно-пропагандистскими материалами, средствами наглядной агитации, наборами грам- и магнитозаписей азербайджанской национальной музыки.

11. Руководству и партийному комитету Каспийского морского пароходства совместно с Госкомитетом [illegible] Азербайджанской ССР по делам издательств, полиграфии и книжной торговли, Министерством связи Азербайджанской ССР обеспечить суда заграничного плавания пропагандистской, художественной литературой на азербайджанском языке, журналами и газетами на иностранных языках для проведения активной информационно-пропагандистской работы в портах Ирана.

12. Совету Министров Азербайджанской ССР рассмотреть и решить все материально-финансовые и штатные вопросы, вытекающие из настоящего постановления.

лв2



65

СЕКРЕТНО

COMITE CENTRAL DU PARTI D'EMOCRAT D'AZERBAIDJAN– ORGANISATION DU PARTI TOUDE D'IRAN EN AZERBAIDJAN

№ 19

D 26.V.81

СОВ.ИКП МК СИЈАСИ БҮРОСУНУН ҮЗВЛҮЈҮНӘ НАМИЗӘД, АЗӘРБ.КП МК-НЫН БИРИНЧИ КАТИБИ

ҺЕЈДӘР ӘЛИЈЕВ ЈОЛДАША

Һөрмәтли Әлијев јолдаш!

Өз шүурлу һәјатыны Азәрбајҹанын мүбариз ше'ринин инкишафына һәср едән көркәмли шаир Балаш Азәроғлу јолдаша халг шаири фәхри ады верилмәси Азәрбајҹан Коммунист Партијасынын вә шәхсән Сизин Ҹәнуби Азәрбајҹан халгына, онун милли вә демократик әдәбијјатына, Ҹәнуби Азәрбајҹанын әдиб вә шаирләринә, о ҹүмләдән мүһаҹирәт илләриндә демократик әдәбијјатымызын јазыб јарадан нүмајәндәләринә көстәрилән аталыг гајғысыдыр.

Иҹазә верин бу бөјүк гајғы вә е'тимада көрә Һизбе Тудеји Иранын Азәрбајҹан тәшкилаты – АДФ-нин Мәркәзи Комитәси адындан Азәрбајҹан Коммунист Партијасынын Мәркәзи Комитәсинә, шәхсән Сизә вә Сизин симанызда ган гардашларымыза өз тәшәккүрләримизи вә дәрин миннәтдарлығымызы билдирәк вә Сизи әмин едәк ки, шаир вә јазычыларымыз бу аталыг гајғысына халгымызын мүбаризәсинә лајиг јени-јени әсәрләр јазмагла ҹаваб верәҹәкләр.–

ҺТИ-НИН АЗӘРБ.ТӘШКИЛАТЫ–
АДФ МК-НЫН БИРИНЧИ КАТИБИ: Ә.Ә.ЛАҺРУДИ.



СОВ.ИКП МК СИЈАСИ БҮРОСУНУН ҮЗВЛҮЈҮНӘ НАМИЗӘД, АЗӘРБ.КП МК-НЫН БИРИНЧИ КАТИБИ

ҺЕЈДӘР ӘЛИЈЕВ ЈОЛДАША

Һөрмәтли Әлијев јолдаш!

Азәрбајҹан ССР Халг Шаири кими јүксәк фәхри ада лајиг көрүлмәјим мүнасибәтилә Азәрбајҹан Коммунист Партијасынын Мәркәзи Комитәсинә вә шәхсән Сизә өз тәшәккүрүмү вә миннәтдарлығымы билдирирәм.

Азәрбајҹан поезијасынын бөјүк үмманында бир зәррә олан мәним јарадыҹылығыма көстәрдијиниз бу аталыг гајғысыны мән, империализмә вә шаһлыг диктатурасына гаршы ардыҹыл мүбаризә апармыш демократик әдәбијјатымыза вә онун јарадыҹыларына олан гајғы вә верилән гијмәт кими гәбул едирәм.

Азәрбајҹан халгынын севимли рәһбәри Һејдәр Әлијев јолдаш, гәләм јолдашларым вә шәхсән өз адымдан Сизә тәшәккүр едир, халгымызын хошбәхтлији наминә узун өмүр вә мүвәффәгијјәтләр арзулајырам.–

Имза: Б.Азәроғлу.

Heydər Əliyevin Cənubi Azərbaycan məsələsini gündəlikdə saxlaması cənublu yazıçı və şairləri daha da ruhlandırırdı. Əbəs deyildir ki, həmin qurultayda Yazıçılar İttifaqının katibi kimi nitq söyləyən Balaş Azəroğlunun məruzəsi başdan-başa Cənubi Azərbaycan ədəbiyyatına, onun problemlərinə həsr edilmişdi. O deyirdi: "... Behrəngi Azərbaycan ədəbiyyatını vəhdətdə götürmüş və təsir məsələsinə həm sənətkarlıq, həm də yüksək ideyalılıq baxımından yanaşmışdır". Əlavə edirdi: "Ölkənin əhalisinin üçdəbir hissəsini təşkil edən Azərbaycan xalqının sənətkarları yuxarı dairələrdə yazıçı hesab olunmur. Ana dilində yaranan ədəbiyyatın üzünə ədəbi məclislərin qapıları bağlıdır", "İran Azərbaycanında yazıçılar məhrumiyyətlərə düçar olublar", "... bir millətin azadlığı varsa, hər şeyi var. Azadlığı yoxsa, heç şeyi yoxdur". O daha sonra deyirdi: "Cənub mövzusuna gəlincə bizim milli həyat, milli hərəkat vətənin və xalqın taleyi ilə bağlı olan əsas ana mövzumuzdur...", "...dili bağlanmış, yazarlarının qələmi sındırılmış bir xalqın mübarizəsini, dərdlərini, arzularını yazmağa, deməyə imkanı olan yazıçılar biz idik".

Cənubi Azərbaycan məsələsini gündəlikdə saxlayan Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan KP MK bürosunun 1981-ci il 5 may tarixli iclasında Balaş Azəroğluya "Xalq şairi" fəxri adı verilməsi barədə qərar qəbul edildi. Heydər Əliyev bununla da kifayətlənmədi. Büronun həmin il 12 oktyabr tarixli iclasında Balaş Azəroğlunun anadan olmasının 60 illiyinin keçirilməsi haqqında qərar qəbul edildi. Heydər Əliyevin imzaladığı və cənublu şairin "Xalqlar dostluğu" ordeni ilə təltif olunması barədə Sov. İKP MK-ya ünvanlanan eyni tarixli, 19/547s №-li məxfi məktubda şairin təkcə yaradıcılığına verilən qiymət öz əksini tapmamışdı. Azərbaycan rəhbəri məktubda Cənubi Azərbaycan məsələsini, 1946-cı il inqilabını Sov. İKP MK-ya xatırladırdı. Tarixi əhəmiyyət kəsb edən məktubda yazılırdı ki, Balaş Azəroğlu 1946-cı ildə İran Azərbaycanında inqilabi demokratik hərəkat yatırıldıqdan sonra mühacirət edib. Heydər Əliyev bu istəyinə də nail oldu. Bundan sonra şairin həyat və yaradıcılığı haqqında mətbuatda yazılar, məqalələr dərc edildi. Məsələn, Bəxtiyar Vahabzadə "Kommunist" qəzetində yazdığı məqalədə şairin şeirlərinin birini təhlil edərək belə bir nəticəyə gəlirdi: "Azadlığını və müstəqilliyini itirən xalq, mənliyini və milli varlığını da itirmiş olur".

Heydər Əliyevin göstərişi ilə Balaş Azəroğlunun 60 illik yubileyi möhtəşəm keçirildi. Yubiley tədbiri radio və televiziya ilə translyasiya edildi. Balaş Azəroğluya "Xalqlar dostluğu" ordenini və "Xalq şairi" fəxri adını təqdim edərkən söylədiyi nitqində Heydər Əliyev bildirdi: "Balaş Azəroğlunun ilk şeirlərinin bir çoxu qırxıncı illərin əvvəllərində Cənubi Azərbaycanda gedən ictimai-siyasi prosesləri əks etdirir. Həmin şeirlərin əsasını... milli istismara qarşı mübarizə motivləri təşkil edir, bu şeirlər inqilabi mübarizə ruhu ilə aşılanmışdır". O, daha sonra dedi: "Balaş Azəroğlu yaradıcılığının əhəmiyyətli cəhətlərindən biri də istər bizdə, istərsə də Cənubi Azərbaycanda ədəbiyyatın inkişafına səmərəli təsir göstərməsindən ibarətdir".

Göründüyü kimi, Heydər Əliyev Balaş Azəroğluya sadəcə bir qələm sahibi deyil, Cənubi Azərbaycanda milli ədəbiyyatın inkişafına təsir edə biləcək böyük sənətkar, ictimai xadim kimi yanaşır, onu bu işləri həyata keçirməyə səsləyirdi. Belə mövqe digər cənublu yaradıcı adamları da ruhlandırırdı. Az sonra Heydər Əliyevə göndərdiyi minnətdarlıq məktubunda Balaş Azəroğlu yazırdı: "Hörmətli Əliyev yoldaş! Azərbaycan SSR Xalq şairi kimi yüksək fəxri ada layiq görülməyim münasibətilə Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinə və şəxsən Sizə öz təşəkkürümü və minnətdarlığımı bildirirəm. Azərbaycan poeziyasının böyük ümmanında bir zərrə olan mənim yaradıcılığıma göstərdiyiniz bu atalıq qayğısını mən, imperializmə və şahlıq diktaturasına qarşı ardıcıl mübarizə aparmış demokratik ədəbiyyatımıza və onun yaradıcılarına olan qayğı və verilən qiymət kimi qəbul edirəm. Azərbaycan xalqının sevimli rəhbəri Heydər Əliyev yoldaş, qələm yoldaşlarım və şəxsən öz adımdan Sizə təşəkkür edir, xalqımızın xoşbəxtliyi naminə uzun ömür və müvəffəqiyyətlər arzulayıram".

Balaş Azəroğluya belə yüksək mükafatın və fəxri adın verilməsi vətənin cənubundan olan bütün yaradıcı adamlar, ictimai-siyasi xadimlər tərəfindən rəğbətlə qarşılandı. Bununla əlaqədar olaraq Əmirəli Lahrudi Heydər Əliyevə 1981-ci il 26 may tarixdə yazdığı 19 №-li məxfi məktubunda vurğulayırdı: "Hörmətli Əliyev yoldaş, öz şüurlu həyatını Azərbaycanın mübariz şeirinin inkişafına həsr edən görkəmli şair Balaş Azəroğlu yoldaşa "Xalq şairi" fəxri adı verilməsi Azərbaycan Kommunist Partiyasının və şəxsən Sizin Cənubi Azərbaycan xalqına, onun milli və demokratik ədəbiyyatına, Cənubi Azərbaycanın ədib və şairlərinə, o cümlədən mühacirət illərində demokratik ədəbiyyatımızın yazıb-yaradan nümayəndələrinə göstərilən atalıq qayğısıdır. İcazə verin, bu qayğı və etimada görə Hizbe Tudeyi İranın Azərbaycan təşkilatı - ADF-nin Mərkəzi Komitəsi adından Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinə, şəxsən Sizə və Sizin simanızda qan qardaşlarımıza öz təşəkkürlərimizi və dərin minnətdarlığımızı bildirək və Sizi əmin edək ki, şair və yazıçılarımız bu atalıq qayğısına xalqımızın mübarizəsinə layiq yeni-yeni əsərlər yazmaqla cavab verəcəklər".

Heydər Əliyev digər cənublu yazıçı və şairlərin əməyini, Cənubi Azərbaycanda baş verən milli hərəkatda iştirak edənlərin fəaliyyətini yüksək qiymətləndirirdi. Məsələn, 1981-ci ilin oktyabr ayında yazıçı Mirzə İbrahimova "Lenin" ordeni və "Oraq və çəkic" qızıl medalı təqdim edərkən söylədiyi nitqində Azərbaycan rəhbəri deyirdi: "Gələcək gün" romanı Cənubi Azərbaycanda inqilabi hərəkat haqqında, xalqın öz milli və sosial quruluş uğrunda mübarizəsi haqqında inandırıcı, yüksək səviyyədə yazılmış qədim hekayətdir". O, yazıçı və şairləri Cənub Azərbaycan mövzusunda yazmağa ruhlandırır, onlara maddi və mənəvi dəstək verirdi.

Azərbaycan rəhbərinin tövsiyəsi ilə Şimali Azərbaycan şairlərindən Bəxtiyar Vahabzadə, Süleyman Rüstəm və Nəbi Xəzrinin Cənubi Azərbaycanda yaşayan Məhəmmədhüseyn Şəhriyar, Səhənd və digər görkəmli şairlərlə telefon əlaqələri quruldu, yazışmaları oldu. Bu danışıq və yazışmalar haqqında mətbuatda və digər kütləvi informasiya vasitələrində məlumat verilməsi Cənub mövzusunda yazan yaradıcı adamları daha da ruhlandırdı. Bundan sonra Azərbaycan mətbuatında Cənub mövzusunda dərc edilən yazıların sayı artdı.

Cənub mövzusu teatrların səhnələrinə, radio və televiziya verilişlərinə də gətirildi. Bu mövzu ictimai həyata Azərbaycan rəhbərliyi tərəfindən ötürülür və unutdurulmasına imkan verilmirdi. Heydər Əliyev iki Azərbaycanın birləşəcəyinə ümid edirdi. Londonda çap edilən "Tayms"ın məlumatına görə, Heydər Əliyev xarici ölkə diplomatları ilə söhbətlərində gələcəkdə hər iki Azərbaycanın birləşəcəyinə ümid etdiyini bildirmişdi.

Heydər Əliyev cənublu gənclərin müsabiqədənkənar ali məktəblərə qəbul olunmalarına, təhsil almalarına, kamil mütəxəssis kimi yetişmələrinə də xüsusi qayğı göstərirdi. Azərbaycan rəhbərinin göstərişinə və MK-nın qərarına uyğun olaraq onlar ali məktəblərə müsabiqədənkənar qəbul edilirdilər. Məsələn, 1976-cı ildə Cənubi Azərbaycandan olan 1196 mühacir və onların övladları ali və orta ixtisas məktəblərində təhsil alırdı. 709-u ali, 487-si isə orta ixtisas məktəblərində oxuyan bu gənclər təhsil müddətində qayğı ilə əhatə olunmuşdular. Siyasi mühacirlərin övladları arasında Cənubi Azərbaycanda inqilabi hərəkat və görkəmli inqilabçıların həyatı geniş təbliğ edilirdi.

Cənubi azərbaycanlıların ali məktəblərə müsabiqədənkənar qəbul edilməsi onların təşkilatlarının rəhbərlərində rəğbət yaradırdı. Azərbaycan Demokrat Partiyası MK-nın sədri Qulam Danişyan 34№-li məktubunda yazırdı: "Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin ən böyük qardaşlıq köməyi və yaxın qayğısı nəticəsində, mühacirətdə olduğumuz müddət ərzində iranlı siyasi pənahəndə ailələrinə mənsub gənc oğlan və qızlardan müxtəlif ali və orta ixtisas üzrə mütəxəssis kadr hazırlanmış və hazırlanmaqdadır".

1981-ci ildə cənublu siyasi mühacir ailələrinə mənsub olan 25 nəfər müsabiqədənkənar ali məktəblərə, daha 25 nəfər isə texnikumlara qəbul edildi. Əmirəli Lahrudi 1981-ci il 7 sentyabr tarixli 25 №-li məktubunda Heydər Əliyevə bununla bağlı yazırdı: "Əziz Heydər Əliyev yoldaş! Siyasi mühacir ailələrinə göstərilən bu atalıq qayğısı üçün şəxsən Sizə öz ürək təşəkkürlərimizi və dərin minnətdarlığımızı bildiririk".

İnqilabdan sonra İranın rəsmi dairələri tərəfindən antisovet təbliğatı güclənmişdi. Digər tərəfdən ABŞ də İrana radio verilişlərinin həcmini artırmışdı. Bu təbliğat əsasən sovet dövlətinin daxili və xarici siyasətinə qarşı yönəlmişdi. Belə şəraitdə antisovet təbliğatının dayandırılması, heç olmasa zəiflədilməsi, İranın bloklara qoşulmamaq hərəkatı çərçivəsində antiimperialist mövqe tutması, suverenliyi və milli bütövlüyünün qorunmasında İran xalqına sovet dövləti tərəfindən yardım edilməsinin təbliği vacib idi. Ona görə də Sov. İKP MK katibliyi 1980-ci il 8 iyul tarixdə İrana informasiya-təbliğat işinin gücləndirilməsi haqqında qərar qəbul etdi. Qərarda geniş tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur, İranın suverenliyinə və milli müstəqilliyinə hörmət edilməsinin vacibliyi xüsusi vurğulanır, bu istiqamətdə konkret tədbirlərin həyata keçirilməsi müəyyənləşdirilirdi.

(Ardı var)

**Musa QASIMLI,**
***Milli Məclisin deputatı, AMEA-nın müxbir üzvü, professor***

# Azərbaycanın özü qədər əbədi

# Zirvə

Vətən müharibəsindəki Zəfərlə dövlətçilik salnaməsinin möhtəşəm qəhrəmanlıq səhifəsini yaradan Azərbaycan xalqı tarixinin şərəf dolu günlərini yaşayır. Çünki qalib dövlət və millət olmağın yaratdığı fəxarət hissi tamamilə bambaşqadır. Artıq başımız uca, alnımız açıqdır, məğlubiyyət damğasını üzərimizdən birdəfəlik götürmüşük. Biz həm də ona görə qürurluyuq ki, bu gün Azərbaycan möhtərəm İlham Əliyevin rəhbərliyi ilə tarixinin ən qüdrətli dövrünü yaşayır.

## Ulu Öndəri minnətdarlıqla anırıq

Bu gün biz bu uğurlarla fəxr etdikcə, xalqımızın Ulu Öndəri Heydər Əliyevi minnətdarlıqla xatırlayır və anırıq. Çünki bu gün Azərbaycan Heydər Əliyevin yaratdığı möhkəm bünövrə üzərində ucalır, inkişaf edir.

Tale elə gətirib ki, mənə Heydər Əliyevin rəhbərliyi altında uzun müddət fəaliyyət göstərmək xoşbəxtliyi, Ulu Öndərin yaratdığı Yeni Azərbaycan Partiyasının sıralarından seçilən deputat kimi qanun yaradıcılığı ilə məşğul olmaq nəsib olub. Siyasi-ictimai fəaliyyətimin böyük hissəsi Heydər Əliyevin Azərbaycana həm birinci, həm ikinci dəfə rəhbərlik etdiyi illərə təsadüf edir. Məhz Ulu Öndərimizin xeyir-duası ilə komsomolda ilk addımlarımı atmışam. Elə ilk gündən özüm üçün yəqin etdiyim ən böyük həqiqət odur ki, Heydər Əliyev sözün bütün mənalarında xalq üçün yaşayan, xalqla nəfəs alan böyük şəxsiyyət, əsl lider idi.

Bütün həyatını öz xalqına bağlayan, şərəfli ömrünü xalqına bağışlayan Ulu Öndər Heydər Əliyev barədə həmişə danışmağa ehtiyac duyulur. Çünki aradan illər ötdükcə, Azərbaycan inkişaf etdikcə, Heydər Əliyevin ideyaları həyata vəsiqə aldıqca Ulu Öndərin siyasi irsinin, müəllifi olduğu Azəraycanın inkişaf strategiyasının nə qədər mükəmməl olduğu daha aydın görünür. Bu mənada Ulu Öndərin irsi həm bugünkü, həm gələcək nəsillər üçün mayak olduğundan ona istinad olunmalı və təbliğ edilməlidir. Amma əlbəttə ki, Heydər Əliyev elə bir zirvədir ki, nə qədər söz açsaq belə, onun ucalığını əhatə edə bilmərik.

## Heydər Əliyev Azərbaycanı qabaqcıl sənaye ölkəsinə çevirmişdi

Azərbaycan tarixinin otuz dörd ildən artıq bir dövrü dövlətini və xalqını hər zaman bütün təbəddülatlardan xilas edən və inkişafına nail olan dahi şəxsiyyətin - Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Təsadüfi deyil ki, Ulu Öndərin respublikamıza hələ birinci rəhbərliyi dövründə ittifaq mərkəzinin təzyiqlərinə baxmayaraq, milli iqtisadiyyatın dirçəldilməsi və sürətli inkişafı üçün böyük işlər görülmüş, iri sənaye müəssisələri tikilmiş, bütün sahələrdə əsaslı inkişafa nail olunmuş, respublikamızın şəhər və rayonlarının abadlaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilmişdi. Nəticədə müttəfiq respublikalar arasında Azərbaycan iqtisadi durumuna görə qabaqcıl ölkəyə çevrilmişdi.

Faktlara diqqət yetirək: Azərbaycanda 1980-ci ilin göstəricilərinə görə sənayenin əsas istehsal fondlarının dəyəri 1969-cu illə müqayisədə iki dəfə artaraq 8,4 milyard rubla çatdırılmışdı. 10 il ərzində respublikada 15 yeni iri maşınqayırma müəssisəsi istifadəyə verilmişdi. Bunu, əlbəttə, sənayenin uğuru kimi yüksək qiymətləndirmək olardı. 12 mövcud müəssisədə isə istehsal gücü əvvəlki illərlə müqayisədə bir neçə dəfə artmışdı. Azərbaycanda sənaye istehsalı üç dəfə yüksəlmişdi. Bütün bu göstəricilər əldə olunandan sonra sənaye istehsalının artım sürətinə görə Azərbaycanın adı ittifaq səviyyəsində ön sıraya çıxmışdı.

Dekabrın 7-də "Akademik Xoşbəxt Yusifzadə" tankerinin istismara verilməsi mərasimində Prezident İlham Əliyev mühüm bir məqama toxunaraq dedi ki, Dərin Özüllər Zavodunun Həştərxanda inşa edilməsi planlaşdırılırdı. O zaman məhz Heydər Əliyevin iradəsi və uzaqgörənliyi ilə bu zavod Azərbaycanda quruldu. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, bu zavod olmasaydı, bizim kontraktlarımızın icrası bəlkə də 5-10 il gecikə bilərdi.

Ötən əsrin 70-ci illərində Azərbaycanda kənd təsərrüfatının inkişafı sahəsində çox böyük irəliləyişlər nəzərə çarpmağa başladı. Bu sahədə mühüm nailiyyətlər əldə olundu. 1982-ci ildə kənd təsərrüfatı məhsulları istehsalının həcmi 1969-cu ildəkinə nisbətən təxminən beşaltı dəfə artdı.

Azərbaycanda ötən əsrin 70-ci illərində tikinti-abadlıq işləri də geniş vüsət almışdı. Hər yerdə, elə indiki günlərdə olduğu kimi, böyük sürətlə tikinti işləri aparılırdı. Bu fikrin hansı gerçəkliyi əks etdirdiyini rəqəmlər də təsdiq edir: 1970-1985-ci illərdə ümumi sahəsi 22,2 milyon kvadmetr olan mənzillər tikilmiş, Bakıda yeni yaşayış massivləri salınmışdı. Çöl-biyabanı xatırladan ərazilərdə planlı şəkildə 5 və 9 mərtəbəli yaşayış evləri ucaldılmış, mikrorayonlar tikilmişdi. Əhmədli, Yeni Günəşli, Yeni Yasamal yaşayış massivlərinə məhz həmin dövrdə rəvac verilmiş və yüzlərlə, minlərlə insan rahat, yaraşıqlı, hər cür kommunal şəraiti olan mənzillərdə məskunlaşmışdı.

Respublikada işsizlik həmin illərdə, demək olar ki, büsbütün aradan qalxmışdı. İnsanlar iş yerləri axtarmırdılar, iş yerlərinin özü onları halal zəhmətləri ilə dolanmaq üçün dəzgah arxasına, məhsul becərilən tarlalara dəvət edirdi. 1985-ci ildə respublikada işləyənlərin sayı 2,4 milyon nəfərə çatırdı. 1970-ci ildə orta aylıq əməkhaqqının səviyyəsinə görə Azərbaycan 15 respublika arasında axırıncı yerdə gedirdi. 1980-ci ildə isə respublikamız bu sahədə 4-cü yerdə idi.

Heydər Əliyev 1982-1987-ci illərdə respublikamızın inkişafı üçün bütün imkanlardan istifadə etdi. Ulu Öndərin sovet dövlətinin rəhbərliyində yer alması Azərbaycanın qarşısında yeni inkişaf üfüqləri yaratmışdı. O dövrdə Heydər Əliyevin sovetlər birliyinin mühüm iqtisadi sferalarına kuratorluq etməsi Azərbaycanla bağlı əzəmətli layihələrin reallaşmasında böyük rol oynadı. Dərin Özülləri Zavodu kimi möhtəşəm müəssisələr o illərdə inşa olundu və bu gün Azərbaycanın enerji siyasətinin uğur qazanmasına xidmət edir.

## Heydər Əliyev dövlətimizin elə güclü təməllərini formalaşdırdı ki, heç bir qüvvə onu sarsıda bilməz

SSRİ-nin dağılmasından sonra bütün müttəfiq respublikalar dövlət müstəqilliyinə nail oldular. Amma o da məlumdur ki, Azərbaycanın müstəqilliyinin ilk çağlarında iqtidarda olan siyasi qrupların səbatsızlığı Azərbaycanı parçalanmaq, kövrək azadlığımızı yenidən itirilmək təhlükəsi ilə qarşı-qarşıya qoymuşdu. Daxili ziddiyyətlər, hakimiyyət mübarizəsi torpaqlarımızın azadlığı uğrunda milli mübarizəni da ikinci plana keçirmişdi. O dövrdə xalqın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyevin ölkə rəhbərliyinə gəlişi Azərbaycanın müstəqilliyinin xilasına xidmət edən faktor oldu.

Ulu Öndər 1993-cü ildən başlayaraq Azərbaycanı yenidən qurdu. O vaxta qədər müasir çağırışlar və tələblər əsasında nə dövlət aparatının fəaliyyətini təmin edən idarəçilik strukturları, nə də normal hüquqi baza vardı. Ulu Öndər böyük müdriklərlə bu keçid dövrünün prioritetlərini müəyyənləşdirdi, bütün sahələrdə mütərəqqi islahatlar həyata keçirdi.

Müstəqilliyimizi qoruyan Heydər Əliyev öz müdrik dühası, siyasi təcrübəsi ilə dövlətimizin elə güclü təməllərini formalaşdırdı ki, heç bir qüvvə onu sarsıda bilməz. Ona görə xalqımız haqlı olaraq müasir Azərbaycan dövlətini Heydər Əliyevin şah əsəri hesab edir. Ulu Öndər bu dövlətin banisi və qurucusudur.

Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi 10 il müstəqilliyimizin möhkəmləndirilməsi, dövlətçiliyimizin əsaslarının formalaşdırılması, hüquqi dövlət quruculuğu, hüquqi-siyasi, sosial-iqtisadi və aqrar islahatların aparılması, respublikamızın beynəlxalq birliyin tamhüquqlu üzvünə çevrilməsi və bütövlükdə müstəqillik illərində Azərbaycanın birinci inkişaf dövrü kimi yadda qaldı.

## Sosial rifaha yol açan siyasət

Heydər Əliyevi xarakterizə edən ən əsas cəhətlərdən biri onun öz xalqını dərindən sevməsi idi. Təsadüfi deyil ki, Ulu Öndərin Azərbaycana ikinci rəhbərliyindən sonra da həyata keçirdiyi inkişaf siyasətinin mərkəzində vətəndaşların sosial rifahının yüksəldilməsi dayanırdı.

Ümumiyyətlə, Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə gəlişinədək Azərbaycanda populist, heç bir iqtisadi qanunlara və vətəndaş maraqlarına cavab verməyən sosial siyasət mövcud idi. Həmçinin müstəqilliyin ilk illərində ölkəni bürüyən ictimai-siyasi xaos dövlətin ən vacib vəzifələri sırasında yer alan əhalinin sosial müdafiəsi məsələsini arxa plana keçirmişdi.

Bu baxımdan Ümummilli Lider Heydər Əliyevin respublikamıza rəhbərliyə başlamasından sonra ilk addımlarından biri sosial məsələlərin diqqət mərkəzində saxlanılması oldu. Ulu Öndər əhalinin sosial problemlərini ön plana çəkdi, onların həlli məqsədilə təxirəsalınmaz addımların atılması ilə bağlı qərarlar verdi. Təsadüfi deyil ki, Heydər Əliyev xalqının sosial rifahının artırılmasını, əhalinin bütün təbəqələri üçün bərabər sosial təminatın yaradılmasını fəaliyyətinin başlıca məqsədi elan etmişdi.

Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi sosial siyasətin fərqli xarakterik cəhətləri vardı. Bunlardan biri sosial siyasətin dayanıqlı olması, ölkənin iqtisadi bazisinə əsaslanması idi. Digər cəhət isə onun mükəmməl və dünya təcrübəsində uğurla sınaqdan çıxmış normativ hüquqi bazaya söykənməsi idi. Bu mənada Heydər Əliyevin müəyyənləşdirdiyi sosial siyasətin inkişaf mərhələlərinə nəzər yetirsək görərik ki, Azərbaycanda iqtisadiyyatın tənəzzüldən xilas olmasından və daxili stabilliyin yoluna qoyulmasından sonra sosial siyasət sahəsində mühüm addımlar atılmış, effektiv islahatlar reallaşdırılmışdı.

Ümumiyyətlə, Ulu Öndər Heydər Əliyev tərəfindən inzalanmış 60-dan artıq sənəd 1990-cı illərdə respublikamızda sosial sahədə inkişafın təmin olunmasına xidmət edib. Aparılan təhlil və tədqiqatlar da göstərir ki, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında yeni iqtisadi şəraitə uyğun olaraq ölkəmizdə formalaşmaqda olan sosial müdafiə modeli artıq dövlət quruculuğu fəlsəfəsində aparıcı elementlərdən biri, ümumi siyasətin mühüm tərkib hissəsi olmaqla, cəmiyyətin və ayrılıqda hər bir vətəndaşın rifahının yüksəldilməsinə, onların sosial müdafiəsi və layiqli həyat səviyyəsinin təmin olunmasına, habelə şəxsiyyətin azad inkişafı üçün bərabər imkanlar yaradılmasına yol açıb.

Müstəqilliyinin ilk günlərindən gənc dövlətimizin qarşısında duran vəzifələrdən biri qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli olub. Bu təbəqədən olan insanlara sistemli, məqsədyönlü dövlət qayğısı məhz Ümummilli Lider Heydər Əliyev tərəfindən həyata keçirilməyə başlanılıb. Gərgin iş rejiminə və dövlət idarəçiliyi sahəsində nəhəng fəaliyyət sferasına baxmayaraq, Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində doğma yurdlarından didərgin düşmüş soydaşlarımızın sosial problemlərinin həlli Ümummilli Lider Heydər Əliyevin gündəlik qayğısına çevrilmişdi.

Mən özümü xoşbəxt sayıram ki, bu məsələlərlə bağlı Heydər Əliyevin ölkə daxili və xarici səfərlərində iştirak etmiş, onun məcburi köçkünlərin sosial qayğılarına necə həssaslıqla yanaşmasının şahidi olmuşam.

Məcburi köçkünlərin olduqca ağır vəziyyətdə yaşadıqları çadır düşərgələrinin ləğvi ideyası da Heydər Əliyevə məxsus idi. Ümummilli Lider yaranan iqtisadi imkanları ilk növbədə qaçqın və məcburi köçkünlərin problemlərinin həllinə yönəldirdi. Təsadüfi deyil ki, Dövlət Neft Fondunda toplanan ilk vəsait Ulu Öndərin müvafiq fərman və sərəncamları ilə qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həllinə yönəldilmişdi.

Gələn ilin dövlət büdcəsinin göstəricilərindən də məlum olur ki, sosialyönümlülük prioritet istiqamətlərdən biri olaraq qalır.

## Hər bir azərbaycanlı doğma dövlətimizlə fəxr edir

Olduqca qürurvericidir ki, Heydər Əliyevin ideyaları yaşayır, Ulu Öndərin siyasi kursu Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Möhtərəm İlham Əliyevin Prezident kimi ən yüksək məramı dövlətə və xalqa layiqincə xidmət etməkdir. Bu, Heydər Əliyev tərəfindən bünövrəsi qoyulan və bütün fəaliyyəti dövründə əsas istiqamət olaraq həyata keçirilən milli inkişaf siyasətinin davamıdır.

Ötən 19 ilin reallıqları bu siyasətin bütün sahələrdə əzmlə və qətiyyətlə davam etdirildiyini göstərir. 19 il böyük zaman kəsiyi deyil. Lakin təhlil etdikdə görürük ki, bu dövrdə gedilən yol onilliklərə bərabərdir. Bu dövrdə İlham Əliyev ölkəmizin dinamik inkişafına nail olmaqla yanaşı, həm də beynəlxalq münasibətlər şəraitində istənilən məsələ üzrə Azərbaycanın milli maraqlarını təmin edir. Prezident İlham Əliyev həm də beynəlxalq miqyasda nüfuzlu lider olaraq ehtiramla qarşılanır. Məsələn, Serbiya Prezidenti Aleksandar Vuçiçin Prezident İlham Əliyevin barəsində söylədiyi "Onun sözü bizim üçün yetərlidir. Çünki biz onun sözünə hər hansı imzadan daha çox inanırıq. O, nəyi deyirsə, mənim üçün kifayətdir" fikri dövlətimizin başçısına olan yüksək beynəlxalq ehtiramın nümunəsidir.

## Ulu Öndərin vəsiyyəti yerinə yetirildi

Heydər Əliyev 1998-ci martın 20-də Mərdəkandakı "Abşeron" sanatoriyasında Novruz bayramı münasibətilə qaçqınlar və məcburi köçkünlər üçün keçirilən bayram şənliyində bununla bağlı demişdi: "Bu gün Novruz bayramını bir yerdə keçiririk. Gün o gün olacaq ki, Novruz bayramını bir dəfə gələcəyəm Şuşada, o biri il Laçında, o biri il Kəlbəcərdə, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda keçirəcəyik. Əminəm ki, belə də olacaqdır".

Bu gün Heydər Əliyevin ruhu sevinir. Çünki işğal olunmuş torpaqlarımız indi azaddır. Heydər Əliyevin siyasi kursunun ən layiqli davamçısı olan möhtərəm Prezident İlham Əliyev Ulu Öndərin bu vəsiyyətini layiqincə yerinə yetirib, lider və sərkərdə qətiyyəti ilə torpaqlarımızın işğaldan azad olunmasını təmin edib.

İndi azad edilmiş torpaqlarımız yenidən qurulur, 30 ilə yaxın erməni işğalçılarının əsarətində qalmış şəhər və kəndlərimiz dirçəlir, onlara yeni həyat bəxş edilir. Bu il Zəngilanın Ağalı kəndinin bərpa edilməsi və keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıtmaları göstərdi ki, tezliklə bütün azad olunmuş şəhər və kəndlərimiz tam bərpa ediləcək. Bəli, 15 il öncə çadır şəhərciklərinin tam ləğvinə nail olan İlham Əliyev indi Qarabağı və Şərqi Zəngəzuru yenidən qurur, bu torpaqların sakinlərinin öz doğma evlərinə qayıtmalarını təmin edir. Həmçinin Qarabağ və Şərqi Zəngəzurda onların məşğulluğu, sosial rifahı üçün geniş imkanlar yaradılır. Bu amillərin hər biri Azərbaycanda həyata keçirilən sosial siyasətin ən mükəmməl nümunəsidir.

Müharibədən təzə çıxmış ölkə olmasına rəğmən Azərbaycanın makroiqtisadi göstəriciləri müsbətdir. 2023-cü ilin dövlət büdcəsinin artımla tərtib olunması, növbəti ildə pensiyaların artırılmasının nəzərdə tutulması respublikada həyata keçirilən mütərəqqi sosial-iqtisadi siyasətin göstəriciləridir. Bütün bunlara paralel olaraq işğaldan azad olunmuş ərazilərin də sürətlə yenidən qurulması, bu məqsədlə dövlət büdcəsindən ayrılan vəsaitlərin ildən-ilə artırılması Azərbaycanın gücünün möhtəşəm ifadəsidir. 2023-cü ildə işğaldan azad edilmiş ərazilərin bərpası üçün 3 milyard manat vəsait nəzərdə tutulur ki, bu da 2022-ci illə müqayisədə 12,4 faiz çoxdur.

*Hər bir uğurumuz belə bir həqiqətin təsdiqidir ki, cənab İlham Əliyevin rəhbərliyi ilə Heydər Əliyevin müəyyən etdiyi siyasi kurs, Ulu Öndərin əsasını qoyduğu inkişaf strategiyası layiqincə davam etdirilir. Bu siyasət, bu inkişaf yolu Azərbaycanımızın və xalqımızın milli maraqlarını qətiyyətlə təmin edir.*

**Hadi RƏCƏBLİ,**
***siyasi elmlər doktoru, professor***



# Heydər Əliyev dühası

Tarixin ən qüdrətli Azərbaycanı, regionun lideri, dünyada söz sahibi… Bəli, gənc olmasına baxmayaraq, respublikamızın əldə etdiyi bu böyük və genişmiqyaslı uğurlar vətənimizin dünyaya ən gözəl təqdimatıdır. Bu gün beynəlxalq miqyasda dövlətimizlə hesablaşır, mövqeyini bölüşür, gücünü və qüdrətini etiraf edirlər. İki il əvvəl isə, Azərbaycanı dünyaya tanıdan uğurların sırasına möhtəşəm hərbi zəfərimiz də əlavə olundu.

Əlbəttə ki, nailiyyətlərlə, qələbələrlə dolu günlərə xalqımız birdən-birə gəlib çatmayıb. Bugünkü uğurlarımızın zirvəsindən tarixə nəzər salanda xalqımızı bu uğurlara gətirən yolun nə qədər düzgün olduğunu, nə qədər müdrik, düşünülmüş və uzaqgörən strategiyaya söykəndiyini görürük. Və bu yolun, bu strategiyanın müəllifi olan əbədiyaşar şəxsiyyət, xalqımızın Ümummilli Lideri Heydər Əliyevi hər zaman böyük minnətdarlıqla anırıq.

Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı və dövlətimiz qarşısında xidmətləri əvəzedilməz, ölçüyəgəlməzdir. İllər ötdükcə, Azərbaycan inkişaf edərək yüksəldikcə, uğurlarımızın miqyası genişləndikcə, Ulu Öndərin ölkəmiz qarşısındakı tarixi missiyasının böyüklüyünü daha yaxından görürük. Azərbaycana birinci rəhbərliyi dövründə ölkəmizi inkişaf səviyyəsinə görə keçmiş ittifaqın öncülləri cərgəsinə çıxaran Heydər Əliyevin o illərdə iqtisadi sferada həyata keçirdiyi tədbirlər bu gün də xalqımıza xidmət edir. O dövrdə Ulu Öndər cəsarətli addımları ilə Azərbaycanı sovet ideologiyasının manqurtlaşma siyasətindən qorumuş, ermənilərin ölkəmizə qarşı ərazi iddialarının baş qaldırmasına imkan verməmişdi.

Bütün bunların nəticəsi idi ki, hər bir vətəndaş Heydər Əliyevə məhəbbət və ehtiramla yanaşırdı. Həm də Ulu Öndərə böyük inam və etimad vardı. Təsadüfi deyil ki, sovet rəhbərliyinin yürütdüyü siyasətə etiraz edərək vəzifələrindən istefa verən Heydər Əliyev Naxçıvana qayıtdıqdan sonra da lider kimi öz missiyasını layiqincə davam etdirmişdi. Çünki Naxçıvanın başının üstünü təhlükələr aldığı ağır dönəmdə insanlar Heydər Əliyevin timsalında özlərinin ən böyük dayaqlarını, himayədarlarını görürdülər.

Ulu Öndər 1990-cı ildə Naxçıvana qayıtdıqdan sonra bu qədim yurdumuzu erməni işğalından qorudu, ona yeni həyat verdi. Eyni zamanda Heydər Əliyevin təşəbbüsləri və liderliyi ilə Naxçıvanda qəbul edilən qərarlar, üçrəngli bayrağımızın ilk dəfə rəsmi şəkildə ucaldılması, Naxçıvanın adından "sovet" və "sosialist" sözlərinin çıxarılması respublikamızda gedən milli azadlıq mücadiləsini daha da sürətləndirdi, müstəqillik uğrunda mübarizənin effektiv nəticələr verməsini şərtləndirdi.

Hələ sovet dövründə Azərbaycanı inkişaf yoluna çıxaran, daha sonra Naxçıvanı qoruyan, xalqımızın milli azadlıq mücadiləsinə böyük töhfələr verən Ulu Öndər Heydər Əliyev müstəqilliyimizin ilk illərində də öz liderlik missiyasını qətiyyətlə, layiqincə həyata keçirdi. Həmin çətin və mürəkkəb şəraitdə vəziyyəti düzgün dəyərləndirən xalqımızın səsinə səs verən Heydər Əliyevin Naxçıvandan Bakıya gəlməsi Azərbaycanı bütün real təhlükələrdən xilas etdi. Yeni Azərbaycan Partiyasının yaradılmasının 30 illiyi münasibətilə keçirilən tədbirdə Prezident İlham Əliyevin qeyd etdiyi kimi, illər keçdikcə və dünya dəyişdikcə, hər birimiz çox gözəl bilirik ki, əgər o vaxt Azərbaycan xalqı Heydər Əliyevə müraciət edib onu hakimiyyətə dəvət etməsəydi, ölkəmiz daha böyük fəlakətlə üzləşə bilərdi. Heydər Əliyevin gəlişi ilə bütün antiazərbaycançı dairələrin planları iflasa uğradı, dövlətçiliyimiz və müstəqilliyimiz xilas oldu. Beləliklə, bugünkü uğurları ilə fəxr etdiyimiz müstəqil dövlətimiz məhz Heydər Əliyevin böyüklüyü və siyasi müdrikliyi ilə bütün təhlükələri dəf edərək yüksəliş yoluna qədəm qoyub, beyəlxalq birlikdə mövqelərini möhkəmləndirib.

Tariximizin bütün bu mərhələlərini təhlil etdikcə, fikir süzgəcindən keçirdikcə, bir daha Heydər Əliyev dühasının böyüklüyünü görürük, əzəmətinin şahidi oluruq. Əbədiyaşar şəxsiyyət çalışdığı bütün vəzifələrdə yalnız və yalnız Azərbaycanın tərəqqisinə, xalqımızın rifahına xidmət edib, ölkəmizin yüksəlişi üçün mümkün olan nə varsa həyata keçirib.

Müstəqilliyimizin əbədi olmasını təmin edən, Azərbaycanı inkişaf yoluna çıxaran, beynəlxalq miqyasda dövlətimizin mövqelərini möhkəmləndirən Heydər Əliyevin ən böyük arzusu isə torpaqlarımızın işğaldan azad olunması idi. Ulu Öndər əmin idi ki, torpaqlarımız işğaldan azad ediləcək. Hələ 2003-cü ildə xalqa müraciətində Heydər Əliyev bildirirdi: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Ötən 19 ildə Azərbaycanın keçdiyi inkişaf yolu göstərir ki, Heydər Əliyev ideyaları yaşayır, onun tərəfindən müəyyən edilmiş inkişaf siyasəti davam etdirilir. Bu siyasətin nəticəsi kimi Azərbaycanın tarixinin ən qüdrətli dövlətinə çevrilməsi Prezident İlham Əliyevin ölkəmizə müdrik rəhbərliyinin təcəssümüdür.

Bu dövrün ən böyük hadisəsi isə əlbəttə ki, torpaqlarımızın işğaldan azad edilməsidir. Heydər Əliyev siyasətinin layiqincə davam etdirilməsinin və Prezident İlham Əliyevin müdrikliyinin və qətiyyətinin nəticəsi olaraq Azərbaycan ərazi bütövlüyünü təmin etdi. İndi Şuşada, Laçında, Kəlbəcərdə, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Xocavənddə Azərbaycan bayrağı dalğalanır və bu, əbədi belə olacaq.

Noyabrın 21-də Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının yaradılmasının 30 illiyi münasibətilə keçirilən tədbirdə Prezident İlham Əliyevin qeyd etdiyi kimi, son 19 ilin hadisələri onu göstərir ki, Ulu Öndərin bütün tapşırıqları və tövsiyələri yerinə yetirildi: "Azərbaycan xalqı 2003-cü ildə bir daha müdriklik göstərərək, məhz Ulu Öndərin şəxsiyyətinə olan hörməti ifadə edərək Heydər Əliyev siyasətinə səs verdi. Mən 2003-cü ildə xalqa söz vermişdim ki, bu yoldan dönməyəcəyəm. Son 19 ilin hadisələri onu göstərir ki, belə də oldu, Ulu Öndərin bütün tapşırıqları, bütün tövsiyələri yerinə yetirildi. O, öz siyasi vəsiyyətində demişdir ki, bir çox işlər görüldü, ancaq görə bilmədiyimiz işləri mənim davamçılarım görəcək, belə də oldu. Biz onun siyasi xəttini davam və inkişaf etdirərək güclü Azərbaycan dövləti qurduq ki, sözün əsl mənasında, hər bir azərbaycanlı bu dövlətlə, doğma dövlətimizlə fəxr edir".

Ümummilli Lider Heydər Əliyevin siyasi dühasının hər bir səhifəsi, fəaliyyətinin hər bir mərhələsi hər birimiz üçün böyük örnəkdir. Ulu Öndərin mənalı ömür yolu bizlərə vətəni sevməyin nümunəsini yaradır. Bu sevgi və ehtiramla Heydər Əliyevi yad edir, əziz xatirəsini dərin ehtiramla anırıq.

**Cəbi QULİYEV,**
***Milli Məclisin deputatı***

## Azərbaycanın özü qədər əbədi



# Sosial-iqtisadi və mədəni yüksəliş xəttinin uğurlu davamı

*Mürəkkəb tarixi dönəmlərdə xalqa rəhbərlik kimi şərəfli missiyanı üzərinə götürən böyük şəxsiyyətlər milli inkişaf üçün mövcud potensialdan səmərəli bəhrələnməklə inkişaf potensialını hərəkətə gətiriblər. Ümummilli liderlik zirvəsinə yüksəlmiş belə şəxsiyyətlərin uzaqgörənliklə irəli sürdüyü ideyalar onların təmsil etdikləri xalqların gələcək inkişaf yolunun müəyyənləşməsində də mühüm rol oynayıb.*

Azərbaycan üçün məhz belə fenomen şəxsiyyətlərdən olan Ümummilli Lider Heydər Əliyevin zəngin dövlətçilik irsinin öyrənilməsi, onun ölməz ideyalarının geniş təbliğ olunaraq praktik həyatda tətbiqi və gələcək nəsillərə çatdırılması da mühüm əhəmiyyətə malikdir. Azərbaycan Prezidenti İlham Əliyevin hələ 2004-cü ildə imzaladığı fərmanla Ulu Öndərin adının əbədiləşdirilməsi istiqamətində bir sıra vacib tədbirlər həyata keçirilib, 1970-80-ci illərdə tikintisinə əzmlə nail olduğu bir sıra möhtəşəm tikililərə onun adı verilib.

Dövlət başçısı İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" sərəncamı da Ümummilli Liderin Vətən və xalq qarşısındakı misilsiz xidmətlərinin adekvat qiymətləndirilməsi istiqamətində növbəti mühüm addımdır. Sərəncamda qeyd olunduğu kimi, davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir: *"Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur".*

Bugünkü müasir və qüdrətli Azərbaycanın ötən 30 ildə möhtəşəm uğur və nailiyyətlərə imza atmasının əsasında məhz ötən əsrin 70-80-ci illərində Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında formalaşdırılmış möhkəm iqtisadi təməl dayanır. İctimai-iqtisadi həyatın yeniləşdirilməsi üçün ən müxtəlif sahələrdə kardinal islahatları təmin edən Ulu Öndər bir sıra iqtisadi göstəricilərinə görə keçmiş ittifaq miqyasında son sıralarda dayanan Azərbaycanı qısa müddətdə öncül mövqelərə çıxarmağa müvəffəq olmuşdu. Həmin dövrdə sənayenin inkişaf səviyyəsinə görə respublikanın bütün bölgələrinin proporsional inkişafı yönümündə ardıcıl addımlar atılır, istehsalla bilavasitə bağlı elmi-tədqiqat sahələrinin inkişafına kompleks tədbirlər görülürdü.

Böyük strateq yaxşı bilirdi ki, respublikamızın iqtisadi cəhətdən möhkəmlənməsi, iqtisadi azadlığını təmin etməsi üçün SSRİ-nin strateji əhəmiyyət kəsb edən bir sıra sənaye müəssisələri məhz Azərbaycanda inşa olunmalıdır. O illərdə Heydər Əliyevin təkidi və qətiyyəti qarşısında keçmiş ittifaq rəhbərliyi respublikamızda iri müasir maşınqayırma, kimya, neft-kimyası, elektron sənayesi, əlvan və qara metallurgiya, tekstil, yeyinti, emal müəssisələrinin tikintisinə razılıq vermiş, paralel olaraq energetika və nəqliyyat kompleksi inkişaf etdirilmişdi. Həmin dövrdə Sumqayıt şəhərinin respublikanın iri sənaye mərkəzlərindən birinə çevrilməsi, burada çoxlu sayda zavod və fabriklərin, emal müəssisələrinin tikilib istifadəyə verilməsi, şəhər infrastrukturunun formalaşdırılması da məhz Ulu Öndər Heydər Əliyevin müstəsna xidmətləri ilə bağlıdır. Sumqayıtda ağır sənaye ilə yanaşı, yüngül sənaye və maşınqayırma müəssisələri, çoxsaylı sosial obyektlər fəaliyyətə başlamış, Azərbaycanın müxtəlif bölgələrindən gəlmiş insanlar işlə təmin olunmuşdular.

Ümummilli Lider Heydər Əliyev "Kiçik Azərbaycan" adlandırdığı Sumqayıta mütəmadi olaraq səfərə gəlir, şəhər sakinlərinin qayğıları, problemləri ilə maraqlanır, yeni müəssisələrin açılış mərasimində iştirak edirdi. Bu görüşlərin hər biri Sumqayıtda yeni infrastruktur layihələrinin həyata keçirilməsində, tikinti-quruculuq işlərinin sürətlənməsində mühüm rol oynayırdı.

Ötən əsrin 90-cı illərinin əvvəlində, Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra obyektiv və subyektiv səbəblər üzündən ölkə iqtisadiyyatında tənəzzül və böhran prosesləri genişlənir, idarəetmədə səriştəsiz və bacarıqsız adamlara geniş meydan verilməsi dövlətçiliyin sarsılmasına səbəb olurdu. Belə ağır durumda xalqın təkidli tələbilə 1993-cü ilin iyununda hakimiyyətə qayıdan Heydər Əliyev ictimai-siyasi sabitliyi təmin edərək, qanunsuz silahlı dəstələrin zərərsizləşdirilməsinə, ictimai-siyasi sabitliyin tam bərpasına, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsinə, cəbhə bölgəsində atəşkəs rejiminə nail oldu. Ulu Öndər bir ictimai-iqtisadi formasiyadan digərinə keçid dövründə respublikanın qarşısında duran strateji vəzifə və hədəfləri düzgün müəyyənləşdirməklə, dünyanın qabaqcıl dövlətlərinin təcrübəsində sınaqdan uğurla çıxmış, müsbət nəticələri sübut olunmuş inkişaf kursunun Azərbaycan gerçəkliyinə adekvat modelini yaratdı.

1994-cü il sentyabrın 20-də Bakıda "Əsrin müqaviləsi"nin imzalanmasına nail olan Azərbaycan MDB məkanında Qərbin iri neft şirkətləri ilə irimiqyaslı saziş imzalayan ilk dövlət kimi Xəzər dənizində beynəlxalq əməkdaşlığın bünövrəsini qoydu. Bu saziş təkcə ölkəmiz üçün deyil, Qərbin bir sıra aparıcı dövlətləri, habelə Cənubi Qafqaz və Orta Asiya regionu üçün strateji əhəmiyyətli sənədə çevrilərək Azərbaycanda demokratik inkişaf proseslərinin başlanmasına böyük təkan verdi.

Azərbaycanın qazandığı uğurlarda neft strategiyasının müstəsna əhəmiyyətini Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyasının yaranmasının 30-cu ildönümünə həsr olunmuş tədbirdəki çıxışı zamanı deyib: *"Belə bir vəziyyətdə sabitliyi yaratmaq ancaq Heydər Əliyevin nüfuzu, onun cəsarəti və xalqın ona olan inamı hesabına mümkün idi və xarici sərmayələr də ondan sonra dərhal gəlməyə başlamışdır. Məşhur "Əsrin kontraktı" və neft-qaz sahəsində ondan sonra aparılan işlər o vaxt güclü maliyyə zəmini yaratdı. O vaxt atılan addımlar və qəbul edilmiş qərarlar bu gün bizə imkan verir ki, müstəqil iqtisadi siyasət aparaq və beynəlxalq müstəvidə müstəqil ölkə kimi özümüzü təsdiqləyək".*

İqtisadi islahatların ardıcıl və sistemli şəkildə həyata keçirilməsinin tərəfdarı kimi çıxış edən Heydər Əliyev yeni mərhələdə, ilk növbədə, torpaq islahatı və dövlət mülkiyyətinin özəlləşdirilməsi vacibliyini önə çəkmiş, bu proses keçid dövrünün bəzi kiçik çatışmazlıqlarına rəğmən, uğurla başa çatdırılmışdı. İqtisadiyyatın bütün sahələrini əhatə edən özəlləşdirmə prosesi müstəqil respublikamızda bazar iqtisadiyyatı meyarlarının sürətlə formalaşmasına, ölkənin xarici iqtisadi əlaqələrinin yüksəlməsinə ciddi zəmin yaratmışdı.

Respublikada özəl sektorun inkişafı, ictimai-siyasi sabitliyin, davamlı inkişafın təminatçısı olan sahibkarlar sinfinin formalaşması da Ulu Öndər Heydər Əliyevin müstəsna xidmətləri ilə bağlıdır. Ulu Öndər hakimiyyətə gəldiyi ilk dövrlərdən milli sahibkarlarla görüşür, onların qayğılarını, problemlərini öyrənir, mövcud çətinliklərinin həlli məqsədilə operativ qərarlar qəbul edirdi. Sahibkarlarla ilk belə səmimi görüşlərdən biri də 1996-cı ilin əvvəllərində keçirilmişdi. Həmin görüşdə iş adamları sahibkarlığın inkişafı sahəsində mövcud çətinlikləri diqqətə çatdırmış, səmərəli nəticələrə nail olmaq üçün təkliflər irəli sürmüşdülər. Ulu Öndər Heydər Əliyev özünəməxsus təmkinlə, həssaslıqla sahibkarları dinləmiş, özəl sektorun fəaliyyətinə mane olan neqativ amillərin aradan qaldırılması ilə bağlı yerindəcə aidiyyəti dövlət qurumlarına tapşırıqlar vermişdi. Eyni zamanda Heydər Əliyev sahibkarlıq subyektlərinə dövlət büdcəsindən güzəştli kreditlərin verilməsi, habelə dövlət-sahibkar münasibətlərinin institusionallaşdırılması məqsədilə Azərbaycan Respublikası Prezidenti yanında Sahibkarlar Şurasının yaradılması ilə bağlı təşəbbüslərimizə müsbət yanaşmış, belə bir qurumun yaradılmasını dəstəkləmişdi. Bu görüşdən az sonra Ulu Öndərin sərəncamı ilə yaradılmış şuranın məqsədi ölkədə sahibkarlığın inkişafına nail olmaq, iş adamlarının dövlət başçısının yürütdüyü siyasətin həyata keçirilməsində səmərəli, fəal iştirakını istiqamətləndirmək, bu yolda mövcud olan problemləri araşdırmaq və onların həlli üçün təkliflər verməkdir.

1998-ci ilin prezident seçkilərində Ulu Öndərin vəkili olmuş şəxs kimi deyə bilərəm ki, Heydər Əliyev ictimai münasibətlər sisteminin sivil məcrada tənzimlənməsində, ölkədə siyasi sabitliyin möhkəmlənməsində, ümumilikdə, rifah və tərəqqinin təmin olunmasında sahibkarlar sinfinin müstəsna rolu və imkanlarını daim yüksək dəyərləndirirdi. Bu da təsadüfi deyildir - bazar iqtisadiyyatının ayrılmaz atributlarından olan, azad rəqabətin yaradıldığı şəraitdə sürətlə inkişaf edən sahibkarlıq təkcə cəmiyyətin yox, hər bir fərdin inkişafında özünəməxsus mühüm rol oynayır. İlk növbədə ona görə ki, sahibkarlıq insan şəxsiyyətinin ifadə forması və inkişafı, onun qabiliyyət və tələbatları, əmək potensialının realizasiyası kimi mühüm məqamları özündə ehtiva edir.

Ulu Öndər Heydər Əliyevin böyük müdriklə əsasını qoyduğu milli inkişaf modelinin son 19 ildəki möhtəşəm uğurları Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatların məntiqi nəticəsidir. Ötən illərdə Azərbaycan "təqibedici artım" modelini uğurla həyata keçirərək keçid dövrünü başa vurub, ölkə modern inkişaf mərhələsinə adlayıb. Həyata keçirilən yeni iqtisadi siyasət sayəsində milli iqtisadiyyatın həcmi son 19 ildə 3,4 dəfə artıb.

Həyata keçirilən islahatların və əldə olunan uğurların nəticəsi olaraq, Azərbaycan ümumən Avropada müstəqil siyasət yürüdən ölkəyə çevrilib. Dövlət başçısı İlham Əliyev noyabrın 21-də YAP-ın 30 illiyi ilə bağlı keçirilən tədbirdə çıxışı zamanı respublikamızın müstəqil siyasət yürütməsini, milli maraq və mənafelərini təmin etməsini, qarşıya qoyduğu hədəflərə doğru inamla irəliləməsini ölkəmizin güclü iqtisadi-maliyyə potensialı ilə əlaqələndirib: "O ölkələr ki, iqtisadi cəhətdən digər ölkələrdən, yaxud da ki, beynəlxalq maliyyə qurumlarından asılıdır, o ölkələr faktiki olaraq müstəqil siyasət aparmaqda çətinlik çəkirlər. Biz isə hər zaman istəyirdik ki, bizim siyasətimiz ancaq xalqımızın iradəsini əks etdirsin. Biz istəyirdik ki, heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməsin və belə bir imkan olmasın. Ona görə iqtisadi güc, iqtisadi müstəqillik bütün başqa sahələrdəki fəaliyyətin təməlidir".

Prezident İlham Əliyev "güclünün haqlı sayıldığı" dünyada iqtisadi, siyasi və hərbi baxımdan güclənməyin vacibliyini dəfələrlə vurğulayıb. Azərbaycan üzləşdiyi ədalətsiz münaqişənin beynəlxalq hüquqa və milli maraqlarına uyğun həlli üçün uzun illər ərzində iqtisadi cəhətdən güclənməyə, hərbi qüdrətini artırmağa, eyni zamanda Ermənistanın təcavüzkarlıq siyasətinin ifşasına üstünlük verib. Bu strateji hədəflər dövlət müstəqilliyinin daxili və xarici təhdidlərdən qorunub saxlanılmasını, iqtisadiyyatın davamlı inkişafını, ölkəmizin beynəlxalq arenada tanıdılmasını da praktiki məqsədlərə çevirib.

2003-cü ildən etibarən ölkədə sahibkarlığın inkişafına mane olan süni amillərin aradan qaldırılması, qeyri-neft sektorunun inkişaf etdirilməsi, yeni istehsal müəssisələrinin yaradılması, regional disbalansın aradan qaldırılması, əhalinin sosial rifah halının yaxşılaşdırılması, infrastrukturun yeniləşdirilməsi istiqamətində həyata keçirilən islahatlar praktik nəticələrini verib. Qlobal neqativ proseslərin, xüsusilə koronavirus pandemiyasının mənfi təsirlərinə baxmayaraq, Azərbaycan iqtisadiyyatı son 3 ildə dayanıqlılığını qoruyub saxlayıb. Yürüdülən iqtisadi siyasət ölkəmizin neftdən asılı olmayan, ixracyönümlü, dayanıqlı inkişaf strategiyasını da təmin edib.

Ötən illərdə reallaşdırılan Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri, Bakı-Tbilisi Ərzurum qaz kəməri, Bakı-Tbilisi-Qars dəmir yolu xətti, "Cənub qaz dəhlizi" kimi layihələr Azərbaycanın təkcə iqtisadi deyil, siyasi müstəqilliyini də gücləndirib. Azərbaycanın məqsədyönlü investisiya siyasəti yürütməsi, Avropanın enerji təhlükəsizliyində sözünü deməsi ümumən bütün dünyada ölkəmizin etibarlı tərəfdaş imicini formalaşdırıb, onu beynəlxalq münasibətlərin fəal aktoruna çevirib. Bütün bu amillər İkinci Qarabağ müharibəsi zamanı rəsmi Bakını müəyyən ədalətsiz təzyiq və təhdid cəhdlərindən qoruyub. İqtisadi resursları və maliyyə imkanları ölkəmizə həm də Cənubi Qafqazda beşinci nəsil texnika ilə təchiz olunmuş modern ordu yaratmağa imkan verib. Güclü ordu, güclü iqtisadiyyat amilləri, eləcə də sağlam düşüncəli, vətənpərvər, mübariz gəncliyin yetişdirilməsi xalqımızın Vətən müharibəsindəki qələbəsini təmin edən əsas amillərdəndir.

2022-ci il ərzində əldə olunmuş iqtisadi uğurlar rəsmi Bakıya, eyni zamanda xarici siyasət sahəsində də qarşıya qoyulmuş vəzifələri inamla gerçəkləşdirmək imkanı yaradıb. Ermənistanın müharibə cinayətlərinin ifşasına nail olmaq, dünya siyasətini istiqamətləndirən böyük dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlığı genişləndirmək, beynəlxalq aləmdə respublikamızda həyata keçirilən mütərəqqi ruhlu islahatlar barədə dolğun təsəvvür yaratmaq, xaricdə güclü diaspor və lobbi formalaşdırmaq xarici siyasətin prioritet məqsədləri olaraq qalıb. Rəsmi Bakı regionun və dünyanın bir sıra dövlətləri ilə diplomatik əlaqələri inkişaf etdirmək siyasətinə üstünlük verərək sivil qaydalara əsaslanan enerji diplomatiyası həyata keçirib.

Ölkə iqtidarının xalqın dəstəyinə arxalanması, hər bir məsələdə milli maraqları önə çəkməsi sayəsində Azərbaycanın xarici siyasəti istənilən geosiyasi təhdidə çevik müqaviməti təmin edir. Azərbaycan Xarici İşlər Nazirliyinin təkcə son bir ayda Fransaya və İrana notalar verməsi, milli maraqlarımızın təhdid edilməsi kimi uğursuz cəhdlərə adekvat reaksiya göstərməsi deyilənləri bir daha təsdiq edir.

Prezident İlham Əliyevin Qarabağ ermənilərilə danışıqlar mövzusunun Azərbaycanın daxili işi olduğunu qətiyyətlə bildirməsi də diplomatiyamızın effektiv əks-hücum xətti üzərində qurulduğunu təsdiqləyir. "Biz bu haqda Qarabağda yaşayan ermənilərlə danışmağa hazırıq, amma Moskvanın göndərdiyi, ciblərində rus xalqından oğurladığı milyardlarla pula sahib Vardanyan kimi insanlarla yox", - deyən dövlətimizin başçısı millli maraqlarımızın müdafiəsi üçün zəruri siyasi iradə nümayiş etdirir.

Rəsmi Bakı özünə güvənli, obrazlı desək, "dişli" diplomatiyaya üstünlük verərək, ikitərəfli və çoxtərəfli münasibətlərdə yaranmış anlaşılmazlıqlara məhz beynəlxaq hüququn hamılıqla qəbul olunmuş norma və prinsipləri əsasında yanaşmanı zəruri hesab edir. Bütün bunlar həm də onu göstərir ki, Azərbaycan Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan dövlət kimi bu geosiyasi məkandakı ölkələrin qeyri-adekvat, ikitərəfli münasibətlərin xarakterinə zidd qərarlarına da əsaslı təsir imkanlarına malikdir.

Dünyada müşahidə edilən yeni qlobal iqtisadi böhran dalğası - inflyasiya və qiymət artımları fonunda respublikamız iqtisadi müvazinətini qoruyub saxlayır, hökumətin sosial öhdəlikləri tam həcmdə yerinə yetirilir, zəruri layihələrin icrasında hansısa ləngimələr hiss edilmir. 2023-cü ilin dövlət büdcəsi xərclərinin ölkə tarixində ilk dəfə olaraq 33 milyardı ötməsi, strateji valyuta ehtiyatlarımızın 56 milyard dollar təşkil etməsi iqtisadi və siyasi müstəqilliyimiz üçün etibarlı "maliyyə yastığı" rolunu oynayır. Bunun nəticəsidir ki, il ərzində dünyanın bir sıra nüfuzlu maliyyə qurumları ölkəmizin iqtisadi inkişafı ilə bağlı müsbət proqnozlar səsləndiriblər.

İş adamlarının hərtərəfli dəstəklənməsi, sahibkarlığın tərəqqisi üçün əlverişli mühitin yaradılması, bu sahədə müxtəlif yardım və təşviq mexanizmlərinin tətbiqi biznes və sərmayə mühitinin liberallaşmasını təmin edir. Son illər dövlət-sahibkar münasibətlərinin inkişafı, sahibkarlıq fəaliyyətinə qanunsuz müdaxilələrin aradan qaldırılması, biznes subyektlərinin rəqabət qabiliyyətinin, ixrac imkanlarının genişləndirilməsi sahəsində kompleks tədbirlər həyata keçirilib.

Dövlətin ciddi maliyyə vəsaiti tələb edən investisiya layihələrini reallaşdırması (yol tikintisi, su, elektrik enerjisi, mavi yanacaqla təchizatın yaxşılaşdırılması), eyni zamanda kommunal xidmətlərə çıxış imkanlarının asanlaşdırılması özəl sektorun inkişafı baxımından müsbət nəticələr verir. Yeri gəlmişkən, Milli Məclisdə müzakirə mərhələsində olan "Dövlət-özəl tərəfdaşlığı haqqında" və "Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında" qanun layihələrinin də mikro, kiçik, orta sahibkarlıq subyektlərinin inkişafına yeni təkan verəcəyi şübhəsizdir.

Bu günlərdə İnzibati Xətalar Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında qanunvericiliyin pozulmasına görə cərimələrin ikiqat artırılması nəzərdə tutulur. Dəyişikliklərə əsasən, sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrində qeydiyyata alınmadan aparılmasına görə vəzifəli şəxslər 2000 manatdan 3000 manatadək məbləğdə cərimə ediləcəklər.

Prezident İlham Əliyev noyabrın 21-də Yeni Azərbaycan Partiyasının yaranmasının 30-cu ildönümünə həsr olunmuş toplantıda cəmiyyətdə xoşagəlməz halların aradan qaldırılmasına xidmət edən islahatların davam etdiriləcəyini bəyan edib: "İqtisadiyyatımızın şəffaflaşdırılması, xoşagəlməz hallara qarşı mübarizə, kölgə iqtisadiyyatının həcminin əhəmiyyətli dərəcədə azaldılması, biznes mühitinin yaxşılaşdırılması, inhisarçılığa qarşı daha ciddi mübarizə - bütün bunlar gündəlikdə duran məsələlərdir. O cümlədən dövlət şirkətlərində korporativ idarəetmə üsulunun tətbiq edilməsi bu günün reallıqlarını əks etdirir".

E-hökümət quruculuğu istiqamətində atılan addımlar, tətbiq olunan innovativ xidmətlər, habelə "ASAN xidmət" konsepti də biznes mühitinin yaxşılaşmasında vacib rol oynayır. Şəffaflıq və korrupsiyaya qarşı ciddi mübarizə tədbirləri çərçivəsində reallaşdırılan tədbirlər ölkədə biznes mühitinin yaxşılaşmasına müsbət təsir göstərir. Bu kontekstdə vətəndaş cəmiyyətinin inkişafı, dövlət qurumları üzərində ictimai nəzarət mexanizmlərinin gücləndirilməsi də xüsusi diqqət mərkəzindədir. Hüquqazidd əməlləri ilə ictimaiyyətin dövlətə və hakimiyyətə inamına xələl gətirən məmurların vəzifəsindən kənarlaşdırılması və məsuliyyətə cəlb olunması da ölkədə şəffaf idarəçilik mexanizmlərinin formalaşdırılması istiqamətində başlanmış prosesin mühüm tərkib hissəsidir.

Müasir idarəetmə meyarlarına uyğunlaşmaq istəməyən, xəbərdarlıqlardan nəticə çıxarmayan yüksəkvəzifəli məmurlar barəsində sərt ölçülərin götürülməsi, habelə bəzilərinin cinayət məsuliyyətinə cəlb olunmaları, ilk növbədə, qanunun aliliyinin təmin edilməsi istiqamətində atılan addımlardır. Bu günlərdə Dövlət Təhlükəsizliyi Xidmətinin Naxçıvanın Muxtar Respublikasının bəzi dövlət qurumlarında apardığı əməliyyatlar, qanunsuz əməllərə yol verən şəxslərin saxlanılması, reallaşdırılan struktur dəyişiklikləri da şəffaflığın təmini ilə bağlı ciddi siyasi iradənin mövcudluğundan xəbər verir. Bunlar həm də onu göstərir ki, dövlət başçısı İlham Əliyev vəzifəsindən, keçmişdəki xidmətlərindən asılı olmayaraq, hər bir dövlət məmurunun Vətən və xalq üçün ləyaqətlə çalışmasını, qanunlara əsaslanmasını vacib sayır.

Azərbaycan bu gün neft gəlirlərinin böyük hissəsini qeyri-neft sektorunun inkişafı, neftdənkənar ixracın genişləndirilməsi üçün istifadə edir. 2023-cü ilin dövlət büdcəsinin müzakirələri deməyə əsas verir ki, gəlirlərin 53 faizi və ya 16 milyard 297 milyon manatı neft sektorunun, 47 faizi və ya 14 milyard 423,7 milyon manatı qeyri-neft sektorunun payına düşəcək. Bu rəqəmlər aparılan islahatların səmərəliliyini bir daha təsdiq edir.

Qlobal neqativ proseslər fonunda ölkə iqtisadiyyatının sabit inkişaf dinamikasının qorunması baxımından regional balansın təmini, iri şəhərlərlə rayonlar, kəndlər arasındakı fərqin azaldılması vacib amillərdəndir. Dövlət başçısı İlham Əliyevin son 19 illik iqtisadi siyasətində regional inkişaf məsələlərinə xüsusi diqqətin yetirilməsi, bölgələrin tərəqqisinə yönəlmiş dövlət proqramlarının, fərman və sərəncamların imzalanması məhz bu reallığa əsaslanır. Prezident İlham Əliyevin bu günlərdə Şəki və Oğuz rayonlarına səfəri, bir sıra mühüm obyektlərin açılışında iştirak etməsi ölkədə 2003-cü ildən regionların sosial-iqtisadi inkişafı sahəsində həyata keçirilən tədbirlərin uğurlu davamı və tərkib hissəsidir. Bu tədbirlər ümumən Şəki-Zaqatala iqtisadi rayonunun inkişafı baxımından geniş imkanlar açır. İqtisadiyyatın şaxələndirilməsi məqsədilə regionlarda kənd təsərrüfatının ənənəvi və qeyri-ənənəvi sahələrinin, aqrar-sənaye, emal müəssisələrinin fəaliyyətinin dövlət başçısı səviyyəsində dəstəklənməsi iş adamları tərəfindən yüksək qiymətləndirilir, onların fəaliyyətinə əlavə stimul verir.

Qeyri-neft sektorunda istehsalyönümlü müəssisələrin açılması deməyə əsas verir ki, dövlət başçısı İlham Əliyev ölkə əhalisinin kənd təsərrüfatı məhsulları ilə etibarlı təminatı məsələsinə mühüm məsələ kimi yanaşır. 6 dekabr 2016-cı il tarixli sərəncamla təsdiqlənmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə isə ölkənin ərzaq təhlükəsizliyinin təmini strateji hədəf kimi elan edilib və əsas prioritetlər müəyyənləşdirilib. Hazırda qlobal miqyasdakı iqlim dəyişiklikləri, su ehtiyatlarının azalması, torpaqların şoranlaşması, geosiyasi gərginliklər, münaqişə ocaqları və demoqrafik artım kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi sahəsində genişmiqyaslı tədbirləri zəruri edir. Dövlət başçısı İlham Əliyev məhz bu amilləri nəzərə alaraq dövlətin kənd təsərrüfatı istehsalçıları və fermerlərə hərtərəfli dəstəyini təmin edir, onlar vergi güzəştləri, subsidiyalar və texniki yardımla əhatə olunurlar.

Region sahibkarlarının ixrac imkanlarının genişləndirilməsi tədiyyə balansının tənzimlənməsi, habelə xaricdən valyuta axınının təmini, idxaldan asılılığın maksimum dərəcədə azaldılması baxımından mühüm əhəmiyyət kəsb edir. Görülən bu və digər tədbirlərin nəticəsi olaraq Azərbaycanın ixrac potensialı ilbəil yüksəlir. Şəkidə və Oğuzda açılışı olmuş layihələr göstərir ki, regionların tərəqqisində Heydər Əliyev Fondunun da müstəsna xidmətləri var. Fond təkcə Bakıda deyil, regionlarda mədəni-intellektual yüksəlişə və sosial rifaha xidmət edən layihələri inamla reallaşdırır.

Dövlət başçısı İlham Əliyevin 16 noyabr 2022-ci il tarixli sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair Dövlət Proqramı" bu istiqamətdə görülən işlərin daha da sistemli, ardıcıl, əhatəli, konkret plan üzrə aparılmasını təmin edən konseptual əhəmiyyətli sənəd kimi dəyərləndirilə bilər. Dövlət proqramında konkret mərhələlər üzrə qarşıya qoyulan məqsədlər, görüləcək işlər, dövlət qurumlarının üzərinə düşən vəzifələr və onlara uyğun hədəf göstəriciləri, maliyyələşmə mənbələri dolğun əksini tapıb. Dövlət proqramının hazırlanmasında mütərəqqi beynəlxalq təcrübə, bu sahədə strateji inkişaf tendensiyaları, işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi potensialı və dünya iqtisadiyyatının müasir çağırışları nəzərə alınıb.

Ümumilikdə, sənəd əsasında ərazilərdə təhlükəsiz yaşayışın və dövlət idarəetməsinin təşkili; səhər, qəsəbə və kənd yaşayış məntəqələrinin tikintisi və dayanıqlı infrastruktur təminatı, müasir standartlara uyğun xidmətlərin yaradılması; məskunlaşacaq əhalinin sosial müdafiəsinin gücləndirilməsi; məşğulluq imkanlarının artırılması; sosial xidmətlərin əhatə dairəsinin genişləndirilməsi və əlçatanlığının təmini; sahibkarlıq mühitinin əlverişliliyinin artırılması; biznes fəaliyyətinin inkişafına dəstək verilməsi; ərazilərin kənd təsərrüfatı potensialından səmərəli istifadə olunması üçün müasir suvarma infrastrukturunun formalaşdırılması; dayanıqlı və mütərəqqi kənd təsərrüfatı təcrübələrinin tətbiqi; turizm sektorunun inkişaf imkanlarından effektiv istifadə; ətraf mühitin etibarlı mühafizəsinin və ekoloji təhlükəsizliyi; təbii resurslardan səmərəli istifadə; "ağıllı şəhər", "ağıllı kənd" və "yaşıl enerji zonası" konsepsiyalarının tətbiqi kimi vacib 15 hədəf önə çəkilib.

Konseptual əhəmiyyətli dövlət proqramında diqqəti çəkən məqamlardan biri də işğaldan azad edilmiş ərazilərdə iqtisadi fəaliyyətin dirçəldilməsi, əlverişli biznes və sərmayə mühitinin formalaşdırılması üçün nəzərdə tutulan kompleks tədbirlərdir. Sənəddə azad edilmiş ərazilərdə sahibkarlıq fəaliyyəti ilə məşğul olacaq şəxslərin maliyyə resurslarına çıxışının genişləndirilməsi, resursların maya dəyərinin azaldılması, əhalinin bank, sığorta və maliyyə xidmətlərinə çıxışının genişləndirilməsi məqsədilə regionda maliyyə institutlarının fəaliyyətinin bərpası istiqamətində işlər görülməsi və digər tədbirlər nəzərdə tutulur. Proqramda sahibkarlıq subyektlərinə Azərbaycan Biznesinin İnkişafı Fondunun vəsaiti hesabına güzəştli kreditlərin verilməsi, kredit faizlərinin subsidiyalaşdırılması, yerli və xarici investisiyanın cəlbi üçün tədbirlərin görülməsi, investisiyaların sığortalanması mexanizminin yaradılması kimi mühüm məqamlar əksini tapıb.

*Bütün bunlar göstərir ki, Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin xaos və anarxiyadan, dövlətçiliyin itirilməsi təhlükəsindən xilas etdiyi, dinamik inkişaf yoluna çıxardığı Azərbaycanı son 19 ildə ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən dövlətə çevirməyə nail olub. Bu siyasət Azərbaycanın hərtərəfli inkişafına, müstəqil dövlətçiliyini daha da gücləndirməsinə və qarşıya qoyduğu strateji hədəfləri uğurla reallaşdırmasına ən etibarlı təminatdır.*

**Qüdrət KƏRİMOV,**
***"Xəzər" QSC-nin sədri, iqtisad elmləri doktoru***

# Bakı səs çoxluğu ilə FIA Baş Assambleyasının iclası və mükafatlandırma mərasiminin növbəti ev sahibi seçildi






Beynəlxalq Avtomobil Federasiyasının (FIA) Baş Assambleyasının 2023-cü ildəki toplantısı və mükafatlandırma mərasimi Bakıda keçiriləcək.

Azərbaycan Avtomobil Federasiyasından (AAF) AZƏRTAC-a bildiriblər ki, bu barədə FIA Baş Assambleyasının İtaliyanın Bolonya şəhərində keçirilən iclasında qərar qəbul olunub.

Toplantıda ölkəmizi Azərbaycan Avtomobil Federasiyasının prezidenti Anar Ələkbərovun başçılığı ilə nümayəndə heyəti təmsil edir.

Qeyd edək ki, FIA Baş Assambleyasının iclası və mükafatlandırma mərasiminə evsahibliyi etmək üçün bir neçə ölkə, həmçinin Azərbaycan müraciət etmişdi. Səsvermə nəticəsində müraciət edən ölkələr arasından Azərbaycanın namizədliyi təsdiq olunub. Beləliklə, Bakı 2023-cü il dekabrın 4-8-də bu beynəlxalq tədbirə evsahibliyi edəcək. FIA Baş Assambleyasının iclası və mükafatlandırma mərasimi zamanı dünyanın müxtəlif ölkələrindən avtomobil təşkilatları, avtomobil idmanının görkəmli simaları ölkəmizdə bir araya gələcəklər.

İllik və ya növbədənkənar çağırılan Baş Assambleya FIA-nın ali qərarverici orqanıdır və Beynəlxalq Avtomobil Federasiyasının üzv təşkilatlarını təmsil edən avtoidman federasiyalarından (klublardan) və mobillik sahəsində fəaliyyət göstərən klublardan ibarətdir. Hər il fərqli ölkələrdə keçirilən bu tədbirin məqsədi avtomobil idmanı və sənayesi sahəsində müxtəlif mövzuları müzakirə etməkdir.

Mükafatlandırma mərasimi isə (FIA Prize-Giving Ceremony) avtomobil idmanı üzrə mötəbər tədbirlərdən biri sayılır. 2011-ci ildən keçirilən bu mərasim FIA Baş Assambleyasının yekununda təşkil olunur və tədbirdə avtomobil idmanı üzrə müxtəlif mükafatlar təqdim edilir.

# Bakıda "Media savadlılığı" konfransı keçirildi




Dekabrın 9-da Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə media savadlılığı mövzusunda məlumatlılığın artırılması məqsədilə Bakı şəhəri və regionlarda yaşayan 300 nəfərə yaxın gəncin iştirakı ilə Bakı Gənclər Mərkəzində "Media savadlılığı" konfransı keçirilib.

AZƏRTAC xəbər verir ki, konfrans Azərbaycanın Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Sonra Ümummilli Lider Heydər Əliyev və Vətənin ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Tədbirdə açılış nitqi ilə çıxış edən Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov vurğulayıb ki, hazırda elektron informasiya cəmiyyətinin əhatə dairəsinin sürətlə genişlənməsi, rəqəmsal reallıq şəraitində məlumatlara əlçatanlığın asanlaşması, cəmiyyətin məlumatın obyektiv tərəfini müəyyənləşdirməkdə çətinliklərlə qarşılaşması media savadlı istehlakçıların yetişdirilməsinə zərurət yaratmaqla yanaşı, medianın öz peşəkar funksiyasını effektiv yerinə yetirməsi istiqamətində ardıcıl və təxirəsalınmaz addımların atılmasını tələb edir.

Daha sonra Azərbaycan Respublikası Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehovun moderatorluğu ilə "Müasir informasiya mühitində media təhsili" mövzusunda panel sessiya keçirilib.

Panel sessiyada çıxış edənlər - elm və təhsil nazirinin müşaviri Nicat Məmmədli, Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev, Bakı Slavyan Universitetinin rektoru Anar Nağıyev, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının rektoru Fuad Hacıyev bildiriblər ki, məktəbdə və məktəbdənkənar hazırlanan və tədris edilən proqramlar, təlimlər, konfranslar, rəqəmsal media bacarıqlarının təkmilləşdirilməsinə və media məlumatlılığının artırılmasına istiqamətlənən tədbirlər gənclərin sosial-mədəni potensialının gücləndirilməsi, eləcə də cəmiyyətin inkişafı üçün xüsusi əhəmiyyət kəsb edir. Gənclər arasında media savadlılığının artırılması üçün maarifləndirmə işlərinin genişləndirilməsinin, həmçinin məlumat istehsalı və istehlakı proseslərində savadlılıq anlayışının müasir dövrün tələblərinə uyğunlaşdırılmasının vacibliyini vurğulayıblar.

"Gənclərin ictimai və sosial inkişafında media savadlılığının əhəmiyyəti" mövzusunda ikinci panel sessiyaya moderatorluq edən "ASAN Radio"nun direktoru Emin Musəvi agentliklə birgə həyata keçirilən "Smart media" layihəsinin əhəmiyyətini vurğulayıb.

Gənclər və idman nazirinin müavini İndira Hacıyeva çıxışında qeyd edib ki, media savadlılığının artırılması medianın mənfi nəticələrini minimuma endirmək, rəqəmsal platformalarda iştirakın potensial zərərli təsirlərini azaltmaq, eləcə də gənclərə rəqəmsal dünyada tənqidi istehlakçılar və yaradıcılar olmağa kömək etmək üçün ən əsas alətlərdəndir.

Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov bildirib ki, qlobal informasiya mühitinin modernləşməsi bir çox həssas istifadəçi qrupları, yəni uşaq, yeniyetmə və gəncləri medianın mənfi təsirlərinin birbaşa hədəfi halına gətirir. Ona görə də beynəlxalq təcrübədə bu sahədə görülən işlər ilkin olaraq gənclər üçün maarifləndirmə və təhsil proqramlarının icrası istiqamətindədir.

ADA Universitetinin Kommunikasiya və Rəqəmsal Media proqramının rəhbəri Şəfəq Mehrəliyeva media savadlılığı bacarıqlarının artırılmasının məqsədindən, media kontentinin dəyərləndirilməsi ilə bağlı geniş və davamlı xarakter daşıyan maarifləndirmə işlərinin aparılmasının vacibliyindən danışıb.

Azərbaycan Könüllü Təşkilatları İttifaqının sədri Yusif Vəliyev son illərdə ölkədə informasiya kommunikasiya texnologiyaları sektorunun sürətlə və dinamik şəkildə inkişaf etməsinin gənclər arasında media savadlılığının artırılmasını, bununla bağlı koordinasiyalı tədbirlərin görülməsini zəruri etdiyini vurğulayıb.

Konfrans çərçivəsində agentliyin nümayəndəsi Pərvanə İbrahimova və Bakı Dövlət Universitetinin Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının dosenti Vəfa İsgəndərovanın təqdimatında gənclərin iştirakı ilə "Dezinformasiyaya qarşı: Faktların araşdırılması" mövzusunda vörkşop baş tutub.

Daha sonra "TEDx" formatında "#MEDİAtalks" tədbiri keçirilib. "Rəqəmsal mediada təhlükələr: Dezinformasiya və kiberzorakılıq", "İnformasiyanın gücü və məsuliyyəti", "Media savadlı istehlakçıların formalaşdırılması" mövzularında çıxış edən İctimai televiziyanın aparıcısı, "Cəhənnəmdə böyük çığırtı" və "Əsir düşərgəsi" kitablarının müəllifi Vüsalə Məmmədova dezinformasiyaların müxtəlif insanların həyatında yaratdığı mənfi təsirlərdən, media savadlılığının həyatımızda oynadığı önəmli roldan bəhs edib.

Sonda interaktiv müzakirə sessiyaları olub, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# Azərbaycan memarlarının XX qurultayı olub






Dekabrın 9-da Bakı şəhərində Azərbaycan memarlarının XX yubiley qurultayı keçirilib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin üzvləri və ittifaqın fəalları Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.

Sonra görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsi ehtiramla anılıb, məzarı üzərinə əklil qoyulub, tər güllər düzülüb.

Həmçinin Şəhidlər xiyabanında Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib və "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

Tədbirdən əvvəl iştirakçılar və qonaqlar Beynəlxalq Muğam Mərkəzinin foyesində təşkil olunmuş "Azərbaycan memarlarının nailiyyətləri" sərgisi ilə tanış olublar. Qurultayın açılışında Azərbaycan Respublikasının Dövlət Himni səslənib.

Azərbaycan Memarlar İttifaqının İdarə Heyətinin sədri Elbay Qasımzadə memarlıq sənətinin təbliğində və inkişafında Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın böyük rolunu qeyd edib.

Qurultayda iştirak edən Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva Prezident İlham Əliyevin qurultay iştirakçılarına ünvanlandığı məktubu oxuyub. *(Məktubun mətni qəzetin bugünkü nömrəsində dərc olunub.)*

Sonra Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov Memarlar İttifaqı ilə uzun illər davam edən səmərəli əməkdaşlıqdan, tarixi-mədəni abidələrimizin bərpası sahəsində birgə görülən işlərdən danışıb. Nazir həmçinin memarlıq sənətinin inkişafında göstərdikləri xidmətlərə görə bir qrup memara Mədəniyyət Nazirliyinin təltiflərini təqdim edib.

Bakı Şəhər İcra Hakimiyyəti Aparatının rəhbəri Ayaz İmaməliyev Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizovun adından qurultay iştirakçılarını salamlayıb və bir neçə memara Bakı Şəhər İcra Hakimiyyətinin fəxri fərmanlarını təqdim edib. Bundan sonra Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyevin və digər rəsmi qonaqların çıxışları dinlənilib.

Qurultayda Beynəlxalq Memarlar İttifaqının prezidenti Xose Luis Kortesin, Rusiya Memarlar İttifaqının prezidenti, MDB Ölkələri Memarlar İttifaqlarının Beynəlxalq Assosiasiyasının prezidenti Nikolay Şumakovun, Beynəlxalq Memarlıq Akademiyasının Moskva bölməsinin prezidenti, akademik Andrey Bokovun salamları səsləndirilib.

Sonra Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin plenumunun 2022-ci il 25 noyabr tarixli qərarına əsasən, bir neçə memara "Akademik Mikayıl Useynov" xatirə medalı və "Ustad Memar" yüksək peşəkarlıq şəhadətnamələri təqdim olunub.

Mükafatlandırma başa çatdıqdan sonra Memarlar İttifaqının İdarə Heyətinin sədri Elbay Qasımzadə 2017-2022-ci illər ərzində ittifaqın fəaliyyəti barədə hesabatla çıxış edib.

Qeyd olunub ki, hesabat dövründə Memarlar İttifaqının 24 üzvü fəxri adlara layiq görülüb. Ötən 5 il ərzində Azərbaycan Memarlar İttifaqının təşəbbüsü, Beynəlxalq Memarlar İttifaqının dəstəyilə, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə birgə 2019-cu və 2021-ci illərdə Bakı Beynəlxalq Memarlıq Müsabiqəsi keçirilib. Eləcə də 2019-cu ildə ilk dəfə olaraq Beynəlxalq Memarlar İttifaqının "Tarixi şəhərlərdə kütləvi turizm" mövzusunda Birinci Memarlıq Forumu Bakıda keçirilib. Forumda dünyanın 100-dən çox ölkəsindən 500 nəfərə yaxın xarici qonaq iştirak edib.

Diqqətə çatdırılıb ki, 2022-ci il oktyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti tərəfindən Bakıda tanınmış memarlar Sadıx Dadaşovun və Mikayıl Useynovun birgə abidəsinin qoyulması haqqında Sərəncam imzalanıb. Ondan 1 il əvvəl Memarlar İttifaqının təşəbbüsü və Mədəniyyət Nazirliyinin sifarişi ilə bu iki ustad memar haqqında "Yaradanlar" sənədli filmi çəkilib.

Qurultayda Memarlar İttifaqının Təftiş Komissiyasının sədri Nizami Şıxzamanovun hesabatı dinlənilib.

Hesabat məruzələri dinlənildikdən sonra qurultay nümayəndələri tərəfindən Memarlar İttifaqının fəaliyyətinə dair rəy və təkliflər səslənib, ittifaqın fəaliyyətinə qiymət verilməsi barədə müvafiq qərar qəbul edilib.

Daha sonra Memarlar İttifaqının katibi Rüfət Ağazadənin Memarlar İttifaqının Nizamnaməsinin yeni redaksiyası haqqında çıxışı dinlənilib. Qurultayda növbəti 5 il müddətinə Memarlar İttifaqının İdarə Heyətinin sədri vəzifəsinə namizədlər irəli sürülüb. Açıq səsvermə yolu ilə Elbay Qasımzadə yekdilliklə yenidən İdarə Heyətinin sədri seçilib.

Ardınca Azərbaycan Memarlar İttifaqı yanında yaradılmış Ağsaqqallar Şurasının əsasnaməsinin layihəsi müzakirə olunub və qəbul edilib. Bundan əlavə, növbəti 5 ildə ittifaqın İdarə Heyətinin, Təftiş Komissiyasının və Ağsaqqallar Şurasının tərkibi gizli səsvermə yolu ilə müəyyən olunub.

Qurultayın sonunda Azərbaycan memarlarının XX qurultayının qətnaməsi oxunub və qəbul edilib. Sonda qurultay nümayəndələrinin Prezident İlham Əliyevə müraciəti oxunub. Qurultay sona yetdikdən sonra Azərbaycan Memarlar İttifaqının İdarə Heyətinin birinci təşkilati plenumu keçirilib və növbəti 5 ildə fəaliyyət göstərəcək katiblik üzvləri müəyyən edilib.

# Byorn BERQE: "Azərbaycanla əməkdaşlığın daha da genişlənəcəyinə əminik"

Dekabrın 9-da Bakıda Azərbaycan və Avropa Şurası arasında 20 illik əməkdaşlığa həsr olunmuş "dəyirmi masa" keçirilib.



AZƏRTAC xəbər verir ki, tədbir Avropa Şurasının Bakıdakı ofisi, Xarici İşlər Nazirliyi, ADA Universiteti və Universitetin nəzdində fəaliyyət göstərən İnkişaf və Diplomatiya İnstitutunun birgə təşkilatçılığı ilə təşkil olunub.

"Dəyirmi masa" iştirakçılarına videomüraciət ünvanlayan Avropa Şurası baş katibinin müavini Byorn Berqe tədbirin əhəmiyyətini vurğulayaraq deyib: "Bu həm Avropa Şurasının, həm də Azərbaycanın əməkdaşlığa və son 20 il ərzində birlikdə gördüyümüz işə sadiqliyini göstərir".

Qeyd edilib ki, Azərbaycan Avropa Şurasına üzv olduqdan sonra qurumun 65 konvensiyasını imzalayıb və ratifikasiya edib, doqquz dəfə isə sazişə qismən qoşulub. Baş katibin müavini Lanzarote Konvensiyasının (Uşaqların Cinsi İstismar və Seksual Xarakterli Hərəkətlərdən Müdafiəsinə dair Avropa Şurası Konvensiyası) bu yaxınlarda baş tutan ratifikasiyasından bəhs edib, bu addımın indiki və gələcək gənc nəsillərin sağlamlığı və rifahı üçün əhəmiyyətini vurğulayıb.

B.Berqe bildirib ki, Avropa Şurası Azərbaycanla əməkdaşlıq təşəbbüsləri vasitəsilə Azərbaycanın məişət zorakılığı ilə mübarizə üzrə ilk Milli Fəaliyyət Planına "xüsusən də qadınların daha çox təhlükəsizlik şəraitində yaşaya bilməsi üçün" töhfə verib. "Ədliyyənin daha əlçatan və möhkəm olması üçün" pulsuz hüquqi yardımın göstərilməsi və məhkəmə qərarlarının icrası ilə bağlı qanunvericilik üzərində iş də davam etdirilir.

Azərbaycan Avropa Şurasının baş katibi və ədliyyə naziri Fikrət Məmmədov tərəfindən bu ilin aprelində işə salınan plan da daxil olmaqla, üç birgə razılaşdırılmış fəaliyyət planı vasitəsilə AŞ-nin xüsusi dəstəyindən yararlanıb. Fəaliyyət planının yeni prioritetlərinə ayrı-seçkiliyə qarşı mübarizə, ifadə azadlığı və insan alveri ilə mübarizə daxildir.

Byorn Berqe gələcək əməkdaşlıq imkanlarından danışaraq, əməkdaşlığın gələcək illərdə daha da genişlənəcəyinə əminliyini ifadə edib. O, Bakının mütəmadi olaraq ümumdünya forumuna evsahibliyi etdiyi mədəniyyətlərarası dialoq sahəsini xüsusi qeyd edib.

"Azərbaycanın dinlərarası dialoq üzrə əməkdaşlığımıza yenidən başlamağa böyük marağı olması yüksək qiymətləndirilir.

Avropa hazırda bir sıra ciddi problemlərlə üz-üzədir. Biz irəlilədikcə Azərbaycan və Avropa Şurası arasında birgə əməkdaşlıq da həmişəkindən daha vacib olacaq",- B.Berqe çıxışını yekunlaşdırıb.

Açılış sessiyasında xarici işlər nazirinin müavini Mahmud Məmməd-Quliyev, insan hüquqları üzrə müvəkkil (ombudsman) Səbinə Əliyeva və ADA Universitetinin prorektoru, eləcə də İnkişaf və Diplomatiya İnstitutunun direktoru Fariz İsmayılzadə, Avropa İttifaqının Azərbaycan Respublikasındakı nümayəndəliyinin rəhbəri səfir Peter Mixalko və Avropa Şurasının Bakıdakı ofisinin rəhbəri Petr Zix iştirak ediblər.

Qeyd olunub ki, "dəyirmi masa" Avropa Şurası ilə Azərbaycan arasında əməkdaşlıq haqqında məlumatlılığın artırılmasına yönəlmiş daha geniş təşəbbüsün bir hissəsidir. Bu təşəbbüs çərçivəsində Avropa Şurasının Bakıdakı ofisi məhkəmə-hüquq məsələləri ilə bağlı vebinar keçirib. Həmçinin özünün sosial media hesablarında Avropa Şurasının Azərbaycandan olan əməkdaşlarının, habelə ölkəmizin AŞ yanında daimi nümayəndəsinin videomüsahibəsini dərc edib.

# Ceyhun Bayramov britaniyalı səfiri bölgədə mina təhdidləri barədə məlumatlandırıb

**Dekabrın 9-da xarici işlər naziri Ceyhun Bayramov Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdəki səfiri Fergus Auld ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan və Birləşmiş Krallıq arasında həm ikitərəfli, həm də çoxtərəfli çərçivədə mövcud olan əməkdaşlıqdan məmnunluq ifadə edilib. Həmçinin iki ölkə arasında enerji, nəqliyyat-tranzit, təhsil və digər sahələrdə əməkdaşlıq məsələləri ətraflı müzakirə olunub.

Ölkələrimiz arasında iqtisadi sahədə əldə olunan nailiyyətlərin olduqca əhəmiyyətli və Böyük Britaniyanın Azərbaycanda ən böyük birbaşa xarici investor olduğu vurğulanıb.

Nazir həmçinin müqabil tərəfi Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesi, eləcə də işğaldan azad edilmiş ərazilərimizdə aparılan yenidənqurma və bərpa işləri barədə məlumatlandırıb. Eyni zamanda bölgədə mina təhdidləri və üçtərəfli bəyanatların və əldə olunmuş razılıqların Ermənistan tərəfindən yerinə yetirilməməsi faktları diqqətə çatdırılıb. Səfir Fergus Auld ölkələrimiz arasında müstəqillikdən bəri davam edən sıx əməkdaşlıq və tərəfdaşlıqdan məmnunluğunu diqqətə çatdırıb. O, iki ölkə arasında əməkdaşlığın uğurla davam etdiyini və energetika, alternativ enerji, təhsil, yüksək texnologiyalar və bir sıra digər istiqamətlərdə geniş perspektivlərin olduğunu bildirib. Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə əhəmiyyətli töhfə verdiyi xüsusi qeyd olunub. Səfir mövcud mina təhdidinin aradan qaldırılması istiqamətində səylərin, ərazilərin təmizlənməsi sahəsində Azərbaycana verilən dəstəyin davam edəcəyini diqqətə çatdırıb.

Görüşdə tərəflər həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Qadın sahibkarların cəmiyyətdə rolunun gücləndirilməsi diqqət mərkəzindədir

**Dekabrın 9-da Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova USAİD Özəl Sektorun İnkişafı layihəsinin təmsilçiləri ilə görüşüb.**



Görüşdə USAİD Özəl Sektorun İnkişafı layihəsi çərçivəsində qadın sahibkarların iqtisadi və sosial həyatda üzləşdiyi çətinliklər və onların aradan qaldırılması üçün görülə biləcək tədbirlər barədə müzakirələr aparılıb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Hicran Hüseynova qonaqları salamlayaraq bildirib ki, qadın sahibkarların rolunun cəmiyyətdə gücləndirilməsi ölkə rəhbərliyinin diqqət mərkəzindədir.

Hicran Hüseynova diqqətə çatdırıb ki, qadın sahibkarların imkanlarının genişləndirilməsi üçün qanunvericilikdə bəzi dəyişikliklər ediləcək. Qadın sahibkarlar maariflənməli, mentorluq proqramlarında iştirak etməlidirlər. Cəmiyyətimizdə mövcud olan pozitiv diskriminasiya tədricən dövlət və özəl qurumların birgə səyi nəticəsində aradan qaldırılacaq.

USAİD PSA "Assosiasiyalarda Qadınlar" Komponentinin rəhbəri Şəlalə Kamilova deyib ki, layihənin əsas məqsədi qadın sahibkarların, onları müxtəlif sahələrdə təmsil edən və elə qadınlar tərəfindən də idarə olunan assosiasiyaların gücləndirilməsidir. Təşkilat və assosiasiyalar nə qədər güclü olarsa, göstərdiyi xidmət də bir o qədər mühüm və yararlı olar. Layihə çərçivəsində iki il ərzində qadınlara fokuslanan 20-dən artıq assosiasiya ilə iş aparılır və cəmiyyətdə qadınların rolunun gücləndirilməsi istiqamətləri üzrə əsas prioritet sahələr müəyyənləşdirilib.

USAİD PSA "Assosiasiyalarda Qadınlar" Komponentinin hüquq və siyasət üzrə mütəxəssisi Rəşid Məmmədov layihənin tövsiyə sənədini təqdim edib. Qeyd olunub ki, bu sənəd müvafiq siyahıda adları olan təşkilatlarla birgə hazırlanıb. Bütün region üzrə qadın sahibkarlar arasında keçirilən sorğu və hesabatın nəticələri də sənəddə öz əksini tapıb.

Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyasının sədri Səkinə Babayeva çıxışında bildirib ki, əsas çətinlik dəyər zəncirində qırılmaların olmasıdır. Bununla bağlı qanunvericilikdə bir neçə dəyişiklik edilməlidir. Digər bir məsələ isə regionlarda kadr potensialı ilə bağlıdır. Xaricdən gələn layihələrin əksər hissəsi öz ekspertləri tərəfindən yerinə yetirilir. Regionlarda rəqəmsallaşma inkişaf etmədiyi üçün hüquqi məsələlərdə köməyə ehtiyac yaranır.

Azərbaycan Kənd Qadınları Assosiasiyasının sədri Gülbəniz Qənbərova bildirib ki, regionların iqtisadi inkişafında aparıcı qüvvə olan qadın fermerlərin cəmiyyətə inteqrasiyasını sürətləndirmək, onların şəbəkələşməsi üçün dəstək göstərmək lazımdır. Biz bunu ancaq regional səviyyədə edirik. Bunun milli səviyyədə edilməsi üçün kömək lazımdır.

Görüşdə iştirak edən Azərbaycan Biznes Qadınları Platformasının təsisçisi Tatyana Malikova təhsilin önəmindən danışıb, regionlarda xüsusilə qadınlar arasında təhsildən yayınma hallarının qarşısının alınmasının vacibliyini qeyd edib.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Deputatlarımız beynəlxalq tədbirdə iştirak ediblər

**Dekabrın 9-da Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiyanın (CEDAW) icrası, hesabatlılıq və atılmalı olan addımlarda parlamentin iştirakına həsr olunmuş ikinci PAİ vebinarı keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, onlayn tədbirdə Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, komitənin üzvləri Nigar Arpadarai, Könül Nurullayeva və Sevil Mikayılova iştirak ediblər.

Vebinara habelə cari ilin iyun və oktyabr aylarında hesabatları dinlənilən bir sıra digər ölkələrdən, o cümlədən Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri, İsveçrə, Belçika, Finlandiya, Mərakeş, Ukrayna, Portuqaliya, Boliviya, Monqolustan, Namibiya və digər ölkələrdən olan deputatlar qatılıblar.

Müzakirələrdə çıxış edən Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova bildirib ki, Azərbaycanda insan hüquqlarının tərkib hissəsi olan gender bərabərliyinin, eləcə də qadın və uşaq hüquqlarının təmin olunmasının fundamental hüquqi əsasları yaradılıb. Komitə sədri bu istiqamətdə "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" və "Uşaq hüquqları haqqında" BMT konvensiyalarının ratifikasiya olunduğunu, "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" və "Məişət zorakılığının qarşısının alınması haqqında" qanunların qəbul edildiyini söyləyib. O, ölkəmizdə qadın və uşaq hüquqları sahəsində dövlət siyasətinin formalaşdığını qeyd edib və zəruri institusional islahatların həyata keçirildiyini diqqətə çatdırıb. Komitə sədri ölkəmizdə gender bərabərliyinin təmin olunması sahəsində mövcud normativ-hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində qəbul edilən qanunvericilik aktlarının əhəmiyyətindən danışıb.

Hicran Hüseynova Azərbaycanda gender ayrı-seçkiliyinin və bərabərsizliyin aradan qaldırılması sahəsində qızlara və qadınlara dəstək tədbirlərinin genişləndirilməsi, bu istiqamətində aparılan təbliğat və maarifləndirmə tədbirləri barədə məlumat verib. Habelə gənclər arasında ailənin və nikahın əhəmiyyəti, onun möhkəmləndirilməsinin təşviqi ilə bağlı görülən işləri qeyd edib. Komitə sədri ölkəmizdə uşaqlar üçün bərabər imkanların yaradıldığını, dövlət qayğısına ehtiyacı olan uşaqların hüquqlarının müdafiə edildiyini, onlara sosial dəstək xidmətlərinin təmin olunduğunu söyləyib.

Komitə sədri ölkəmizdə məişət zorakılığının qarşısının alınması üzrə tədbirlərin görüldüyünü, məişət zorakılığı ilə mübarizə sahəsində normativ-hüquqi aktların qəbul edildiyini diqqətə çatdırıb. O, qadınların hüquqlarının müdafiəsi məqsədilə onların əməyi qadağan olunan 700-ə yaxın peşə və iş yerini müəyyənləşdirən siyahının ləğv edildiyini, hamilə və bir yaşınadək uşağı olan qadınların əməyi qadağan olunan iş yerlərinin, zərərli maddə və amillərin siyahılarının təsdiq edildiyini, bununla bağlı sənədin Milli Məclisdə qəbul olunduğunu bildirib. Hicran Hüseynova Azərbaycanda qadınların həyatın bütün sahələrində ən yüksək səviyyələrdə təmsil olunduğunu, dövlət tərəfindən bunun üçün lazımi şəraitin yaradıldığını diqqətə çatdırıb.

Onlayn tədbirdə iştirak edən Milli Məclisin deputatları Nigar Arpadarai, Könül Nurullayeva, Sevil Mikayılova mövzu ilə bağlı fikirlərini açıqlayıblar. Millət vəkilləri Azərbaycanda həyata keçirilən gender bərabərliyi siyasəti, qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması, CEDAW Konvensiyasına uyğun olaraq ölkəmizdə qadınlar üçün yaradılan imkanlar, onların bütün sahələrdə fəal iştirakı barədə söhbət açıblar.

***"Azərbaycan"***

# *Şeyxülislam:* "Rus Pravoslav kilsəsinin nümayəndələri ilə üçtərəfli görüşə hazırlıq müzakirə olunur"

Moskvada keçirilən Məhəmməd Peyğəmbərin hicrətinin 1400 illiyinə və Volqaboyu bulqarlarının İslamı qəbul etməsinin 1100 illiyinə həsr olunmuş "Ədalət və mötədillik - dünya nizamının ilahi prinsipləri" mövzusunda XVIII Beynəlxalq Müsəlman Forumunda iştirak edən Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Allahşükür Paşazadə Azərbaycan jurnalistlərinə müsahibə verib. Bütün Qafqazın şeyxi səfər çərçivəsində Moskvanın və bütün Rusiyanın patriarxı Kirillə görüşü və müzakirə olunan məsələlər barədə danışıb.

AZƏRTAC müsahibəni təqdim edir.



*- Şeyx həzrətləri, Rusiya paytaxtına səfəriniz çərçivəsində növbəti dəfə Moskvanın və bütün Rusiyanın patriarxı Kirillə görüşdünüz. Budəfəki görüşünüzdə hansı məsələlər müzakirə olundu?*

- Moskvaya səfərim çərçivəsində Moskvanın və bütün Rusiyanın patriarxı Kirillə görüşüm oldu. Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalından sonra təxminən 30 il ərzində biz mütəmadi görüşlər keçirmişik. Biz əsirlərin mübadiləsində, erməni tərəfinə meyitlərin verilməsi, bizim şəhidlərin meyitlərinin alınmasında müraciətlər etmişik. Rus Pravoslav kilsəsi bu istiqamətdə addımlar atıb. Azərbaycan, Rusiya və Ermənistan liderlərinin sonuncu Soçi sammitində üç ölkənin dini liderlərinin görüşü barədə qərar qəbul edilmişdi. Biz bu məsələni də müzakirə etdik. Görüşün təşkili, formatı, məzmunu, sülh müqaviləsinin imzalanması işinə dini liderlərin töhfəsi barədə danışdıq.

Bir saatdan çox davam edən söhbətimizdə biz erməni kilsəsinin bəzi bəyanatlarını şərh etdik. Mən Azərbaycan Prezidenti İlham Əliyevin mövqeyi, 2020-ci ilin noyabrından sonra terror aktı törətmək üçün torpaqlarımıza gəlmiş hərbçilərin hərbi əsir olmadıqlarını patriarx Kirillin diqqətinə çatdırdım. Bir adam insan ölümü üçün qəsd edərək bu torpağa gəlibsə, deməli, o, cəzasını çəkməlidir. Lakin əli qana bulaşmamış əsirlər var, məsələn, bu yaxınlarda cənab Prezident 17 nəfəri əfv edərək Ermənistana qaytarılmasına icazə verdi.

Bundan başqa, erməni tərəfinin, guya, kilsələrin mənşəyinin dəyişdirilməsi barədə iddiaları da müzakirə olundu. Biz patriarx Kirillin diqqətinə çatdırdıq ki, erməni tərəfinin dedikləri yalandır və azad olunmuş ərazilərdə məscidlər də, kilsələr də bərpa olunur. Dövlətimizin başçısı heç bir fərq qoymadan mədəni irsə eyni yanaşma sərgiləyir. Bu mədəni irsin hamısı Azərbaycan torpaqlarındadır.

Ermənilərin bizim məscidlərə münasibəti, vandalizm faktları, məscidlərimizdə donuz saxlamaları, Rus Pravoslav kilsəsinin dağıdılması faktlarını da patriarx Kirillin diqqətinə çatdırdım və o, bu məsələyə, əlbəttə, mənfi münasibətini bildirdi. Mən Kirill həzrətlərinə dedim ki, Ağdam tamamilə dağıdılıb, hətta ermənilər Rus Pravoslav kilsəsinin mənşəyini dəyişiblər. Orada Alban-Udi kilsələri var, onlar vaxtilə ermənilər tərəfindən zəbt olunub və indi həmin kilsələr də öz sahiblərinə qaytarılmalıdır, həmin kilsələr də təmir olunur.

Patriarx Kirillə söhbətimdə bu günlərdə Xankəndiyə Moskvadan yeni bir şəxsin gəlməsi, orada xalqı revanşizmə çağırması və erməni kilsəsinin rəhbərinin də bunu dəstəkləməsinin təəssüf doğurduğunu qeyd etdim. Erməni kilsəsinin rəhbərinin Xankəndiyə gedərək, oradakı hərbçiləri revanşizmə çağırmasının, "bizim mübarizəmiz bitməyib, hələ də davam edəcək" deməsinin düzgün addım olmadığını dedim. Biz istərdik ki, erməni kilsəsi sülhə çağırsın. Biz başda Qaregin olmaqla, erməni kilsəsini sülh məsələlərində bir olmağa, dövlət rəhbərlərimizin qəbul etdikləri qərarlara, sülh sazişlərinə, dövlətlərin dünya ictimaiyyəti, BMT tərəfindən tanınmış sərhədlərinə, ərazi bütövlüyünə hörmətlə yanaşmağa çağırırıq.

Qeyd edim ki, patriarx Kirillin Azərbaycana, dövlətimizin başçısına böyük ehtiramı var. Mən Prezidentimizin salamdualarını ona çatdırdım. O da xahiş etdi ki, Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya onun salamlarını çatdırım.

Qərara gəldik ki, gələcəkdə birgə işimizi davam etdirəcəyik. Ermənistan-Azərbaycan münaqişəsinin dini məcraya yönəlməməsi istiqamətində gördüyü işlərə görə patriarx Kirillə təşəkkürümüzü bildirdik.

*- Azərbaycan, Rusiya və Ermənistan liderlərinin Soçi görüşünün yekunlarına dair qəbul edilmiş bəyanatda dini liderlər arasında Rusiyanın köməyi ilə dialoqun davam etdirilməsi nəzərdə tutulmuşdu. Belə bir görüşün keçirilməsi müzakirə olunurmu?*

- Belə bir qərar qəbul olunub ki, həm bizim, həm də Rus Pravoslav kilsəsinin nümayəndələri görüşüb üçtərəfli görüşə hazırlıq məsələlərini müzakirə etsinlər. Patriarx Kirill də Ermənistan tərəfi ilə əlaqə saxlayacaq. Ermənistan tərəfi də öz fikirlərini deyəcək və ümumi rəyə gələcəyimiz təqdirdə bizim görüşümüz baş tutacaq. Bunu, əlbəttə, mən də istəyirəm, patriarx həzrətləri də istəyir. Əgər Ermənistan tərəfi bu görüşə razılıq verməsə, bu, onların revanşist xislətini nümayiş etdirəcək. Biz öz torpaqlarımızı azad etmişik, bu gün onların bizə ehtiyacı var və düşünürəm ki, onlar da razılıq verəcəklər.

*- Moskvada keçirilən konfransda siz Ermənistanda revanşizm ideyalarının səsləndiyini konfrans iştirakçılarının diqqətinə çatdırdınız. Ermənistandakı bu əhvali-ruhiyyə barədə nə deyə bilərsiniz?*

- Bu il biz 10 yüksəksəviyyəli beynəlxalq konfransda iştirak etmişik. Məsələn, ilin əvvəlində Müqəddəs Taxt-Tacın dəvəti ilə Vatikanda olduq, Papa Fransisklə görüşdük. Avropa Şurası baş katibinin müavini Byorn Berge, G20 ölkələri dini liderlərinin sammitində və digər tədbirlərdə Azərbaycanın mövqeyi, apardığı siyasət, öz torpaqlarını işğaldan azad etməsi, Ermənistanın 30 il işğal dövründə Azərbaycan ərazilərində törətdiyi vandalizm aktları, ərazilərimizin minalanması, erməni kilsəsinin revanşizmə çağırışları diqqətə çatdırılıb. Azad olunmuş ərazilərdə mədəni irsimizin dövlətimiz tərəfindən bərpa olunması, bütün dinlərin abidələrinə eyni şəkildə yanaşılması dünya ictimaiyyətinə çatdırılır. Bundan əlavə, biz türkdilli dövlətlərin din liderlərinin Şuşada toplantısını keçirdik və bəyanat qəbul etdik. Ona görə də, "Ədalət və mötədillik-dünya nizamının ilahi prinsipləri" mövzusunda Beynəlxalq Müsəlman Forumu kimi konfransın Moskvada keçirilməsi bu baxımdan vacib əhəmiyyət daşıyır. Bugünkü forumun iştirakçılarının əksəriyyəti dünyada sülhün, əmin-amanlığın, xalqlar arasında mehribanlığın bərqərar olmasını təbliğ edirdilər. Mən də çıxışımda Ermənistanın torpaqlarımızda törətdiyi vəhşiliklər, Azərbaycan dövlətinin gördüyü quruculuq işləri barədə danışdım. Ümid edirəm ki, forum da xalqlar arasında sülhə, barışığa öz töhfəsini verəcək. Belə bir tədbirin təşkilinə görə Rusiya dövlətinə və dini liderlərə təşəkkürümüzü bildiririk. Türkiyənin diyanət işləri başkanı Ali Erbaş cənablarının da bu forumda iştirakı, çıxışı bizi çox fərəhləndirdi.

*- Patriarx Kirillə görüşlərinizdən birində Moskvada azərbaycanlıların məscid tikməsi üçün torpaq sahəsi ayrılması məsələsini qaldırdığınızı bildirmişdiniz. Hazırda bu məsələ müzakirə olunurmu?*

- Mən çox arzu edirəm ki, Moskvada azərbaycanlıların öz məscidi olsun. Bu istiqamətdə də çox çalışdım. Rusiya Prezidentinə, həm Dmitri Medvedyevin dövründə, daha sonradan Vladimir Putinə müraciət elədim. Məscid üçün yer ayrılması ilə bağlı Moskva meri Sergey Sobyaninə də müraciətim olub. Çox istəyirəm ki, Rusiya dövləti bu məsələyə müsbət reaksiya versin. Biz istəyirdik ki, təkcə məscid deyil, ora azərbaycanlıların mədəniyyət mərkəzi kimi fəaliyyət göstərsin, orada bazar günü məktəbi açılsın. Bu məsələlər Patriarx Kirillə görüşlərdə də dəfələrlə qaldırılıb. Patriarx Kirillin bu məsələdə zəhməti çox olub. Lakin hələlik heç bir müsbət cavab almamışıq. Bunun üçün Moskvada yaşayan azərbaycanlıların birliyi olmalıdır. Üç dini icma birləşib məscid üçün müraciət etməlidir. Rusiya qanunvericiliyi bunu tələb edir. Söhbət qeydiyyatdan keçmiş dini icmalardan gedir. Təəssüflər olsun ki, bu birlik yoxdur. Bunun üçün Moskvadakı azərbaycanlıların üç dini icmasının birliyi olmalıdır. Onlar birlikdə məscid üçün yer ayrılması və məscid inşasına icazə verilməsi üçün müraciət edə bilərlər.

# *İqnazio KASSİS:* "İsveçrə vasitəçilik imkanlarını tərəflərə təklif edib"

İsveçrə hər iki tərəfə öz xidmətlərini təklif edib və tərəflər bundan istifadə ediblər. Bu kontekstdə hər iki ölkənin xarici işlər nazirləri oktyabrın 2-də Cenevrədə ikitərəfli fikir mübadiləsi aparıblar. Cenevrə ikitərəfli formatı bir ay sonra - noyabrın 7-də yenidən xarici işlər nazirləri səviyyəsində Vaşinqtonda davam etdirilib.

AZƏRTAC xəbər verir ki, bunu İsveçrə Konfederasiyasının Prezidenti İqnazio Kassis Kantonlar Şurasının (Senat) üzvü, İsveçrə-Ermənistan dostluq qrupunun həmsədri Karlo Sommaruqanın qərəzli bəyanatına cavab olaraq bildirib. Prezident bildirib ki, Ermənistan sözügedən yüksəkliklərin öz ərazisində yerləşdiyini iddia etsə də, Azərbaycan tərəfi həmin yerlərin iki ölkə arasında demarkasiya edilməmiş sərhəd boyunca yerləşdiyini söyləyir. Qeyd edilib ki, bu il sentyabrın 14-dən bəri kövrək atəşkəs qüvvədədir və İsveçrə öz narahatlığını müxtəlif formalarda - açıq, ikitərəfli və çoxtərəfli formatlarda dilə gətirib. İsveçrə tərəfləri 10 noyabr 2020-ci il üçtərəfli Bəyannaməyə və 14 sentyabr atəşkəsinə əməl etməyə çağırır və ümidvardır ki, danışıqlar yolu ilə davamlı həll yolu tapıla bilər.

Daha sonra İ.Kassis bildirib ki, İsveçrə sərhədlərin müəyyənləşdirilməsində bütün vasitəçilik imkanlarını tərəflərə təklif edir, çünki sərhədlərin müəyyənləşdirilməsi mübahisəli məsələlərin özəyini təşkil edir və bununla bağlı kifayət qədər aydınlıq mövcud deyil. Bundan başqa, İsveçrə beynəlxalq hüquqa yüksək səviyyədə hörmət edir və onu dəstəkləyir.

Qeyd edilməlidir ki, K.Sommaruqa bəyanatında Ermənistanın Azərbaycan tərəfindən təcavüzə uğradığını, bu xüsusda ölkəmizin Türkiyə ilə birgə hərəkət etdiyini bildirib və məsələ ilə bağlı İsveçrə Konqresinin üzvləri Stefan Müller-Altermatt və Mişel Matterin yaxın aylarda Ermənistana səfəri zamanı acınacaqlı vəziyyətin müşahidə edildiyini ifadə edib. Eləcə də "Migros" şirkətinin ortağı olan SOCAR-ın İsveçrədə qazanc əldə edərək müharibəni maliyyələşdirdiyini vurğulayaraq, İsveçrə və Avropa üçün fundamental dəyərlərin qaz və neftdən daha önəmli olmasını söyləyib və nəticə etibarilə Federal Şuranın məsələyə dair mövqeyinin formalaşmasının vacibliyini bildirib.

İ.Kassis isə bu sualın cavabında bildirib ki, Federal Şura İsveçrədə yerləşən şirkətlərdən insan hüquqlarına hörmət etmələrini, öz fəaliyyətlərini beynəlxalq səviyyədə tanınmış standartlar və təlimatlarla əlaqələndirmələrini və bununla da öz öhdəliklərini üzərinə götürmələrini gözləyir: "Biz bunu təkcə Ermənistan və ya Azərbaycanla əlaqəsi olan şirkətlərdən deyil, bütün şirkətlərdən gözləyirik. Bununla belə, qazanclarının necə istifadə olunacağına qərar verməkdə sərbəstdirlər. İsveçrədən xaricə kapital transferi yalnız qanunla nəzərdə tutulduğu halda məhdudlaşdırıla bilər".

# Beynəlxalq Korrupsiyaya Qarşı Mübarizə Gününə həsr olunmuş "dəyirmi masa"

Dekabrın 9-da Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Milli Məclis, Elm və Təhsil Nazirliyi, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti, Vəkillər Kollegiyası, Auditorlar Palatası, Medianın İnkişafı Agentliyi, Mətbuat Şurası, Sosial Tədqiqatlar Mərkəzi, habelə vətəndaş cəmiyyəti institutlarının nümayəndələrinin iştirakı ilə Beynəlxalq Korrupsiyaya Qarşı Mübarizə gününə həsr olunmuş "dəyirmi masa" keçirilib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, tədbirdə çıxış edən baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbov ölkəmizdə mövcud qəti siyasi iradəyə uyğun olaraq korrupsiyaya qarşı mübarizə sahəsində aparılan sistemli islahatların müsbət nəticələrindən bəhs edib. Habelə ötən dövrdə qəbul edilmiş dövlət proqramlarının səmərəli icrası nəticəsində qanunvericilik və institusional mexanizmlərin təkmilləşdirilməsi məsələlərinə də toxunan Baş İdarə rəisi görülmüş tədbirlər nəticəsində dövlət idarəçiliyində elektron xidmətlərin inkişaf etdirilməsi, vətəndaş-məmur münasibətlərində şəffaflığın artırılması, ixtisaslaşmış qurumların fəaliyyətinin daha da optimallaşdırılması barədə də geniş məlumat verib. Sonra "dəyirmi masa"da çıxış edən elm və təhsil nazirinin müavini Firudin Qurbanov, Milli Məclisin deputatı Kamal Cəfərov, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın katibi Ramin Vəlizadə və digər çıxışçılar tərəfindən korrupsiyaya qarşı mübarizənin müxtəlif aspektlərinə toxunulmaqla bu sahədə təmsil etdikləri qurumların rolu və müsbət təcrübələri barədə təqdimatlar edilib, qeyd olunan mövzu ətrafında bir sıra səmərəli təkliflər səsləndirilib.

# Qalibiyyət yürüşü

## İlham Əliyevin iki il öncə keçirdiyi Zəfər paradı böyük Qələbənin nidası, məğlub Ermənistanın isə rəzilliyinin dünyaya nümayişi oldu



*Əvvəli 1-ci səh.*

Əminliklə deyə bilərik ki, Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı Vətən müharibəsinin gedişində daha da möhkəmləndi, daha sarsılmaz oldu. Bütün dünya bir daha Azərbaycan-Türkiyə dostluğunun və qardaşlığının şahidi oldu.

Prezident İlham Əliyev paradda çıxışı zamanı bu qardaşlığı belə qiymətləndirdi: "Bu, birliyimizin, qardaşlığımızın təzahürüdür. Türkiyənin Azərbaycana verdiyi siyasi və mənəvi dəstək hər bir Azərbaycan vətəndaşını qürurlandırır, sevindirir. Bu gün biz birlikdə Zəfər paradında iştirak edərkən bir daha bizim birliyimizi həm xalqlarımıza, eyni zamanda bütün dünyaya göstəririk".

Qardaş ölkənin Prezidenti Rəcəb Tayyib Ərdoğan isə açıq şəkildə bəyan etdi ki, bu, qardaşlıq nümunəsidir, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin "Bir millət, iki dövlət" və Türkiyənin qurucusu Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" müdrik kəlamlarının təzahürüdür. Rəcəb Tayyib Ərdoğanın Zəfər paradında iştirak etməsi, möhtəşəm çıxışı, sözün hər bir mənasında, təmənnasız qardaşlığın təntənəsi idi. İnanırıq ki, bu sarsılmaz dostluq və qardaşlıq münasibəti daimi olacaq və gələcək nəsillər tərəfindən də uğurla davam etdiriləcək.

Türkiyə hərbçilərinin paraddakı keçidi həm də düşmənə verilən növbəti mesaj oldu. Eyni zamanda bütün dünya bir daha gördü ki, Azərbaycan və Türkiyə bundan sonra da bütün məsələlərdə bir-birinin yanında olacaqlar. Bütün bu fəxarətli anlar xalqımızı dərindən qürurlandırdı.

### Zəfər paradı - qürur, şərəf və ləyaqət simvolu

Zəfər paradı təkcə ölkəmizin düşmən üzərindəki qələbəsinin təntənəsi deyildi. Bu, həm də bölgədə erməni faşizminin məhv edilməsinin nümayişi idi.

Bu günü düz, 30 il gözlədik. 30 ildə çox acılar çəkdik, faciələr, məşəqqətlər gördük. Müstəqilliyimizi belə əlimizdən almaq istədilər. Amma bacarmadılar. Azərbaycan illərlə ikili standartlara, təzyiqlərə məruz qalsa da, ayaqda durmağı bacardı. Ona görə bacardı ki, qətiyyətli, prinsipial rəhbəri, xalqın sözünü deyən, güvəndiyi Lideri, Müzəffər Ali Baş Komandanı vardır...

Düzdür, 10 dekabr tarixinə qədər Azadlıq meydanında hərbi paradlar keçirilmişdi. Ancaq həmin paradlarda nümayiş olunan hərbi texnikalarımıza baxıb xəyal qururduq, arzu edirdik ki, kaş, bu texnikalar bir gün savaş meydanına yürüsün, Qarabağımız işğaldan azad edilsin. O günü də görmək bizlərə nəsib oldu. Bakının baş meydanında keçirilən Zəfər paradı ordumuzun qüdrətini, Azərbaycan-Türkiyə qardaşlığını, Ermənistanın rəzilliyini dünyaya nümayiş etdirdi. 30 il müddətində ordusu haqqında "miflər" yaradan, "keçilməz sədləri" ilə öyünən bir ölkənin silahlı birləşmələri, "dağılmaz-keçilməz" sədləri 44 günə Azərbaycan Ordusu tərəfindən darmadağın edildi. Zəfər paradı azərbaycanlılar üçün qürur, şərəf, ləyaqət simvolu oldu, ermənilər üçün isə məğlubiyyət, rəzillik kimi yaddaşlarda qaldı.

### Regionun modern silahlı qüvvəsi

Zəfər paradından Azərbaycan Silahlı Qüvvələrinin tərkibindəki bütün hərbi strukturların, ayrı-ayrı qoşun növlərinin, hərbi birliklərin bölmələri, hərbi-tədris müəssisələrinin kursantları keçdilər. 44 günlük müharibədə qələbənin əldə olunmasında hərbi strukturların hər birinin böyük xidməti vardı.

Müdafiə Nazirliyini, Dövlət Sərhəd Xidmətini, Daxili İşlər Nazirliyini təmsil edən qoşunlarımız bu müharibədə qarşılarında duran vəzifələri layiqincə icra etdilər. Dövlət Təhlükəsizliyi Xidmətinin, Xarici Kəşfiyyat Xidmətinin bölmələri öz vəzifələrini uğurla yerinə yetirərək Qələbəyə töhfələrini verdilər. Təsadüfi deyil ki, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən onların hər birinin əməkdaşları yüksək orden və medallarla təltif olundular.

Azərbaycan Silahlı Qüvvələrinin qələbəsini bəyan etməklə yanaşı, bu parad həm də ordumuzun gücünün, qüdrətinin nümayişi idi. Hərbi paradda nümayiş etdirilən ən müasir hərbi texnika, o cümlədən raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, təyyarələr, hərbi gəmilər Azərbaycan dövlətinin qüdrətini nümayiş etdirməklə yanaşı, həm də onu göstərdi ki, bundan sonra heç kəs bir daha Azərbaycanla güc və təzyiq dili ilə danışa bilməz. Hər kəs bildi ki, Azərbaycanın rəşadətli Ordusu, peşəkar əsgər və zabitləri, xalqın arxalandığı, güvəndiyi Ali Baş Komandanı var.

Bu gün xalqımız Zəfər paradının ikinci ildönümünü böyük qürur hissi ilə qeyd edir. Müasir tariximizə qızıl hərflərlə yazılan bu misilsiz hərbi nailiyyət haqqında hələ neçə illər sonra da iftixarla danışılacaq, yazılacaq və bu unudulmaz müjdə gələcək nəsillərə ərməğan kimi ötürüləcək.

Ümumiyyətlə, hərbi parad dövlətin gücünü və vətəndaşların qürurunu nümayiş etdirən bir tədbirdir, xüsusilə də Zəfər paradı. Azərbaycan üçün bu, sadəcə, müharibədə qazanılan Qələbə deyil, həm də həqiqətin, ədalətin qələbəsidir.

Zəfər paradı digər tərəfdən Ermənistana və onun havadarlarına mesaj oldu.

Prezident İlham Əliyevin dediyi kimi, bundan sonra əgər erməni faşizmi bir daha baş qaldırsa, nəticə eyni olacaq. Yenə Azərbaycanın "dəmir yumruğ"u onların belini qıracaq. Əgər məğlub ölkə sülh müqaviləsini imzalamaqdan imtina edib Azərbaycan torpaqlarında təxribatlar törətməkdə davam edəcəksə, əlində olan-qalan texnikası da məhv edilərək qələbənin simvolu olan Qənimətlər Parkında dünyaya nümayiş etdiriləcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Ermənistan silahlı bölmələri DSX-nin Zəngilandakı mövqelərini atəşə tutublar

Dekabrın 8-də saat 21:00 radələrində Azərbaycan-Ermənistan dövlət sərhədinin Zəngilan rayonu ərazisindən keçən hissəsində, Ermənistan silahlı qüvvələrinin bölmələri, Qafan rayonunun Nerkin-And və Tsav yaşayış məntəqələri istiqamətində yerləşən mövqelərindən Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının Zəngilan rayonunun Kolluqışlaq və Rəzdərə yaşayış məntəqələri istiqamətində yerləşən mövqelərini iri çaplı silahlardan fasiləsiz olaraq atəşə tutublar.

Qurumun Mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, görülmüş cavab tədbirləri nəticəsində düşmənin atəş nöqtələri susdurulmuşdur. Əməliyyat şəraiti bölmələrimizin tam nəzarətindədir.

Dövlət Sərhəd Xidməti bu hadisəni Ermənistan tərəfinin növbəti təxribatı kimi dəyərləndirir.

## 10 Dekabr Beynəlxalq İnsan Hüquqları Günüdür

# İlham Əliyev Vətən müharibəsində qazandığımız qələbə ilə bir milyon məcburi köçkünün pozulmuş hüquqlarını da bərpa etdi

Müasir dövrdə insan hüquq və azadlıqları sahəsində qazanılan nailiyyətlər dövlətlərin ümumi inkişaf səviyyəsini, iqtisadi-siyasi potensialını müəyyənləşdirən başlıca amillərdən biridir. İndi bütün sivil cəmiyyətlərdə insan haqlarının təminatına və ümumbəşəri humanist dəyərlərin bərqərar olmasına, eləcə də bu sahə üzrə ixtisaslaşan demokratik institutların fəaliyyətinə xüsusi qayğı ilə yanaşılır.

Demokratik cəmiyyətlərdə beynəlxalq və dövlətdaxili hüquqda ən mühüm aktual məsələlərdən biri də insan hüquq və azadlıqlarının qorunmasıdır. İnsan hüquqları ilə əlaqədar məsələlərin bilavasitə beynəlxalq hüquq çərçivəsində öyrənilməsinin özü bu probleme bəşəriyyətin necə diqqətlə yanaşmasının təzahürüdür. İnsan hüquq və azadlıqları sahəsində kifayət qədər beynəlxalq sənədlər sisteminin yaradılması bunu bir daha sübut edir.

### İnsanların hüquq və azadlıqları toxunulmazdır

İnsanların yaşamaq, işləmək, təhsil almaq, ailə qurmaq, sağlam olmaq və digər hüquqları var. Bunlar ədalət, bərabərlik, ləyaqət, hörmət və müstəqillik kimi ortaq dəyərlərə əsaslanır. Həmin dəyərlər isə qanunla müəyyən edilir və qorunur.

Bu il Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin qəbul olunmasından 74 il ötür. 1948-ci il dekabrın 10-da BMT-nin Baş Məclisi tərəfindən "İnsan hüquqları haqqında ümumi bəyannamə" qəbul edilib. 1950-ci ildən başlayaraq isə hər il dekabr ayının 10-da bütün dünyada Beynəlxalq İnsan Hüquqları Günü qeyd olunur. Avropada əsas insan hüquq və azadlıqlarının qorunması üçün Azərbaycan Respublikasının da qoşulduğu 4 noyabr 1950-ci il tarixli Avropa İnsan Hüquqları Konvensiyası mövcuddur. Bu konvensiyanın beynəlxalq müqavilələrdən başlıca fərqi ondan ibarətdir ki, Avropada bu sənədə əsaslanan və eyni zamanda real işləmə mexanizminə malik əsas insan hüquq və azadlıqlarını qoruyan Avropa İnsan Hüquqları Məhkəməsi fəaliyyət göstərir.

Ötən dövr ərzində Azərbaycanda insan hüquqlarının müdafiəsi istiqamətində bir sıra addımlar atılmışdır. Belə ki, ölkəmiz bir tərəfdən insan hüquqları sahəsində qəbul edilmiş mühüm beynəlxalq müqavilələrə qoşulmuş, digər tərəfdən isə bu sahədə beynəlxalq standartlara uyğun öz milli qanunvericiliyini yaratmışdır. Bu istiqamətin özü respublikamızın beynəlxalq təşkilatlarda apardığı fəaliyyətlə sıx bağlıdır və son nəticədə o, milli qanunvericiliyin daha da təkmilləşdirilməsinə gətirib çıxarmışdır. Hələ 1991-ci il oktyabrın 18-də qəbul edilən "Dövlət müstəqilliyi haqqında" Aktın 19-cu maddəsində Azərbaycan Respublikası "Ümumdünya İnsan Hüquqları Bəyannaməsi"ni tanıdığını rəsmən elan etmişdir. Bu, sonradan 12 noyabr 1995-ci il tarixli ümumxalq səsverməsi ilə qəbul edilmiş və 24 avqust 2002-ci ildə yenidən referendum vasitəsi ilə dəyişikliklər aparılmış Azərbaycan Respublikası Konstitusiyasmda daha da inkişaf etdirilmişdir. Belə ki, Konstitusiyamızın 148-ci maddəsinin 2-ci hissəsində ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrin Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsi olması bəyan edilmişdir.

### İnsan hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədidir

1995-ci il Konstitusiyamızda öz əksini tapmış beynəlxalq hüquq normalarının, aktların, dövlət proqramlarının qəbul edilməsi və həyata keçirilməsində Ümummilli Lider Heydər Əliyevin əvəzsiz xidmətləri olmuşdur. Onun 22 fevral 1998-ci il tarixli "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərmanı buna bariz nümunədir. Bu fərmanda respublikada həyata keçirilən hüquqi islahatların ən mühüm mərhələlərindən biri ombudsman təsisatının yaradılması olmuşdur. BMT və Azərbaycan hökuməti arasında 1998-ci ilin avqustunda "İnsan hüquqları və demokratiyanın dəstəklənməsi sahəsində birgə layihə haqqında" memorandum imzalanmışdır.

Bu gün insan hüquq və azadlıqlarının müdafiəsi Azərbaycan Prezidentinin həyata keçirdiyi siyasətin əsasını təşkil edir. Cənab İlham Əliyevin imzaladığı sərəncamlar, təsdiqlədiyi dövlət proqramları onun humanizm prinsiplərinə sadiqliyinin bariz nümunəsidir. Digər tərəfdən bu sahədə həyata keçirilən tədbirlərin səmərəliliyi daha da artıb. Prezident İlham Əliyevin 2006-cı il 28 dekabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı"na müvafiq olaraq, BMT-nin "Minilliyin İnkişaf Məqsədləri"nin təbliği və həyata keçirilməsi üçün Azərbaycan Respublikasının müvafiq dövlət qurumları tərəfindən BMT-nin İnsan Hüquqları Şurası ilə əməkdaşlıq əlaqələri yaradılıb. Bu fəaliyyət planı qarşıya çox ciddi vəzifələr qoyub.

### Ölkə vətəndaşlarının hüquq və azadlıqları tam gücü ilə qorunur

Azərbaycanda insanların azad və təhlükəsiz yaşaması, müstəqilliyimizin möhkəmləndirilməsi istiqamətində çox ciddi tədbirlər həyata keçirilir. Vətəndaşların hüquq və azadlıqları tam gücüylə qorunur. Azərbaycan Prezidenti 44 günlük Vətən müharibəsində qazandığımız qələbə ilə həm də ərazi bütövlüyümüzü, qaçqınların və məcburi köçkünlərin pozulmuş hüquqlarını bərpa etdi. Bu, haqqın nahaq üzərində qələbəsi idi. 30 ilə yaxın müddət ərzində pozulan, tapdanan, göz yumulan ədalətin, insan haqlarının öz yerini tutması idi. Bir gün haqsızlıqların aradan qalxacağına, işğalçıların, zalımların, Xocalı cəlladlarının layiq olduqları cəzanı alacaqlarına heç zaman səngiməyən, öləziməyən ümidin göyərib, boy göstərməsi idi. Bu qələbə özümüzə qaytarılmış milli qürurumuzdur. Gələcəklə bağlı qurulan yeni xəyallarımızdır. Milli birliyimizin gücüdür. Bu güclə bütün hədəflərə çata biləcəyimizə sarsılmaz inamımızdır.

Tarixə nəzər salsaq görərik ki, Azərbaycan ilk gündən sülhsevər siyasət apararaq əvvəlcə atəşkəsə nail oldu, regionda sabitliyin, əmin-amanlığın təmin edilməsi istiqamətində beynəlxalq təşkilatların xətti ilə ardıcıl və məqsədyönlü iş apardı. Ölkə Prezidenti milli əsaslar zəminində dövlətimizin maraqlarını daim müdafiə edərək yüksək siyasi tribunalardan xalqımızın haqq sözünü dünyaya çatdırdı. Lakin Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti, təxribatları ara vermədi. Davam edən silahlı təcavüz nəticəsində torpaqlarımızın 20 faizi işğal olundu, 1 milyondan çox soydaşımız adi insan hüquqlarından məhrum edildi. Haqq - ədalət, insan hüquqları pozuldu. Bununla da son bir neçə illik tariximiz daha çox torpaqlarımızın hissə-hissə qoparılması, xalqımıza qarşı törədilən soyqırımlar, itkilər, inkişafımıza mane olmaqdan ötrü böyük güclərin qarşımıza qoyduqları problemlər və başqa bu kimi kədərli reallıqlarla xarakterik idi. Azərbaycan da növbəti hərbi təxribatları dəf edərək düşmən üzərinə əks-hücuma keçməklə Vətən müharibəsinə başlamaq məcburiyyətində qaldı. Azərbaycan Prezidenti İlham Əliyev bütün reallıqları dəyişdi. İki əsrdə yoluna qoyulması mümkün olmayan münaqişəni "dəmir yumruğ"un zərbəsi ilə cəmi 44 günün içində həll etdi. BMT tarixində bu, bəlkə də, ilk hal idi ki, belə bir mötəbər beynəlxalq qurumun qətnamələrini işğala məruz qalan tərəf özü hərbi yolla icra etdi. Ölkəmizin, insanlarımızın pozulmuş hüquqları bərpa olundu.

Prezident İlham Əliyev pandemiya dövründə də beynəlxalq hüququ və ədaləti müdafiə edib. Peyvəndlərin ədalətsiz bölgüsünə qarşı çıxıb, bütün ölkələri həmrəyliyə çağırıb, qlobal bəlaya qarşı mübarizədə səylərin birləşdirilməsini, hansısa birtərəfli addımların atılmamasını, zəngin ölkələrin məsuliyyət göstərməsini, peyvəndin bütün ölkələrin xalqlarına çatmasının vacibliyini qeyd edib və açıq şəkildə iradlarını bildirib. Bu, qlobal miqyasda haqqın, ədalətin, insan hüquqlarının ölkə rəhbərimiz tərəfindən müdafiəsi idi.

Bununla da insan hüquqları müxtəlif iqtisadi və siyasi sistemlərin, ideologiyalarm və mədəniyyətlərin mövcud olduğu müasir dünyada cəmiyyətləri bir araya gətirən, onlarda humanist dəyərlər aşılayan əsas meyarlar sırasında özünə möhkəm yer tutub. Həmin meyarlar tam istisnasız olaraq daim hamının birmənalı qəbul etdiyi əvəzsiz nailiyyətlər sayıla bilər.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Bakıda Beynəlxalq İnsan Hüquqları Günü qeyd edildi

Dekabrın 9-da Bakıda Beynəlxalq İnsan Hüquqları Gününə həsr edilmiş tədbir keçirilib.




AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən BMT-nin rezident-əlaqələndiricisi Guido Ambroso 1948-ci ildə BMT Baş Məclisi tərəfindən İnsan Hüquqları üzrə Ümumi Bəyannamənin qəbulu və dövlətlərin ona əməl etməsi sayəsində milyonlarla insanın hüquqları qorunub saxlanıldığını və daha layiqli dünyanın formalaşdığını bildirib.

Qarşıda duran hədəflərdən bəhs edən G.Ambroso vurğulayıb: "İnsan hüquqlarının universallığını bərpa etməli, gəncləri ilhamlandıran yeni yollar tapmalıyıq. Bəşəriyyətin dəyərləri yaddan çıxarsa, biz daha böyük problemlərlə üzləşə bilərik. Bəyannamə hər hansı bir çətinlik olmadan hər kəsi daha inklüziv dünyaya addımlamağa sövq edir. Çünki o, fərqli fərdləri bir araya gətirərək bütün bəşəriyyət üçün eyniliyi təşviq və təbliğ edir".

Azərbaycan ombudsmanı Səbinə Əliyeva tədbirdə çıxış edərək deyib ki, bütün insanların bərabərliyini təmin edən İnsan Hüquqları üzrə Ümumi Bəyannamə BMT-yə üzv olan ölkələr üçün mühüm sənəddir. Ümumdünya insan hüquqlarının bəyan etdiyi əsas prinsiplər bir çox konvensiyalarda özünə yer tapıb və dövlətlər üçün icrası mütləq sənəd rolunu alıb. Bu sənəd ilk dəfə olaraq hər bir insanın bərabər hüququnu müəyyən etdi, dövlətlərin insan hüquqları sahəsində mövqeyini dəyişdi.

Onun sözlərinə görə, bəzi dövlətlər tərəfindən insanlara qarşı irqi, milli, dini, cinsi, siyasi, sosial mənsubiyyətə və digər əlamətlərə görə sərgilənən ayrı-seçkilik insan hüquqlarının pozulmasına səbəb olmaqdadır. Dözümsüzlük və ikili standartlardan əziyyət çəkən xalqlardan birinin də Azərbaycan xalqı olduğunu deyən ombudsman bildirib: "Erməni silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən qeyd-şərtsiz və dərhal çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurası və digər beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş qətnamələrin icrası 30 ilə yaxın müddətdə yalnız sənəd üzərində qaldı. Ermənistan isə tətbiq edilən ikili standartlardan istifadə edərək Azərbaycana qarşı insan hüquqları cinayətləri törətdi. Bu gün qürur hissi ilə deyirik ki, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu ölkəmizin ərazi bütövlüyünü və məcburi köçkünlərin pozulmuş hüquqlarını bərpa etdi".

Ombudsman Azərbaycanda insan hüquqları və azadlıqlarının yüksək səviyyədə təmin edildiyini, bu istiqamətdə hüquqi bazanın daim təkmilləşdirildiyini də diqqətə çatdırıb.

Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin dekanı Zaur Əliyev bildirib ki, Azərbaycanda insan hüquqları sahəsində ilk dövlət proqramının məhz xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən təsdiqləndiyini qeyd edib.

Tədbirdə Ümumdünya İnsan Hüquqları Bəyannaməsi-75 kampaniyasına dair videotəqdimatlar, BMT-nin Baş katibinin və qurumun İnsan Hüquqları üzrə Ali Komissarının mesajları nümayiş etdirilib. Sonra bir sıra digər təqdimatlar olub.

Sonda insan hüquqları sahəsində ən yaxşı məqalə və rəsm əsəri müsabiqələrinin qalibləri mükafatlandırılıb.

# Uqanda Azərbaycanın Qoşulmama Hərəkatına sədrlik təcrübəsini öyrənir

Uqanda Respublikasının BMT yanında daimi nümayəndəsi və Uqanda Xarici İşlər Nazirliyinin yüksəksəviyyəli rəsmilərindən ibarət nümayəndə heyəti Azərbaycan Respublikasının Qoşulmama Hərəkatına sədrlik təcrübəsini öyrənmək məqsədilə ölkəmizdə səfərdə olub.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Bildirilib ki, səfər çərçivəsində baş tutan görüşlərdə 2023-cü ilin dekabr ayında Uqandanın Kampala şəhərində keçirilməsi nəzərdə tutulan Qoşulmama Hərəkatının 19-cu Zirvə Görüşünə hazırlıq məsələləri və hərəkata sədrliyin səmərəli təşkili ilə bağlı Azərbaycanın müsbət təcrübəsi müzakirə edilib.

Həmçinin Azərbaycan Respublikası Milli Məclisinin Aparatının rəhbərliyi tərəfindən qəbul edilən Uqanda nümayəndə heyətinə Qoşulmama Hərəkatının Parlamentlər Şəbəkəsinin fəaliyyəti barədə məlumat verilib. Daha sonra nümayəndə heyəti Qoşulmama Hərəkatının Gənclər Təşkilatının rəhbərliyi və təşkilatın Azərbaycan bölməsinin nümayəndələri ilə görüş keçirərək hərəkatın gələcək fəaliyyətində gənclərin rolu mövzusunda fikir mübadiləsi aparıb.

# Riyakar siyasət, sistemli təxribatlar, antiazərbaycançı mövqe və islami dəyərlərə hörmətsizlik - İranın əsl mahiyyəti

## İranın eyforiyası

### Bu ölkənin molla rejimi təxribat cəhdləri ilə özünü ifşa edir

İranın molla rejimi Xameneyiçilik dini-siyasi cərəyanını formalaşdırıb. Bu cərəyan İranın terror əməllərini din pərdəsi adı altında daha rahat həyata keçirməsinə xidmət edir, Xameneyinin biznes maraqlarını birbaşa dəstəkləyir.





İkinci Qarabağ müharibəsində Azərbaycanın şanlı zəfəri isə İranın ölkəmizə qarşı aqressiyasını tam ortaya çıxarıb. Tehran Azərbaycanın Qarabağ münaqişəsini həll etməsi ilə razılaşa bilmir. Ona görə də İran Azərbaycan və Ermənistan arasında sülh şəraitinin yaradılmasını əngəlləməyə çalışır, Zəngəzur dəhlizinin açılmasına mane olmaq üçün müxtəlif cəhdlər göstərir. Xüsusilə son dövrlərdə İran ölkəmizə qarşı məqsədyönlü və açıq təxribatlarını davam etdirir.

Nəzərə almaq lazımdır ki, İranın terrorçu mahiyyəti dünyanın əksər dövlətləri və təşkilatları tərəfindən bilinir. Təsadüfi deyil ki, Tehran zaman-zaman məhz terrorçu qruplaşmalar yetişdirdiyinə və diversantlara hər cür dəstək verdiyinə görə sanksiyalara məruz qalıb. İranın İslam dini adından sui-istifadə edərək öz terror əməllərini reallaşdırmaq cəhdləri, Xankəndiyə terrorçu diversantlar göndərməsi narahatlıq doğursa da, ciddi əhəmiyyət kəsb etmir. Çünki Azərbaycan dövləti istənilən terror-təxribat əməllərinin qarşısını almağa qadirdir.

#### İran və Ermənistanın terror qruplaşmaları birgə fəaliyyət göstərirlər

Milli Məclisin deputatı Asim Mollazadə qeyd edib ki, İranın Azərbaycana qarşı riyakar siyasətinin əsasında molla rejiminin terrorçu mahiyyəti dayanır: "Haqq-ədalətə, insanlığa qarşı yönəlmiş bu rejim İranda xalqların üsyanına səbəb olub. Rəsmi Tehran hər zaman İslam həmrəyliyindən ağızdolusu danışsa da, özünü "müsəlman təəssübkeşi" adlandırsa da, onun əməlləri ilə sözləri ziddiyyət təşkil edir. İran artıq uzun illərdir ki, terroru dəstəkləyir və bu baxımdan özünə bənzəyən dövlətlərlə, o cümlədən Ermənistanla ortaq hərəkət edir. Birmənalı olaraq bu gün İranla Ermənistanı onların riyakarlığı və terror fəaliyyəti birləşdirir. İran təkcə Azərbaycan ərazilərində deyil, bir sıra Yaxın və Orta Şərq ölkələrində də erməni terror qruplaşmaları ilə birgə fəaliyyət göstərir. Elə bu yaxınlarda İran Ermənistana yeni rakterlər hədiyyə edib. Ermənistan isə bu raketləri məsum insanlara qarşı istifadə etmək, uşaqların, qadınların qətlini törətmək niyyətindədir. Bu gün onlar, guya, İran-Ermənistan münasibətlərini "bir millət, iki dövlət" düsturuna əsasən qurublar, lakin mən deyərdim ki, buna müəyyən dəyişiklik etmək lazımdır. Fikrimcə, bu iki riyakar dövlətin münasibəti "bir terror, iki dövlət" düsturuna daha çox uyğun gəlir".

Deputat bildirib ki, daxili işlərimizə qarışmağa cəhd göstərən və ölkəmizdə süni problemlər yaratmaq istəyən İrana adekvat cavablar gecikmir: "Onların təxribat xrakterli əməlləri, din pərdəsi adı altında respublikamızın müxtəlif bölgələrində dünyəvi dövlətçilik əleyhinə həyata keçirdikləri işlər hüquq-mühafizə orqanları tərəfindən aşkar edilir. İran Azərbaycanın İkinci Qarabağ müharibəsindəki şanlı qələbəsini qəbul edə bilmir, Ermənistanla münasibətlərimizin normallaşmasını açıq-aşkar əngəlləməyə çalışır. Həmçinin Zəngəzur dəhlizinin açılmasına mane olmaq üçün əlindən gələni əsirgəmir. Bu bir daha göstərir ki, İran həmişə olduğu kimi, yenə də eyforiyaya qapılıb və düzgün daxili və xarici siyasət yürütmək iqtidarında deyil".

#### İran yalnız terror əməlləri ilə gündəmə gəlir

Milli Məclisin deputatı Elman Məmmədov deyib ki, İran adlanan dövlət İslam dininin dəyərlərinə uyğun davranışlar sərgiləmir: "Bu dövlət daim terror əməlləri ilə gündəmə gəlir, müxtəlif ölkələrdə münaqişələrin əsas iştirakçısı kimi xatırlanır. Bu dövlət sanki İslam dini əleyhinə fəaliyyətlə məşğul olan hansısa qruplaşma təsiri bağışlayır. Özünü "İslam dövləti", "müsəlman təəssübkeşi" adlandıran bir dövlət bu dinə aid dəyərləri heçə sayan, məscidləri murdarlayan, əlini məsum insanların qanına bulaşdıran Ermənistanla dostluq və qardaşlıq edirsə, deməli, onun İslam dini ilə heç bir əlaqəsi yoxdur".

Deputatın sözlərinə görə, Avropanın enerji təhlükəsizliyində mühüm aktora çevrilmiş, Cənubi Qafqazın lider ölkəsi olan Azərbaycanın nüfuzunun belə sürətlə artmasını İran həzm edə bilmir. Dildə "mehriban dostluq" münasibətlərindən danışsa da, əməldə bunun əksini göstərir. O qeyd edib ki, rəsmi Tehran Azərbaycanla sərhəddə hərbi təlimlər keçirir, Qarabağa diversantlar göndərir, ölkəmizdə süni etirazlar yaratmaq üçün din adı altında gəncləri ələ almağa çalışır və daha nələr edir.

İran rəhbərləri işğalçı, terrorçu və separatçı dəstələrlə əməkdaşlıq edir, müsəlmanlara qarşı soyqırımları törətmiş bir dövlətin başçısı ilə öpüşüb-görüşürlər. İran həm də ona görə narahatdır ki, Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsi onun narkoticarət yolunu bağlayıb. Çox güman ki, ötən müddətdə Ermənistan bizim ərazilərimizdə narkotik maddələri elə məhz İranla birgə əkib-becərib, birlikdə də alver ediblər. Lakin torpaqlarımızda belə cinayətkar əməllərin törədilməsi artıq geridə qaldı. Bu gün qüdrətli orduya, sadiq və strateji dostlara sahib və bütün dövrlərdə humanitar xarakterli qlobal təşəbbüslərlə çıxış edən Azərbaycanla təhdid dilində danışmaq faydasızdır. Unutmaq olmaz ki, dövlətimiz bütün təxribatların qarşısını almağa, terrorçulara lazımi şəkildə cavab verməyə qadirdir", - deyə deputat bildirib.

E.Məmmədov deyib ki, ötən 30 il ərzində ermənilərin Qarabağda törətdikləri xain əməllərə göz yuman İran 44 günlük Vətən müharibəsində də Azərbaycana qarşı riyakar münasibətini büruzə verdi: "Müharibə zamanı İranın Ermənistanı silahlandırması, hərbi sirlərimizi düşmənə ötürməsi də onun bizə düşmənçiliyindən xəbər verirdi. İndi isə aradan pərdələri götürülüb, açıq düşmənçilik oyunu gedir. İran ölkəmizə qarşı həm iqtisadi və siyasi, həm ideoloji, həm də hərbi sahədə riyakarlıq nümayiş etdirir. Lakin İran unutmamalıdır ki, orada 40 milyona yaxın azərbaycanlı, eləcə də vaxtilə əsarət altına alınmış müxtəlif xalqların nümayəndələri yaşayırlar. Sözsüz ki, İranda yaşayan azərbaycanlılar, eləcə də digər millətlər azadlıq istəyirlər".

Deputat həmçinin qeyd edib ki, Prezident İlham Əliyev də bizim İranda yaşayan azərbaycanlıların taleyinə biganə olmadığımızı, onların hüquqlarının müdafiəsi üçün lazımi kömək göstərdiyimizi dəfələrlə vurğulayıb. Elman Məmmədov deyib: "İran düşmənçiliyə, riyakarlığa və bizə qarşı yaramaz davranışlara elə özü başladığına görə bundan inciməməlidir. İranın ənənəvi riyakar hərəkətləri, əlbəttə ki, cəzasız qalmamalıdır. Şükürlər olsun ki, biz meydanda tək deyilik, yanımızda qardaş Türkiyə, digər sadiq tərəfdaşlarımız və dostlarımız var".

*Nəzrin QARDAŞXANOVA, "Azərbaycan"*



## Din pərdəsinə bürünən şər və terror

### Azərbaycana düşmənçilik "mollalar"ın dağılması labüd olan rejimini daha sürətlə uçuruma aparır

Son iki ildə, konkret olaraq Azərbaycan Vətən müharibəsində Ermənistan üzərində qələbə qazandıqdan sonra ölkəmizin pərdə arxasında fəaliyyət göstərən gizli düşmənləri də aşkara çıxdılar. Torpaqlarımızın 30 il ərzində işğalda olduğu ərəfədə əl altdan Ermənistana hər cür yardım və kömək göstərən İran isə bu "gizli" düşmənlərin başında gəlir. Bu ölkə hər addımda Azərbaycana olan kin və nifrətini, ermənipərəst mövqeyini açıq müstəvidə nümayiş etdirməyə, ölkəmizə qarşı güc sərgiləməyə, hədə-qorxu gəlməyə başlayıb.



#### Azərbaycana qarşı riyakar davranış

İranın Azərbaycana qarşı xain əməlləri qüdrətli Azərbaycan dövlətinə heç bir halda təsir etmir, əksinə, fars rejimi bədnamlığının qarşılığını lazımınca alır. O da reallıqdır ki, onilliklərdir İslam bayrağı arxasında daldalanaraq müsəlman adına yaraşmayan davranışlar göstərən "molla"lar bölgədə söz sahibi olan Azərbaycana qarşı bu mənfur əməlləri ilə onsuz da dağılması labüd olan rejimlərini daha sürətlə uçuruma sürükləyirlər.

Amma bu həm də fars rejiminin iradəsi xilafında, İlahi ədalətin təcəllisi fonunda, eləcə də Azərbaycanın 44 gündə qazandığı parlaq Zəfərin sayəsində zamanın və məkanın tələbi ilə baş verir.

Buna görə də tarixi qonşumuz İran əl-ayağa düşməyə vadar olub. İki yüz ildir ki, miyonlarla soydaşımızın haqq və hüquqlarını tapdalayan İran artıq bu xəbis əməlləri ilə cənubi azərbaycanlıların azadlıq səslərini boğa bimәyəcəyini, onların "dəmir yumruq" kimi sarsılmaz dayaqları olduğunu görür və bilir.

Bəli, indi dünyanın gərdişi xeyrin şərə, Hörmüzdün Əhrimənə qalib gəlməsinə doğru dövr edir.

Müsəlman ölkəsi adı altında maskalanmış İran 30 il müddətində Azərbaycanın ərazi bütövlüyünü tanıdığını deyib, digər yandan isə təcavüzkar Ermənistana hər cür dəstək verib.

Bir dəfə də olsun İran rəhbərləri Xocalı soyqırımının, işğal olunmuş Azərbaycan ərazilərindəki məscidlərin, dini abidələrin yerləyeksan olunmasının, təhqir edilməsinin, minlərlə müsəlmanın qətlə yetirilməsinin haqq-hesabını Ermənistandan çəkməyiblər.

Bu illər ərzində Ermənistanın işğalı altında olan Azərbaycan ərazilərində bütün infrastruktur, mədəniyyət, dini obyektlər, vətəndaşlara və dövlətə məxsus mülklər dağıdılıb, təbii sərvətə ölçüyəgəlməz zərər vurulub. Faktlarla sübut olunub ki, Tehran bu illər ərzində erməni işğalında olan Azərbaycan ərazilərinin talan olunmasında birbaşa iştirak edib. İşğalçı ölkə olan Ermənistan Qarabağda sökdüyü evlərdən əldə olunan tikinti materiallarını İrana satıb, həmçinin oradakı meşələrimiz qırılaraq İrana daşınıb. Diqqətə çəkdiyimiz bəzi faktlar da sübut edir ki, sözdə müsəlman olan bu dinsiz ölkənin təkcə işğal dövründə Azərbaycan ərazilərində törətdiyi cinayət əməllərini saymaqla bitirmək mümkün deyil.

Vətən müharibəsi dövründə də bu bədnam qonşu təcavüzkar Ermənistanın qalib gəlməsi üçün Azərbaycana qarşı olmazın çirkin əməllər törətdi. Amma İran və Ermənistanın Azərbaycanın torpaqlarını işğaldan azad etməsinə qarşı yönəlmiş xainlər ittifaqının başını "dəmir yumruq" yerindəcə əzdi.

44 günlük müharibədə başı daşa dəyən İran rejimi bədnam əməllərini bu gün də davam etdirir. Molla rejimi Azərbaycanın düşməninin yanında olduğunu nümayiş etdirmək üçün tələm-tələsik Qafanda konsulluq açdı və Ermənistanın Təbrizdə konsulluq açmasını gündəmə gətirdi.

Saxta islam respublikasının Azərbaycanda terror aktı törətmək niyyəti, eləcə də sərhədimizdə hərbi təlimlər keçirməsi isə xainliyinə ən bariz nümunədir.

İran Ermənistana öz istehsalı olan silahlar hədiyyə edir, yenə də əlini azərbaycanlıların, şəhidlərimizin qanına bulamağa çalışır.

#### Soydaşlarımızın hüquqlarının tapdalanmasına göz yummayacağıq

"İran ilə sərhəddə hərbi təlimlər keçirməli olduq ki, onlardan qorxmadığımızı nümayiş etdirək. Mən İranın üç prezidenti - Hatəmi, Əhmədinejad və Ruhani ilə işləmişəm. Bütün bu illər ərzində bugünkünə bənzər vəziyyət yaranmamışdı. Heç vaxt İran bizim sərhədimizdə bir neçə ay müddətində iki hərbi təlim keçirməmişdi. Heç zaman Azərbaycana qarşı bu qədər nifrət və hədə-qorxu ilə dolu bəyanat verilməmişdi". Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 25-də ADA Universitetində keçirilən "Orta dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda beynəlxalq konfransın açılışında İranın qonşuluq siyasətinə yaraşmayan və Azərbaycana qarşı açıq hədəyə keçən davranışlarına rəsmi Bakının hər zaman adekvat cavab verməyə hazır olduğunu bildirib.

Bu yaxınlarda keçirilən Azərbaycan və Türkiyənin birgə növbəti hərbi təlimləri də İrana bir xəbərdarlıq mesajı idi. İranın sınıq-salxaq, köhnə texnikası ilə apardığı təlimlərə qarşı Arazın bu tayında Azərbaycanın və Türkiyənin yeni nəsil müharibə qaydalarına uyğun təlimi keçirildi. Bu həm də İrana müasir orduların əsl təliminin necə olmasına dair əyani bir dərs kimi də dəyərləndirilə bilər.

Fars rejimi bütün bu baş verənlərdən o nəticəni də çıxarmalıdır ki, qüdrətli Azərbaycanla hədə və güc dili ilə danışmaq mümkün deyil və buna cürət edənlərin aqibəti Ermənistanın acınacaqlı halı kimi olacaq. Bütün cəbhələrdə - həm hərbi, həm də diplomatik cəbhələrdə əzici məğlubiyyətə uğradılacaq, Azərbaycana tuşlanan silahları isə Bakıda, Hərbi Qənimətlər Parkında məğlub ordunun silahları statusu ilə sərgilənəcək.

Eyni zamanda dağılmaqda olan fars rejimi bilməlidir ki, Cənubi Azərbaycanda yaşayan soydaşlarımıza qarşı sərgilədiyi xüsusi amansızlıqları, qəddarlıqları da dərhal dayandırmalıdır. Çünki biz 40 milyona yaxın soydaşımızın haqq və hüquqlarının tapdalanmasına heç vaxt göz yummayacaq, daim onların arxasında olacağıq.

Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyətlə bildirdiyi kimi: "...İrandakı azərbaycanlıların müdafiəsini təmin etmək üçün hər şeyi edəcəyik. Onlar bizim millətin bir parçasıdır".

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*

## Edamlar etirazları daha da alovlandıra bilər

### Avropa Birliyi İrana qarşı yeni sanksiyalar tətbiq etməyə hazırlaşır

İranda etirazçıların ağır cəzalara, hətta edama məhkum edilməsinə baxmayaraq, hakimiyyətdən narazı xalqın kütləvi aksiyaları səngimir. Dekabrın 11-də ölkədə növbəti nümayişlərə çağırış edilib. "Tehran Məhəllələrinin Gəncləri" qrupu bununla bağlı növbəti bildiriş yayıb.





Məlumatda dekabrın 11-də Tehran başda olmaqla bütün şəhərlərdə edam edilən Möhsün Şikari adlı etirazçının 3 mərasimində kütləvi nümayişlərin keçiriləcəyi bildirilib.

Qeyd edək ki, "Tehran Məhəllələrinin Gəncləri" qrupu xüsusilə paytaxtda keçirilən nümayişlərdə aktivliyi ilə seçilir.

Bu qrup bundan öncə yaydığı çağırışlarda Tehranın bir neçə məntəqəsində on minlərlə vətəndaşın aksiyalara qoşulmasına və təsirli aksiya keçirməsinə nail olub.

Dekabrın 12-də isə Avropa Birliyi İrana qarşı yeni sanksiyalar tətbiq edə bilər. Sanksiyalar müəyyən fiziki və hüquqi şəxslər üçün səyahət qadağaları və xarici aktivlərin dondurulmasını özündə ehtiva edir. Avropa Birliyinin xarici işlər nazirlərinin Brüsseldə keçiriləcək iclasında yeni sanksiyalar paketinin təsdiqlənəcəyi gözlənilir.

Xatırladaq ki, gənc fəal Möhsün Şikari sentyabrın 25-də həbs edilib və onun ilk məhkəməsi noyabrın 1-də keçirilib. Möhsün Şikari İran İnqilabı Keşikçiləri Korpusunun Bəsic silahlılarından birinə qəsdən xəsarət yetirməkdə, Tehran küçəsini bağlamaqda, ictimaiyyətin inamını qırmaqda və təhlükəsizliyi pozmaqda günahlandırılaraq edam cəzasına məhkum edilib.

İranda edamlar davam edəcək. Bu barədə ABŞ-nin Müharibə Araşdırmaları İnstitutu məlumat yayıb. Bildirilib ki, dekabrın 8-də ölkədə etirazlar başlayandan bəri ilk edam həyata keçirilib: "23 yaşlı Möhsün Şikari edam edilib. Rejim çox güman ki, edamdan etiraz aksiyalarının qarşısını almaq və nümayişçiləri qorxutmaq üçün istifadə edir. Lakin onun icrası əks-effekt verə bilər.

Etiraz koordinatorları və təşkilatları edamı pisləyərək Şikarinin qisasını alacaqlarına söz veriblər".

Məlumata görə, rejim həbs edilmiş daha 10 etirazçı ilə bağlı ölüm hökmü verib. Beləliklə, yaxın vaxtlarda əlavə edamlar həyata keçirilə bilər. Edamlar davam edən etirazları daha da alovlandıra bilər.

İranın rəhbəri Əli Xameneyinin bacısı oğlu Mahmud Muradxani anasının bəyanatını şərh edib. Bildirib ki, anası Bədri Hüseyni Xameneyi İran xalqı ilə həmrəylik üçün bu addımı atıb və Əli Xameneyini tənqid edib.

Mahmud Muradxani anasının bəyanatının İranda başqa din xadimlərini də danışmağa və hakim vəziyyətdən narazılıqlarını bildirmək üçün cəsarətləndirməyə hesablanıb.

Fransada yaşayan Muradxani anasının açıqlamasının yayılmasının səbəblərindən birinin xalq hərəkatlarını və etirazları dəstəkləməklə bağlı olduğunu və bir neçə onillik fəaliyyət nəticəsində İran hakimiyyətinin mahiyyəti barədə insanların daha çox məlumatlı olmasına görə sevindiyini bildirib.

O, yalnız Əli Xameneyiyə deyil, ümumiyyətlə, mövcud rejimi qəbul etmədiklərini və dini hakimiyyətə qarşı olduqlarını söyləyib.

Bir neçə gün əvvəl Əli Xameneyinin bacısı Bədri Hüseyni Xameneyi bəyanat yayaraq İran rəhbərini tənqid edib və onu diktatorluqda günahlandırıb.

"Günaz" telekanalının xəbərinə əsasən, Qərb mənbələri İslam Respublikası rəsmiləri ilə Venesuela hakimiyyəti arasında bir neçə dəfə danışıqlar aparıldığını yazırlar. Məlumata görə, İranda etirazçılara qarşı repressiyaların artması ilə eyni vaxtda İslam Respublikasının rəsmiləri ölkədə vəziyyətin pisləşəcəyi və hakimiyyətin devriləcəyi təqdirdə hökumət rəsmiləri və onların ailələrinə sığınacaq vermək üçün Venesuela da daxil olmaqla xarici müttəfiqləri ilə danışıqlara başlayıblar.

İran rəsmilərinin ailələrinin ölkədən qaçması və onların bəzilərinin Londona yerləşməsi barədə məlumatlar da yayılıb.

*Rizvan CƏFƏROV, "Azərbaycan"*

# İstiqlal fədailəri

## İranda rejimə qarşı etiraz bütün xalqların azadlıq hərəkatına çevrilib




Sentyabr ayında İranda Məhsa Əmininin ölümü ilə başlayan etiraz aksiyaları qısa zamanda ölkənin əksər böyük şəhərlərini bürüdü. Hakimiyyət dairələri nümayişlərin qarşısını almağa çalışsa da, mümkün olmadı, etirazçıların sayı gündən-günə artmaqda davam etdi. Etirazlara səbəb isə ilk başlarda qadınların hicaba yox deməsi, azadlıq və hüquqlarının qorunması olsa da, alovlanmaqda olan nümayişlər getdikcə rejimə qarşı çevrildi.




Nümayişçilərin əsas hissəsini isə bu günə qədər qadınlar təşkil edirlər. Ölkədə əxlaq polisinin ləğv ediləcəyi ilə bağlı yayılan xəbərlərdən sonra belə hicablarını yandıran qadınlar bunun nümayişlərin dayanacağına yetərli olmadığını bildirirlər. Belə ki, hicab azadlığı ilə etiraza çıxanlar artıq molla rejiminin dəyişikliyini tələb edirlər. Çünki anlayırlar ki, qadınların azadlıqlarını əlindən alan, onların hüquqlarını qorumayan, hicaba görə öldürülən, qadınların haqlarını tapdalayan rejimi dəyişmədən dəyişiklik mümkün deyil. Molla rejiminin hökm sürdüyü halda daim günahsız insanlar edam olunacaq, qadınların bütün haqları tapdanacaq.

Bu aksiyalar İranda qadınların ilk etirazları deyil, müxtəlif illərdə də iranlı qadınlar hicaba görə nümayişə çıxıblar. Bununla belə, həmin aksiyaların qarşısı polis tərəfindən alınıb, nəticədə qadınların tələbləri yerinə yetirilməyib. Budəfəki etirazlar isə nəinki iranlılar, orada yaşayan digər hüquqları pozulan millətlərin də azadlıq hərəkatına çevrildi.

Amma hər şeydən öncə bu, qadınların azadlıq hərəkatı, onların ayağa qalxdığı, haqlarını tələb etdiyi nümayişlərdir. İranda etirazlar başlayandan müxtəlif ölkələrdə qadınların saçlarını kəsərək iranlı qadınlara dəstək xarakteri daşıyan videogörüntülər də yayılır. Dünyanın hər yerindən tanınmış şəxslər paylaşımlar edərək iranlı qadınlara dəstək olduqlarını bildirir, onları cəsur, qorxmaz qadınlar adlandırırlar.

### "İlin qəhrəmanları" seçilən iranlı qadınlar

ABŞ jurnalı da nümayişçi qadınları yüksək qiymətləndirib. Belə ki, həftəlik nəşr olunan "Time" jurnalı 22 yaşlı Məhsa Əmininin ölümü ilə başlayan etirazlara rəhbərlik edən iranlı qadınları "İlin qəhrəmanları" seçib. Jurnal təxminən 3 aya yaxın davam edən etirazların bu günə qədər ölkə hakimiyyətinə qarşı ən uzunsürən nümayişlər olduğunu diqqətə çatdırıb.

Etiraz aksiyalarına qatılan iranlı qadınları "savadlı, dünyəvi, liberal" kimi xarakterizə edən "Time" etirazın səbəblərinin çox olduğunu və hökumətin buna əsaslı cavabının olmadığını qeyd edib. Eyni zamanda məqalədə bildirilib ki, dəyişiklik axtaranların istəkləri nümayiş etdirilir, "qadın, həyat, azadlıq" sözləri şüarlara çevrilir.

Həmçinin jurnal ötən illərdə İranda bəzi qızların hicabı açaraq tək keçirdiyi sakit etirazdan söz açıb, qadına qarşı düşmənliyi siyasət brendinə çevirən hökumətlərin bu gücü görmədiyini bildirib.

Ümumiyyətlə, iranlı qadınların əvvəlcə hicab, daha sonra rejimə qarşı etirazları müxtəlif ölkələr tərəfindən onların cəsarətli addımları kimi qiymətləndirilir. Azadlığı tələb edən qadınların etirazları artıq çoxlarını qəflət yuxusundan oyadıb. Hər kəs haqqını axtarır, hüququnun qorunmasını tələb edir, ən əsası isə azadlıq istəyir. Elə azadlıq da insanın əsas hüququ deyilmi?

Etirazlar hələ də səngimək bilmir. Bununla yanaşı, etiraz aksiyalarına rəhbərlik edənlər, insanları nümayişlərə qaldıranlar saxlanılır, həbs olunur, barələrində ölüm hökmü də çıxarılır. Yəni rejim insanların tələblərini yerinə yetirmək əvəzinə onların azadlıq hüququnu pozmaqda davam edir, bununla yanaşı, insanın yaşamaq hüququnu da əlindən alır.

### Etirazçılar edam edilirlər

İran İnsan Haqları Təşkilatının dekabrın 7-nə olan məlumatına görə, ölkədə davam edən ümummilli etirazlarda təhlükəsizlik qüvvələri tərəfindən 63-ü uşaq, 29-u qadın olmaqla 450-dən çox şəxs öldürülüb. Nümayişçilərdən 5 nəfərinə ölüm hökmü çıxarılıb, ümumilikdə isə belə şəxslərin sayı 11-ə çatıb. Qeyd olunub ki, 63 uşaqdan 9-u qızdır. Onların yaşı 18-dən aşağı olsa da, hamısı sənədlərlə təsdiqlənməyib və təşkilat onların yaşlarının təsdiqlənməsi üçün çalışır. Ölüm hallarının ən çox Sistan və Bəlucistan, Kürdüstan, Tehran, Mazandaran, Kirmanşah və bəzi tarixi Azərbaycan şəhərlərində qeydə alındığı bildirilir.

Ölüm hallarının hələ də araşdırıldığı bildirilir və ölənlərin daha çox olduğu ehtimal edilir. Daha dəhşətlisi odur ki, ölüm hökmü təsdiqlənən etirazçıların da adı gizlədilir.

İran rəsmiləri etiraz aksiyalarında öldürülən və saxlanılanların sayını və kimliyini də açıqlamır. Ölüm hökmü çıxarılanlarla bağlı gizlilik isə yəqin ki, edamın qarşısının alınmasına olacaq əngəlləri qabaqlamaqdır. Hər bir halda rejim insanların haqlarını tapdalamaqda, onların hüquqlarını pozmaqda davam edir.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

# Ölkəmizdə fəaliyyət göstərən ekoloq və fəalların Rusiya sülhməramlı kontingentinin komandanına müraciəti

Dekabrın 9-da ölkəmizdə fəaliyyət göstərən ekoloq və fəalların bir qrupu Azərbaycan Respublikasının Qarabağ iqtisadi rayonunda müvəqqəti yerləşdirilmiş Rusiya Federasiyasının sülhməramlı kontingentinin komandanı general-mayor Andrey Volkova müraciət ünvanlayıblar.

AZƏRTAC müraciəti təqdim edir:

Hörmətli Andrey Aleksandroviç,

Rusiya Federasiyasının sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan Respublikası ərazilərində ekoloji vəziyyətin gərginləşməsi biz ekoloqlar və aktivistləri ciddi narahat edir.

Azərbaycan ərazilərinin Ermənistan tərəfindən 30 il ərzində işğal altında olduğu dövrdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında Azərbaycana qarşı ekoloji terror törədilmiş, bir çox faydalı qazıntı yataqları qanunsuz istismar edilmişdir. 2020-ci ildə Azərbaycan ərazilərinin Ermənistanın işğalından azad edilməsindən sonra uzun illər qanunsuz istismar və talan edilən yataqların bir çoxunda ekoloji vəziyyət nəzarət altına alınsa da, Rusiya Federasiyasının sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan Respublikası ərazilərində olan Qızılbulaq qızıl və Dəmirli mis-molibden yataqlarında qeyri-qanuni istismar halları təəssüf ki, davam etməkdədir.

Faydalı qazıntı yataqlarının qanunsuz istismarı ekoloji vəziyyəti gərginləşdirməklə mülki əhaliyə, ətraf mühitə, biomüxtəlifliyə, yeraltı və yerüstü su resurslarına, eləcə də Azərbaycanın digər ərazilərindəki ekoloji mühitə mənfi təsir göstərir.

Azərbaycanın müstəqil ekoloqlarının birləşdiyi çoxsaylı QHT-lər olaraq Rusiya Federasiyasının sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan Respublikası ərazilərində olan Qızılbulaq qızıl və Dəmirli mis-molibden yataqlarında qeyri-qanuni istismar hallarının və ekoloji vəziyyətin dəyərləndirilməsini vacib hesab edirik. Bu xüsusda bizim qeyd edilən ərazilərə səfər etməyimiz üçün təhlükəsizliyin təmin olunmasını və monitorinq keçirməyimiz üçün lazımi şərait yaradılmasını Sizdən xahiş edirik.

İmza edən QHT-lər:

1. Avrasiya Miqrasiya Təşəbbüsləri Platforması İctimai Birliyi - Azər Allahverənov
2. Sağlam İnkişaf və Maarifləndirmə İctimai Birliyi - Anar Xəlilov
3. "Biosfer" İctimai Birliyi - Qorxmaz İbrahimli
4. "Ekoleks" Ekoloji Hüquq Mərkəzi İctimai Birliyi - Samir İsayev
5. "Sağlam Həyata Doğru" Ekoloji İctimai Birliyi - Sadiq Həsənov
6. "Yaşıl Dünya" Ekoloji Maarifləndirmə İctimai Birliyi - Elman Cəfərli
7. "Ekoloq-2010" Ekoloji Maarifləndirmə İctimai Birliyi - Səlim Balayev
8. Azərbaycan Gənclərinin Hüquqlarının Müdafiəsi Mərkəzi İctimai Birliyi - Elçin Salmanov
9. Hüquqi Təhlil və Araşdırmalar İctimai Birliyi - Ramil İsgəndərli
10. İctimaiyyətlə Əlaqələrin İnkişafina Kömək İctimai Birliyi - Şəlalə Həsənova
11. Gənclərin Təşəbbüsünə və İnkişafına Dəstək -Toğrul Allahverdili
12. Mediada İnnovativ Təşəbbüslərə Dəstək İctimai Birliyi - Müşfiq Ələsgərli
13. "Vətəndaşların Sosial Rifahı Naminə" İctimai Birliyi - İradə Rzazadə
14. Azərbaycanın İşğal Olunmuş Ərazilərindəki Tarix və Mədəniyyət Abidələrini Müdafiə Təşkilatı İctimai Birliyi - Faiq İsmayılov
15. Sosial Strateji Tədqiqatlar və Analitik Araşdırmalar İctimai Birliyi - İlqar Hüseynli
16. Elmi Araşdırmalar İctimai Birliyi - Telman Qasımov
17. Müstəqil Jurnalistlərə Texniki və Hüquqi Yardım İctimai Birliyi - Asəf Quliyev
18. Cəmiyyətin və Vətəndaş Münasibətlərinin İnkişafı İctimai Birliyi - Əhməd Abbasbəyli
19. "Səyyahlar" Təbii Sərvətlərin və Ətraf Mühitin Araşdırılması və Tanıdılması İctimai Birliyi - Elsəvər Cəlilov
20. "İCOMOS Azərbaycan" İctimai Birliyi - Rəşad Əliyev
21. Bakı İnsan Hüquqları Klubu İctimai Birliyi - Rəsul Cəfərov
22. Ekoloji Maarifçilik və Monitorinq İctimai Birliyi - Qəmzə Yusubova
23. İslahatçı Gənclər İctimai Birliyi - Fərid Şahbazlı.

# Bir qrup azərbaycanlı ekoloq Rusiyanın Bakıdakı səfirliyinin qarşısında etiraz aksiyası keçirib

Azərbaycanda ekologiya sahəsində fəaliyyət göstərən bir qrup qeyri-hökumət təşkilatının nümayəndələri dekabrın 9-da Rusiya Federasiyasının ölkəmizdəki səfirliyinin qarşısında etiraz aksiyası keçiriblər.

AZƏRTAC xəbər verir ki, aksiya iştirakçıları Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində ekoloji vəziyyətin gərginləşməsi, sərvətlərimizin talan olunması və ermənilərin özbaşınalıqlarına son qoyulmasını tələb ediblər. Bildirilib ki, Rusiya Federasiyasının sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi ölkəmizin ərazilərində ekoloji vəziyyətin gərginləşməsi azərbaycanlı ekoloqları və fəalları ciddi narahat edir.

Azərbaycan ərazilərinin Ermənistan tərəfindən 30 il ərzində işğal altında olduğu dövrdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında Azərbaycana qarşı ekoloji terror törədilmiş, bir çox faydalı qazıntı yataqları qanunsuz istismar edilib. 2020-ci ildə Azərbaycan ərazilərinin Ermənistanın işğalından azad edilməsindən sonra uzun illər qanunsuz istismar və talan olunan yataqların bir çoxunda ekoloji vəziyyət nəzarət altına alınsa da, Rusiya Federasiyasının sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan Respublikası ərazilərində olan Qızılbulaq qızıl və Dəmirli mis-molibden yataqlarında qeyri-qanuni istismar halları təəssüf ki, davam etməkdədir.

Vurğulanıb ki, faydalı qazıntı yataqlarının qanunsuz istismarı ekoloji vəziyyəti gərginləşdirməklə mülki əhaliyə, ətraf mühitə, biomüxtəlifliyə, yeraltı və yerüstü su resurslarına, eləcə də Azərbaycanın digər ərazilərindəki ekoloji mühitə mənfi təsir göstərir.

Rusiya Federasiyasının sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan Respublikası ərazilərində olan Qızılbulaq qızıl və Dəmirli mis-molibden yataqlarında qeyri-qanuni istismar hallarının və ekoloji vəziyyətin dəyərləndirilməsinin vacibliyi bildirilib. Bu xüsusda azərbaycanlı ekoloqların və fəalların azad olunmuş ərazilərə səfər etmələri üçün təhlükəsizliyin təmin olunması və monitorinq aparılması üçün lazımi şəraitin yaradılması xahiş edilib.

# Ya meyvəni qurut, ya da canını



Ölkənin aqrar sektoru şaxələnməkdə davam edir, ənənəvi sahələrlə yanaşı, kənd təsərrüfatı məhsullarının istehsal zəncirində yeni sahələr və müəssisələr meydana gəlir. Xəbər verildiyi kimi, dövlət başçısı bir neçə gün əvvəl Şəki və Oğuza etdiyi səfər çərçivəsində belə müəssisələrdən birində olmuşdur.

## Meyvələrimiz bağlarda tələf olur, meyvə qurusunu isə xaricdən alırıq



Prezident İlham Əliyev birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva ilə birlikdə Şəkinin Orta Zəyzid kəndindəki "Green Factory" Məhdud Məsuliyyətli Cəmiyyətində quru meyvə istehsalı üçün yaradılan şəraitlə tanış olmuş, müəssisənin fəaliyyəti ilə maraqlanmışdır. Əvvəlcə qeyd edək ki, "Green Factory" MMC-nin 100 hektarlıq sahəsində Fransa, İtaliya və Türkiyədən gətirilmiş 55 mindən çox şaftalı, nektarin, ərik, gavalı, xurma, gilas, alma və alça meyvələrinin bir neçə növündən ibarət bağ salınıb. Bağı suvarmaq üçün müasir suvarma sistemləri qurulub, 8 artezian quyusu qazılıb, ümumi həcmi 15 min kubmetr olan sututarlar tikilib. Ərazinin fasiləsiz və səmərəli suvarılması məqsədilə 2 su nasosundan ibarət stansiya, müasir suvarma texnologiyalarının tələblərinə cavab verən damcılama suvarma sistemi yaradılıb. Müəssisənin ərazisindəki logistik mərkəzə isə ümumi həcmi 1000 kubmetr olan 9 soyuducu kamera, gündəlik istehsal gücü 3 ton olan qurutma, saatda 5 ton istehsal gücü olan çeşidləmə və qablaşdırma avadanlıqları, anbar binası, ofis və digər yardımçı binalar daxildir.

Ümumiyyətlə, son illər diqqət yetirilən istiqamətlərdən biri də müxtəlif meyvələrin qurudulması üçün yeni istehsal sahələrinin istismara verilməsidir. Sözügedən sahənin yaxın gələcəkdə aqrar sektorun şaxələnməsində ən perspektivli rol oynamaq ehtimalı böyükdür. Bu baxımdan dövlət başçısının adıçəkilən müəssisə ilə tanışlığı, burada görülən işlərlə maraqlanması perspektivlərə nəzər salmağa imkan yaradır.

Bir qədər keçmişə qayıtsaq, sovet Azərbaycanında Ulu Öndərin kənd təsərrüfatı məhsullarının emalı və istehsalı üçün bütün rayonlarda yaratdığı zavodları, sexləri xatırlaya bilərik. Yaşlı nəslin nümayəndələri yaxşı bilirlər ki, həmin illər Azərbaycanda istehsal olunan pürelər, povidlalar, meyvə şirələri keçmiş ittifaqın istənilən nöqtəsinə göndərilirdi. Azərbaycan müstəqilliyini elan etdikdən sonra həmin müəssisələr özəlləşdirildi. Sahibkarlıqda, özəl biznesin qurulmasında təcrübəsiz olan yeni iş adamları isə həmin müəssisələri idarə edə bilmədilər və nəticədə onların əksəriyyəti ya dağıldı, ya da ən yaxşı halda təyinatını dəyişdi. Düzdür, ozamankı zavod və sexlərin arasında meyvə qurudan müəssisələr yox idi. Həyət-bacası, bir az bağı olan kəndlilər almanı, armudu və bir sıra digər meyvələri dədə-baba qaydasında qurudub dövlətə təhvil verir və pis də qazanmırdılar. Sonralar isə bu sahəyə maraq azaldı. Lakin dövlətin dəstəyi ilə kənd təsərrüfatının şaxələndirilməsi, aqrar sektorda yeni istehsal sahələrinin yaradılması ilə bu sahəyə yenidən maraq yaranmağa başladı. Elə "Green Factory" MMC-nin yaradılması da bunun nəticəsidir.

Bu yerdə qeyd edək ki, 2021-ci ildə meyvə emalı sahəsində fəaliyyət göstərən aparıcı müəssisə və şirkətlərin sayı 15-ə yaxın idi. Meyvə qurusu və püresi istehsalı ilə "Öz dad", "Saf qida", "Qubaekoaqrar", "Dadlı Naxçıvan məhsulları" və digər bu kimi nisbətən kiçik və orta istehsalçılar məşğul olurlar. "Bizim tarla" isə artıq bu sahədə Azərbaycan brendinə çevrilmişdir.

Həmin müəssisələrin meyvə qurusu istehsal etmək gücü nə qədərdir, demək çətindir. Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, ölkədə adambaşına il ərzində meyvə istehlakı ümumilikdə 45-50 kiloqramdır. Adambaşına illik quru meyvə istehlakı isə ərik qurusu üzrə 0,6, üzüm qurusu üzrə 0,7, gavalı qurusu üzrə 0,4 kiloqram təşkil edir. Bu, həddən artıq kiçik rəqəmdir. Cənubdakı qonşu ölkələrin demək olar hamısında quru meyvələr bizdən dəfələrlə çox istehlak edilir. Bəlkə də kimlərsə xatırlaya bilər ki, bizdə də əvvəllər quru meyvələrlə çay içərdilər. Onda nə şəkərə tutulanlar var idi, nə də ürək-damar xəstəlikləri indiki kimi meydan sulayırdı.

Azərbaycanda dünyanın heç bir ölkəsində olmayan mürəbbə mövsümü var. Xanımlar evin bir küncünə mürəbbə balonlarından divar çəkirlər. Sağlamlıq üçün zəruri olan meyvə qurutmaq isə unudulub. Əvəzində özümüzü də, qonaq-qaramızı da süfrədə az qala mürəbbə ilə "çimdiririk". Qalan boş yerləri isə cürbəcür konfetlərlə doldururuq. Sonra da heyrətlənirik ki, bu şəkər, ürək-damar xəstəlikləri haradan peyda olur.

Belə çıxır ki, dövlətin yaratdığı yeni istehsal sahələrinin fəaliyyətinin güclənməsi üçün biz də sağlamlığımızın qayğısına qalmalı, faydasız və ağır xəstəliklərə aparan şirniləri quru meyvələrlə əvəz etməliyik. Bir sözlə, ya meyvə, ya da canımızı qurutmalıyıq.

Elə meyvə qurusunu unutmağımızın nəticəsidir ki, onlar ölkəmizə əsasən xaricdən gətirilir. Hətta Azərbaycanda yetərincə olan meyvələrin qurusunu da idxal edirik. Halbuki həmin məhsulların istehsalı üzrə Azərbaycan dünya miqyasında aparıcı ola bilər. İndinin özündə xurma ixracı üzrə dünyada İspaniyadan sonra ikinciyik. Belə olan halda xurma qurusunu xaricdən almağımız sadəcə ağla batmır. Yeri gəlmişkən, bu sahə üzrə bir sıra rəqəmləri nəzərdən keçirək: 2020-ci ildə Azərbaycana Özbəkistan və İrandan 5,4 milyon dollar dəyərində üzüm qurusu idxal olunub. Həmin il Azərbaycan həmçinin Türkiyə, Özbəkistan, İran və Qırğızıstandan 2,5 milyon dollarlıq qurudulmuş ərik, İran, Çili, Özbəkistan, Moldova, Argentina və Türkiyədən 670 min dollarlıq qurudulmuş qara gavalı alıb. Bu da hələ hamısı deyil. Bu gün Azərbaycan Çin, Türkiyə, İran və digər ölkələrdən qurudulmuş alma gətirir. Özümüzdə isə tonlarla alma ya dəyər-dəyməzinə başdan edilir, ya da tələf olur. Tək alma olsaydı, dərd yarı idi. Regionlarda mövsüm vaxtı alıcı gözləyən armud və şaftalının qurusunu Tailand, İran, Özbəkistan, Çin, Rusiya, Suriya, Türkiyə və digər ölkələrdən alırıq.

Məhz buna görə Azərbaycanda quru meyvə istehsalı sahəsində atılan addımlar təqdirəlayiqdır.

*Bahadur İMANQULİYEV, "Azərbaycan"*

# REGİONLAR

## İlə yekun vurulur

# Yeni hədəf yeni zirvələrdir



Ölkənin aqrar sektorunda bir Ağcabədi nümunəsi yaranıb. Torpağı münbit, havası saf, suyu bol, insanları xoşməramlı və əməksevər olan bu bölgə son illər kənd təsərrüfatı məhsulları istehsalında gerçək qabaqcıl təcrübə məktəbinə çevrilib.

Qazanılan nailiyyətlərin mayasında ölkənin aqrar sənaye kompleksinin inkişaf strategiyasına rayon rəhbərliyindən tutmuş taleyini torpağa, halal zəhmətə bağlayan sadə əmək adamlarınadək hər kəsin məsuliyyətli münasibəti dayanır. Dövlət başçısının kənd təsərrüfatında ənənəvi sahələrin inkişafı ilə bağlı verdiyi tapşırıq və tövsiyələri özünün aydın və məqsədyönlü fəaliyyət proqramına çevirən Ağcabədi kəndlisi pambıqçılığın, taxılçılığın, baramaçılığın, eləcə də heyvandarlığın inkişafında son illər böyük uğurlara imza atır.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin mahir sərkərdə qüdrəti, Azərbaycan əsgərinin qəhrəmanlığı sayəsində şanlı qələbəmizlə başa çatan 44 günlük Vətən müharibəsi artıq iki ildir ölkəmizin bütün bölgələrində olduğu kimi, Ağcabədidə də xoş ovqat, yüksək əhvali-ruhiyyə yaratmışdır. Azərbaycan əsgərinin döyüş meydanındakı qəhrəmanlıqlarını Ağcabədi kəndlisi tarlalarda, zəmilərdə, fermalarda davam etdirir.

Pambıqçılıq bu gün rayon iqtisadiyyatında aparıcı sahədir. Hələ sovet dönəmində Ağcabədi respublikanın iri pambıqçılıq təsərrüfatı kimi şöhrət qazanmışdır. Müstəqillik dövrünün müəyyən dönəmində gözdən salınan pambıqçılıq tənəzzül illərini yaşamış, nəticədə kəndlərdə kütləvi işsizlik yaranmış, əhali dolanışıq dalınca şəhərlərə, yaxın xarici ölkələrə axışmışdı. Kənddə qalanlarsa günlərini çayxanalarda, nərd, domino oynamaqla keçirirdilər.

Prezident İlham Əliyevin vaxtında qəbul etdiyi qərar kənd təsərrüfatında ənənəvi sahələri, o cümlədən pambıqçılığı dirçəltmək barədə çağırışı, ölkənin aqrar sektorunda həlledici dönüşün təməlini qoydu. Kəndlərin üstünü örtmüş qara buludlar dağıldı, kəndlilərinsə qırışığı açıldı. Qısa müddətdə göz işlədikcə uzanan geniş tarlalar yenidən ağ örpəyə büründü, bərəkətli çöllərimizin barı, bəhrəsi aşıb-daşdı. Torpaqla ünsiyyətdən güc alan kəndlinin gün-güzəranı, dolanışığı yaxşılaşmağa başladı.

Ölkənin canlanan, yeniləşən aqrar sektorunda Ağcabədinin dəst-xəti tamam fərqlidir. Təbii ki, torpağın münbitliyi, insanların əməksevərliyi və ən başlıcası, idarəetmənin səmərəliliyi sayəsində ölkədə pambıqçılığın inkişafında dönüş ili kimi qəbul edilən 2016-cı illə müqayisədə rayonda pambıq istehsalı faizlə yox, dəfələrlə artmışdır. Xatırladaq ki, 2016-cı ildə rayonun təsərrüfatlarında 3661 hektarda pambıq əkilib-becərilmiş, 8852 ton məhsul istehsal edilmiş, hər hektarın məhsuldarlığı 24,2 sentner olmuşdur. İndi gəlin cari ilin göstəricilərinə nəzər salaq: 11838 hektarda pambıq əkilmiş, aqrotexniki tələblərə ciddi əməl edilməsi hesabına tarlalarda bol məhsul yetişdirilmişdir. Məhsulun tez və itkisiz yığılıb tədarük edilməsi üçün bütün qüvvələr bacarıqla səfərbər edilmişdir. İndiyədək rayonun təsərrüfatları tədarük məntəqələrinə 38317 ton pambıq təhvil vermişlər. Hər hektarın orta məhsuldarlığı 32,4 sentnerə yüksəlmişdir. Heç şübhəsiz belə nəticə səmərəli fəaliyyət, gərgin əmək sayəsində qazanılmışdır. İndi rayonda adlı-şanlı pambıqçılar dəstəsi formalaşmışdır. Qabaqcıl fermerlər Ramil Abdullayev, Etibar Şirinov, Famil Quliyev və İsa Mürşüdov hər il yüksək məhsuldarlığa nail olurlar.

Amma rayon təkcə pambıqçılıqda fərqlənmir, taxılçılığın da inkişafına xüsusi diqqət verilir. Cari təsərrüfat ilinin nəticələrinə görə, 19655 hektardan 80701 ton buğda (məhsuldarlıq 41,1 sentner), 8544 hektardan 33113 ton arpa (məhsuldarlıq 38,8 sentner) biçilmişdir. Hazırda gələn ilin məhsulu üçün taxıl səpini aparılır. Səpin aparılmış sahələrə aqrotexniki qaydalara uyğun qulluq olunur.

Rayonda ənənəvi kənd təsərrüfatı sahəsi olan baramaçılığın inkişafı da diqqət mərkəzindədir. Bu məqsədlə təsərrüfatlarda yeni kümxanalar inşa olunur, məhsuldarlığı yüksək olan çəkil bağları salınır. Etibarlı maddi-texniki baza isə öz növbəsində barama istehsalını ildən-ilə artırmağa imkan yaradır. Bu il rayonun təsərrüfatlarında 884 qutu ipəkqurdundan 33061 kiloqram yüksəkkeyfiyyətli barama istehsal olunmuşdur.

Heyvandarlığa gəldikdə, cari ilin 11 ayında rayonun təsərrüfatlarında 12121 ton ət, 129325 ton süd, 16 milyon ədəd yumurta, 719,3 ton yun istehsal edilmişdir ki, bunlar da keçən ilin eyni dövrü ilə müqayisədə xeyli çoxdur.

Bu gün düşmənin viran qoyduğu Qarabağ və Şərqi Zəngəzurda yeni kəndlər, şəhərlər salınır, yollar çəkilir, körpülər tikilir. Eyni zamanda digər regionlarda kənd təsərrüfatı məhsulları istehsalını artırmaqla ölkəmizin ərzaq təhlükəsizliyini təmin etmək üçün etibarlı bünövrə qoyulur, tədbirlər görülür. Bu işlərdə öndə gedən Ağcabədi kəndlisinin yeni hədəfi isə yeni zirvələrdir.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# Şərqi Zəngəzurda tikiləcək su anbarı 3 milyona yaxın insanı içməli su ilə təmin edəcək

**İşğaldan azad olunan ərazilərdə irimiqyaslı tikinti-bərpa işləri görülür. Həmin ərazilərə qayıdacaq keçmiş məcburi köçkünlərin su ehtiyatlarından istər içməli, istərsə də kənd təsərrüfatı təyinatı üzrə istifadəsi üçün meliorasiya və su təsərrüfatı sahəsinə aid tədbirlərin həyata keçirilməsinə başlanılıb. O cümlədən Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan ərazilərdə də bu istiqamətdə işlər davam etdirilir.**

Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədr müavini Rafiq Aslanov AZƏRTAC-a bildirib ki, Şərqi Zəngəzurda içməli və suvarma suyuna tələbatın təmin olunması üçün bir sıra işlər görülür. Belə ki, Həkəri çayı üzərində 90 milyon kubmetr su tutumu olacaq anbarın tikintisi planlaşdırılır. Həmin su anbarından 253 kilometr uzunluğunda magistral boru vasitəsilə su ötürüləcək. Boru saniyədə 8,5 kubmetr su ötürmə qabiliyyətinə malik olacaq.

Rafiq Aslanov deyib: "Konseptual layihə Prezidentə təqdim olunub. Texniki-iqtisadi əsaslandırma, layihələndirmə işləri üçün tender müsabiqəsinin qalibi ilə müqavilə bağlanılıb və işlərə start verilib. Həkəri çayı üzərində inşa olunacaq anbarda toplanacaq su bütünlüklə Azərbaycan ərazisindəki mənbələr hesabına formalaşır və çox keyfiyyətli, təmiz, içməli su hesab edilir. Həmin anbarda yığılacaq sudan işğaldan azad olunan rayonlardan əlavə, Ağcabədi, Beyləqan, Cəlilabad, Masallı, İmişli, Saatlı və Sabirabad rayonları da daxil olmaqla, 3 milyona yaxın əhali istifadə edəcək".

Onun sözlərinə görə, Bərgüşad çayı üzərində, Qubadlının Bəxtiyarlı kəndi ərazisində 67 milyon kubmetr həcmi olacaq su anbarının tikintisi də planlaşdırılır. Bu anbardan 61 kilometr uzunluqda magistral boru çəkiləcək və 12 min hektar sahənin suvarılmasına xidmət göstərəcək. Eyni zamanda Qız qalası baş qurğusunda tikilən, Cəbrayıl və Füzuli rayonları ərazisinə uzanacaq kanalın 50 kubmetr su ötürmə qabiliyyəti olacaq. Kanala əlavə olaraq Bəxtiyarlı su anbarından saniyədə 10 kubmetr su ötürüləcək.

Zabux çayı üzərində isə 26,7 milyon kubmetr su tutumu olacaq anbar tikiləcək. Həmin anbardan 51 kilometr uzunluqda magistral xətt ayrılacaq və Həkəri çayının sağ və sol sahilləri ərazisində, Qubadlı və Zəngilan rayonları üzrə 12,1 min hektar sahə müasir suvarma texnologiyasının tətbiqi ilə suvarılacaq. Sözügedən layihə iki mərhələyə bölünür: birinci mərhələyə 2023-cü ilin sonlarınadək boru xətlərinin çəkilməsi və 6300 hektar payızlıq sahənin su ilə təmin edilməsi, ikinci mərhələyə isə su anbarının 2024-cü ilin sonunda tikintisinin başa çatdırılması və 12100 hektar sahəyə suyun verilməsi daxildir.

# Aqrar sığorta sistemi şəbəkəsini genişləndirir

Aqrar Sığorta Fondu bölgələrimizdə aqrar sığorta filiallarının açılışını davam etdirir. Payızlıq əkinlərin sığortalanmasına görə müraciətlərin artması ilə bağlı yerlərdə fermerlərə köməklik göstərmək, onları aqrar sığorta qaydaları haqqında məlumatlandırmaq məqsədilə növbəti filial Qubada fəaliyyətə başlayıb.

Quba-Xaçmaz iqtisadi rayonunu əhatə edən filial Quba şəhərinin mərkəzində yerləşir. Filial Şabran, Xaçmaz, Quba, Qusar və Siyəzən rayonlarında fəaliyyət göstərən fermerlərə xidmət edəcək. Qeyd edək ki, bölgə iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. Bu iqtisadi rayon əsasən tərəvəz və meyvə istehsalı üzrə ixtisaslaşıb.

Aqrar Sığorta Fondu fəaliyyətə başlayandan Quba-Xaçmaz iqtisadi rayonunda təkcə bitkiçilik üzrə 2021-2022-ci ilin əkin mövsümlərində 8713 aqrar sığorta müqaviləsi üzrə 25000 hektara yaxın əkin sahəsi sığortalanıb. Bura buğda, arpa, soya, qarğıdalı sahələri, fındıq, alma və gilas bağları daxildir. Gəlirlərini qorumaq, fəaliyyətlərininin dayanıqlılığını təmin etmək məqsədilə aqrar sığorta xidmətlərindən istifadə edən fermerlərin sayı günbəgün artır. Quba şəhərinin mərkəzində açılan filial fermerlərə daha yaxın olmaq, yerlərdə onların tələb və təkliflərini dinləmək, müstəqil ekspertlərlə daha sıx və operativ əməkdaşlıq etmək imkanı yaradacaq.

Filialın açılış mərasimində çıxış edən Aqrar Sığorta Fondunun İdarə Heyətinin üzvü Roman Əmircanov bildirib ki, aqrar sahənin inkişafı istiqamətində həyata keçirilən islahatlardan biri olan aqrar sığorta sistemi fəaliyyət göstərdiyi qısa müddət ərzində ölkənin bütün bölgələrində istehsal həcminin təxminən 95%-ni əhatə edib. Bitkiçilik, heyvandarlıq və akvakultura sahəsində sahəsində çalışan bütün fermerlər bu sistemin xidmətlərindən istifadə edə bilər. İlin sonuna qədər təkcə bitkiçilik üzrə fermerlərə zərər ödənişlərinin 3 milyon manata çatacağı gözlənilir. Bu gün açılışı olan Quba filialı da Quba-Xaçmaz regionunda fermerlərə daha yaxın olmaq, aqrar sığorta ilə bağlı onlara operativ köməklik göstərmək, təsərrüfatlarda yaranan risklərə çevik reaksiya verməyə dəstək olacaq.




# Taxıl əkini geciksə də...

**Keçən əsrin 70-ci illərində Azərbaycanda işini bilən bir kənd təsərrüfatı naziri olub. Mərkəzi Komitənin plenumlarında və digər tədbirlərdə başqa sahələrin nazirləri, komitə sədrləri ona yaxınlaşıb hal-əhval tutar, kefini soruşarlarmış. Yağışlı sentyabr günlərində keçirilən belə bir tədbirdə həmkarlarından biri yenə onun kefini soruşanda o belə cavab vermişdir: "Bir adamın ki keyfi havadan asılı ola, siz bilən, necə olar?! Pambıq tökülüb qalıb sahələrdə, yağış da yığmağa imkan vermir".**



## Biləsuvarlı fermerlər bu geriliyi aradan qaldırmağın yolunu bilirlər

Burada M.Ə.Sabirin məşhur "Yağmadı yağış, bitmədi bir danə, nə borcum?!" beyti yada düşür. Yaxud "Yağmadı yağış, bitmədi qamış" deyimini götürək. Bu ifadələrin yaranmasından görün neçə il keçib. Lakin bu ötən dövrdə elm, texnika, texnologiya nə qədər inkişaf etsə də, təbiətdən asılılığımız hələ də qalmaqdadır və çox güman ki, həmişə də belə olacaq.

Təbiətlə bağlı hazırkı vəziyyət, yaranan durum isə ürəkaçan deyil. Bu əsasən arana - taxıl və pambıq əkib-becərən bölgələrimizə, o sıradan Biləsuvar rayonuna da aiddir.

Cari ilin yazı pambıqçılıq üçün, demək olar ki, əlverişsiz keçdi. Aprel, may aylarında havaların soyuq olması yaz tarla işlərini ləngitdi və buna görə də fermerlər, torpaq mülkiyyətçiləri təkrar çiyid səpini aparmaq məcburiyyətində qaldılar. Nəticədə pambığın yetişməsi 10-15 gün gecikdi. Yəni əvvəlki illərdə yığıma avqustun sonu, sentyabrın əvvəllərində başlandığı halda, builki yığım sentyabrın 20-22-də start götürdü.

Üstəlik, ötən illərdən fərqli olaraq, payızın gəlişi ilə havalar da kəskin dəyişdi. Halbuki lazım olanda aprel ayından sentyabrın ortalarına qədər Muğana, o cümlədən Biləsuvara bir dəfə də olsun yağış düşməmişdi. Əkinçilər isə onu çox arzulayırdılar. İstəyirdilər ki, yağış yağıb toz-torpağı yatırtsın, ağacları yuyub təmizləsin. Ancaq təbiətin öz qərarı, öz ölçüsü-biçisi, öz balansı var. Oktyabrın üçüncü ongünlüyündən aramsız yağışlar başladı. Muğanda otlaq-örüş sahələri, çöl-bayır yamyaşıl ot örtüyünə büründü. Lakin hələ birinci dərgisi belə aparılmayan on hektarlarla pambıq sahələri var ki, yığımını gözləyir. Digər tərəfdən taxıl əkininin gecikməsi növbəli əkinə mane olur. Gərək pambıq yığılıb qurtara ki, yerinə taxıl əkilə.

Amma vaxtdan səmərəli istifadə edərək gecəni gündüzə qatan fermerlərin çəkdiyi zəhmət nəticəsində arpa və buğda əkilən sahələr indi üzə gülür. Yağan yağışlar onların muradını vermişdir. Hər tərəfdə normal çıxış alınmışdır. Taxıl əkəcək digər fermerlərsə yağışın kəsməsini gözləyirlər. Əkinçilikdə böyük təcrübəyə, yaxşı ənənələrə malik olan biləsuvarlılar başa çatmasına saylı günlər qalan 2022-ci ili də uğurla yola salmağa hazırlaşırlar. Onlar pambıq yığımını davam etdirməklə bərabər, gələn ilin taxılının əsasını qoyurlar. Bu il biləsuvarlı əkinçilər hər hektardan 31,6 sentner buğda, 27,7 sentner arpa götürmüşlər. Fermerlərdən Lətif Cəfərov, Rafiq Bədəlov, Rüstəm Əzizov, Ramiz Əliyev, Valeh Seyfiyev isə daha çox - hektardan 50-55 sentner məhsul biçmişlər.

Rayon üzrə bu payız 34 min hektarda taxıl səpilməsi nəzərdə tutulmuşdur ki, onun da 12 min hektarı buğda, qalan 22 min hektarı arpa olacaq. Müəyyən sahələrdə məlum vəziyyətlə əlaqədar hələ şum aparılmamış, bəzi sahələrdə isə şum aparılsa da, əkin həyata keçirilməmişdir. Şum edilmiş sahələrin 21 min hektarında arpa, 8 min 200 hektarında buğda səpini aparılmışdır. Əkin zamanı "Bərəkətli", "Murov", "Bezosdaya", "Qobustan", "Fatimə", "Sezaro", "Əzəmətli-95", "Alekseviç" buğda, "Qarabağ-22", "Qarabağ-33", "Cəlilabad-19", "İdra", "Fenola" arpa sortlarından istifadə edilmişdir. Buğda toxumunun 8 min 828, arpanın isə 865 tonu sertifikatlı olmuşdur. Əkin zamanı torpağa 1878 ton mineral gübrə verilmiş, səpində 215 traktor, 116 kotan, 87 mala, 86 toxumsəpən və 67 gübrəsəpən texnikadan istifadə edilmişdir.

Taxıl əkini gecikir. Lakin təcrübə göstərir ki, sahələrə nümunəvi aqrotexniki qulluq göstərəndə həmin geriliyi aradan qaldırmaq mümkündür. Əkinçilik sahəsində zəngin təcrübəyə malik biləsuvarlı taxılçılar bunu uzun illərin təcrübəsindən bilirlər. Həm də bilirlər ki, torpaq çəkilən zəhməti heç vaxt itirmir və əvəzini birə-yüz ödəyir.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Yeni regional layihə iş adamlarının maarifləndirilməsinə yönəlib

Regionlarda fəaliyyət göstərən sahibkarları maliyyə resurslarına çıxış imkanları, bu sahədə mövcud olan dövlət dəstəyi mexanizmləri - güzəştli kreditlər, subsidiyalar barədə məlumatlandırmaq, eləcə də paytaxt və bölgələrdən olan iş adamları arasında işgüzar əlaqələri genişləndirmək üçün maarifləndirmə tədbirinə başlanılıb.

Bu məqsədlə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) və "Marsol" MMC-nin birgə təşkilatçılığı, Dövlət Məşğulluq Agentliyi və "Kapital Bank"ın tərəfdaşlığı, "Maricel Astara Resort" hotelinin dəstəyi ilə "Regional tərəfdaşların inkişafı" layihəsinə start verilib.

KOBİA-nın yaydığı məlumata görə, Şəkidə "Regional tərəfdaşların inkişafı" layihəsinin təqdimatına həsr olunmuş konfrans keçirilib. Tədbirdə müvafiq dövlət qurumlarının nümayəndələri, Bakı şəhərindən və Şəki-Zaqatala iqtisadi rayonundan 200-dən çox sahibkar iştirak edib. Tədbirdə çıxış edən Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov, KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov və Milli Məclisin deputatı Vüqar İskəndərov sahibkarlara göstərilən dəstək tədbirləri, o cümlədən dövlətin güzəştli kreditləri, subsidiyalar, biznesin maliyyə resurslarına çıxışı istiqamətində yeniliklər barədə məlumat veriblər.

"Marsol" MMC-nin İdarə Heyətinin sədri Tural Mustafayev, "Kapital Bank"ın Korporativ və KOS satış İdarəsinin baş direktoru Fərid Hidayətzadə və "Maricel Real Estate"in rəhbəri Samir Əlizadə təmsil etdikləri şirkətlərin fəaliyyəti, sahibkarlarla əməkdaşlıq, dövlət dəstək tədbirlərindən necə yararlanmaları barədə danışıblar.




Konfrans Bakı və region sahibkarlarını bir araya gətirməklə, onlar arasında netvörkinq və birgə investisiya təşəbbüslərinin reallaşdırılması üçün də imkan yaradıb.

Tədbir çərçivəsində, həmçinin "Region sahibkarlarının maliyyə kanallarına çıxış imkanları" mövzusunda panel müzakirə təşkil olunub. KOBİA, Aqrar Kredit və İnkişaf Agentliyi, Sahibkarlığın İnkişafı Fondu, Dövlət Məşğulluq Agentliyi və "Kapital Bank"ın nümayəndələrinin iştirakı ilə keçirilmiş müzakirələrdə mövzu ilə bağlı ətraflı məlumat verilib, sahibkarları maraqlandıran suallar cavablandırılıb.

"Regional tərəfdaşların inkişafı" layihəsi çərçivəsində növbəti aylarda Gəncə, Astara və Qubada maarifləndirici tədbirlər keçiriləcək.

# Qırğızıstandan Azərbaycana 100 baş yak göndərilib



**AZƏRTAC "Kabar" agentliyinə istinadla xəbər verir ki, Qırğızıstanın Kənd Təsərrüfatı Nazirliyi Azərbaycana 100 baş yak göndərib.**

Azərbaycana 100 baş yak göndərilməsi barədə razılaşma 2022-ci il aprelin 19-20-də Qırğızıstan Prezidenti Sadır Japarovun Azərbaycana rəsmi səfəri zamanı əldə edilib.

Qırğızıstan Milli Statistika Komitəsinin 1 yanvar 2022-ci il üçün olan məlumatına görə, respublikadakı yakların ümumi sayı 53,9 min baş olub.






# "Samba nağılı" bitdi

Dünya çempionatının 1/4 final mərhələsinin ilk qarşılaşmasında Xorvatiya və Braziliya millilləri qarşılaşdılar. Hər mundialda olduğu kimi, bir çoxlarının favoriti olan Braziliya yığması bütün komandalar üçün aşılması çətin sədd olaraq görülməkdə idi. Qarşılaşmadan öncəki təhlilimizdə Xorvatiyanın Braziliya qarşısında işinin çox çətin olacağını yazmışdıq. Böyük ehtimalla xorvatların bütün zonaları bağlayaraq müdafiə olunub əks-hücum taktikası seçə biləcəklərini demişdik, elə də oldu. Hədəfdə qol buraxmadan matçın taleyini 11 metrlik zərbələrə daşımaq çox önəmli idi. Belə də oldu. Düzdür, xorvatlar oyunun əlavə vaxtında hesabda geri düşmələrinə baxmayaraq, yekunda tarazlığı bərpa etməyi bacardılar.

Penalti seriyaları isə psixoloji hazırlıq tələb edir. Burada daha dəqiq olan balkanlılar 2006-cı və 2014-cü il mundiallarında qrupda uduzduğu Braziliyaya (hər iki halda qrupdan çıxa bilməmişdilər) tarixində ilk dəfə qalib gələrək yarımfinala yüksəliblər.

Qeyd edək ki, Xorvatiya 1994-cü ilə qədər Yuqoslaviyanın tərkibində beynəlxalq oyunlara çıxıb. Yerli federasiya buna qədər FİFA-nın rəsmi üzvü olmayıb. Xorvatlar 1994-cü ildən quruma üzv olan ölkələr arasına daxil olublar. Ləqəbi "damalılar", "blazerlər" olan milli "DÇ-2022"yə qədər 5 mundialda iştirak edib. Yığmanın ən böyük uğuru son mundialda gümüş medal qazanmasıdır. Rusiyada keçirilən dünya çempionatında finala qədər yüksələn xorvatlar həlledici oyunda Fransaya uduzublar. Xorvatiya mundialların final mərhələsinə qədər yüksələn ən gənc yığmadır.

"Damalılar" 1998-ci ildə keçirilən Dünya çempionatında da bürünc medal qazanıblar. Xorvatiya futbol tarixinin ən tanınmış oyunçularından olan Davor Şukerin bombardir olduğu mundialda komanda yarımfinalda Fransaya uduzub, 3-cü yer uğrunda matçda isə Niderlandı məğlub etmişdi. Şuker bu mundialda 6 qolla bombardir olub.

Komandada "Çelsi"dən Mateo Kovaçiç, "Real"dan Luka Modriç, "İnter"dən Marselo Brozoviç kimi ulduz futbolçular çıxış edirlər.

Braziliya yığması isə mundiallar tarixinin ən titullu komandasıdır. Cənubi amerikalılar 5 dəfə (1958-ci, 1962-ci, 1970-ci, 1994-cü və 2002-ci illər) Dünya çempionu olublar. "DÇ-2022"nin əsas favoritlərindən sayılan Braziliya yığması buna qədər bütün mundiallarda da fasiləsiz iştirak edən kollektivdir. Yığmanın heyətinin dəyəri 1,14 milyard avrodur. Ən bahalı futbolçu Vinisius Juniordur. Madrid "Real"ında çıxış edən forvardın qiyməti 120 milyon avrodur. Qiymətinə görə ən ucuz oyunçu isə Dani Alveşdir. Meksika "Pumas"ında çıxış edən müdafiəçinin dəyəri 1 milyon avrodur. Onu da qeyd edək ki, Alveş Braziliya yığması ilə dünya çempionatlarına yollanan ən yaşlı futbolçudur - 39 yaş.

"Sarı bülbüllər"in heyətində Neymar, Rodriqo, Antoni kimi ulduz futbolçular yer alırlar. Komandanı Tite çalışdırır. Mütəxəssis 2016-cı ilin iyunundan millinin sükanı arxasındadır.

| Ötən günün nəticələri | 10 dekabr təqvimi |
| --- | --- |
| 1/4 FİNAL | 1/4 FİNAL |
| Xorvatiya- Braziliya 1:1 (P.4:2) | Mərakeş- Portuqaliya (19:00) |
| | İngiltərə- Fransa (23:00) |

# Qurban Qurbanovdan mundial dəyərləndirməsi



"Qarabağ"ın baş məşqçisi Qurban Qurbanov İspaniya millisinin "DÇ-2022"də uğursuz çıxışı haqda danışıb. İspanların 1/8 finalda mübarizəni dayandırmasının onun üçün sürpriz nəticə olmadığını deyən mütəxəssis komandada gənclərin üstünlük təşkil etdiyini xatırladıb: "Futbol sürprizlərlə doludur. Bəzən hər hansı fəlsəfəni seçəndə və məğlub olanda, bu o demək deyil ki, düzgün deyil. Son vaxtlar İspaniya futbolu deyəndə, ağıla oyunçuların ötürmələri gəlir. Hər fəlsəfəni, istədiyin oyunu həyata keçirə bilmək üçün bacarıqlı oyunçular olmalıdır. İspaniya millisində bir neçə futbolçunu çıxmaq şərtilə digərləri cavandırlar. İspanlar həmin futbolla dünya və Avropa çempionu olublar. Sadəcə, futbolçuların adları fərqli idi. Əgər bir komanda ötürmə ilə oynaya bilmirsə, heç bir fəlsəfəni yerinə yetirə bilməz. Hər bir futbolçu ötürmə ilə oynamağı bacarmalıdır. Pas oyunu dedikdə, bu, ancaq ötürmə demək deyil. Bizim son vaxtlar sürətli hücumlarımız olub. Az ötürmədən istifadə edərək qollar vurmuşuq. Futbolun dili pasdır. İstədiyin həmin futbol oyununu üç ilə də təkmilləşdirə bilərsən. Əlində yaxşı futbolçular olandan sonra tam istədiyin futbol oynamağa başlayacaqsan. Təkmilləşdirmək lazımdır".

Q.Qurbanov bir uğursuzluğa görə İspaniyanı siyahıdan silməyin düzgün olmadığını deyib: "İspaniya çempionatına baxsaq, klublar tam fərqli oyunlar nümayiş etdirir, fərqli sistemlər qururlar. Məncə, bir uğursuzluğa görə bütün sistemi dəyişmək düzgün olmazdı. Hər halda, İspaniya futbolunun başbilənləri daha yaxşı bilərlər bu məsələni. Amma məncə, ötürməsiz futbol heç futbol deyil. İnsan var, təkcə qoldan həzz alır. Azarkeş var, yaxşı ötürmələrdən həzz alır. Bəlkə bizə aid olan məsələ deyil. Bütün dünya son 15 ildə İspaniya sistemində futbol oynayır. Çox məşqçilər orada təkmilləşib. İnkişaf edən ölkələr çox şeyi ispan futbolunun sistemindən götürüblər.

İspaniyanın Mərakeşlə matçın 121-ci dəqiqəsində vurduğu zərbə qol olsaydı, tam fərqli fikirlər olardı. Son vaxtlar futbolda sürprizlər çox olur. Məncə, əksinə, daha da yaxşılaşdıracaqlar həmin futbolu. Heyətdə gənclər çoxdur. Onlar illər keçdikcə daha da rahat oynayacaqlar".

Xatırladaq ki, İspaniya Dünya çempionatının 1/8 finalında penaltilər seriyasında gözlənilmədən Mərakeşə uduzub.

# Peledən Mbappeyə təşəkkür




Braziliya millisinin əfsanəvi futbolçusu Pele Fransa yığmasının hücumçusu Kilian Mbappenin onun rekordunu qırmasına münasibət bildirib. O, sosial şəbəkə hesabında yazıb: "Təşəkkür edirəm Kilian Mbappe. Sevinirəm ki, bu Dünya çempionatında növbəti rekordumu qırdın, dostum!"

Qeyd edək ki, Kilian Mbappe Dünya çempionatlarında 24 yaşınadək 9 qol vuran ilk futbolçu olub. Daha əvvəl bu rekord Peleyə məxsus idi. O, 24 yaşına çatmamış 7 dəfə fərqlənmişdi.



# Sterlinq qayıtdı

İngiltərə millisinin futbolçusu Rahim Sterlinq "DÇ-2022"nin 1/4 finalında Fransa ilə oyundan əvvəl yığmanın düşərgəsinə qayıdıb. 28 yaşlı hücumçunun komandaya qoşulduğu deyilir. Ancaq onun bu axşam Fransaya qarşı matçda iştirakı gözlənilmir.

Qeyd edək ki, Sterlinqin Londondakı evi qarət olunduğu üçün oyunçu millinin düşərgəsini tərk etmişdi. O, cari mundialda 2 oyun keçirib və 1 qol vurub.

# Hummelsin milliyə dəvət almamasının səbəbi



Almaniya millisinin baş məşqçisi Hans-Diter Flik Dortmund "Borussiya"sının müdafiəçisi Mats Hummelsi Dünya çempionatına aparmadığı üçün peşman deyil. "Sport1.de" saytının verdiyi xəbərə görə, mundialda qrupda qalan almanların baş məşqçisi sözügedən futbolçunu oyun üslubuna görə yığmaya layiq saymır və bunu öz köməkçilərinə deyib. Belə ki, o, topla yaxşı rəftar etməyi bacarmayan, dərin müdafiənin mərkəzində yer almağa öyrəşmiş Hummelsin hücum futbolu sərgiləyən, ani əks-həmlələrə üstünlük verən kollektivdə işə yaramayacağına əmindir.

# Filips Vokeri daha üstün sayır



"Voker indiyə qədər gördüyüm ən sürətli futbolçudur". Bunu İngiltərə millisinin yarımmüdafiəçisi Kalvin Filips deyib. "Mançester Siti"nin gənc yarımmüdafiəçisi millidə və klubda komanda yoldaşı olan Kayl Vokeri fransalı hücumçu Kilian Mbappe ilə müqayisə edib: "Çox adam onun nə qədər sürətli olduğunu soruşur, lakin sözlər bunu ifadə edə bilməz. Sadəcə, onu məşqdə və ya sürətli oyunçu ilə təkbətək oyun zamanı görmək lazımdır. Mbappe ilə bacaracaq futbolçu varsa, o, Kayldır. O, heyrətamiz müdafiəçidir və bəlkə də Mbappedən daha sürətli olan yeganə oyunçudur".

Qeyd edək ki, Fransa bu gün turnirin 1/4 finalında İngiltərə ilə qarşılaşacaq.

# Maquayr Messi və Ronaldudan danışdı



"Mançester Yunayted" və İngiltərə millisində fərqli təzyiqlərin olduğunu düşünmürəm. İngiltərə dünyanın ən böyük turniri olan Dünya çempionatında oynayır deyə təzyiq var". Bunu İngiltərə millisinin mərkəz müdafiəçisi Hari Maquayr yığma və klubda oynayarkən yaranan təzyiqdən danışıb.

O, həmçinin bu il zəif performans göstərdiyini etiraf edib: "Mançester Yunayted"də mən daha çox nəzarət altındayam. Etdiyim hər şey təhlilə məruz qalırdı. Buraxılan hər qol müdafiəçinin günahıdır. 3 il hər tur oynadım, amma ötən il kifayət qədər yaxşı olmadı. Komandada hər kəs kifayət qədər yaxşı oynamadı və biz nəzarət altında idik. Mövsümün sonunda heç kim təriflənmədi. Ötən il çətin keçdi və əvvəlki 5 ildəki kimi yaxşı oynamadım. Ancaq düşünürəm ki, karyeralarında yalnız Lionel Messi və Kriştianu Ronaldu eniş yaşamayıblar".

Qeyd edək ki, 29 yaşlı futbolçu 2019-cu ilin avqustunda "Mançester Yunayted"ə keçib. O, bu mövsüm İngiltərə klubunun heyətində cəmi 9 oyuna çıxıb və qol vurmayıb.

# Mundial Kamada üçün düşərli oldu

Yaponiya millisinin futbolçusu Dayçi Kamada klubunu dəyişə bilər. Almaniya "Ayntraxt"ının 26 yaşlı yarımmüdafiəçisi daha iddialı komandaların maraq dairəsindədir. "Tottenhem"lə (İngiltərə) Dortmund "Borussiya"sı asiyalını heyətinə qatmaq istəyir. Hər iki klub Kamadanın müqaviləsinin bitməsini gözləyir.

Onun frankfurtlularla anlaşması yayda başa çatacaq. "Borussiya" və "Tottenhem" həmin vaxt azad agent olacaq yaponiyalını ələ keçirmək istəyir.

Qeyd edək ki, Kamada Qətərdəki mundialda 4 oyun keçirib.



# Rekord sayda tamaşaçı



Qətərdə keçirilən Dünya çempionatını iki milyarddan çox tamaşaçı izləyib. Bu haqda FİFA prezidenti Canni İnfantino rəhbəri olduğu qurumun rəsmi saytına danışıb. Bildirib ki, mundial televiziyada rekord izləmə rəqəmlərinə malikdir: "Yarışın artıq iki milyarddan çox tamaşaçısı var ki, bu da inanılmazdır. Qrup mərhələsinin sonunda açıqlanan rəqəmlər ilk 48 matç üçün ümumilikdə 2,45 milyard tamaşaçının olduğunu göstərir. Pley-offun ilk mərhələsindəki səkkiz matçda cəmi 28 qol vurulub ki, bu da 1/8 mərhələsinin 1986-cı ildəki tətbiqindən bəri ən yüksək göstəricidir.

Ümid edirik ki, Dünya çempionatı başladığı kimi parlaq davam edəcək və uğurla başa çatacaq. Əminəm ki, biz bütün dünyada beş milyard tamaşaçı həddinə çatacağıq. Biz insanlara bir az sevinc və təbəssüm bəxş etmək istəyirik. Futbol budur, Dünya çempionatı belədir və sona qədər də belə olmalıdır".

*Hazırladı: Elçin CƏFƏROV, "Azərbaycan"*

# Heydər Əliyev Beynəlxalq Aeroportunda dörd milyondan artıq sərnişinə xidmət göstərilib

**Heydər Əliyev Beynəlxalq Aeroportunun Mətbuat xidmətindən verilən məlumata görə, 2022-ci ilin əvvəlindən Azərbaycanın əsas hava limanı - Heydər Əliyev Beynəlxalq Aeroportunda 4,04 milyon sərnişinə xidmət göstərilib.**



Ümumilikdə göstərilən müddət ərzində ölkənin hava limanlarından beş milyona yaxın sərnişin istifadə edib.

Cari ilin noyabr ayında Bakı Hava Limanının xidmətlərindən 375 min nəfər istifadə edib ki, onlardan da 324 mini beynəlxalq reyslərin sərnişinləridir.

Azərbaycanın milli aviadaşıyıcısı "AZAL" sərnişin aviaşirkəti və "Buta Airways" aşağıbüdcəli sərnişin aviaşirkəti tərəfindən noyabr ayında beynəlxalq istiqamətlərdə müvafiq olaraq 91 min və 45 min sərnişinə xidmət göstərilib. Qeyd edilən aviaşirkətlərin beynəlxalq daşımaların ümumi sayında payı müvafiq olaraq 28 faiz və 14 faiz təşkil edib.

2022-ci ilin noyabr ayında Heydər Əliyev Beynəlxalq Aeroportuna 28 xarici aviaşirkət müntəzəm uçuşlar həyata keçirib. Ən çox sərnişin, "AZAL" və "Buta Airways" ilə yanaşı, "Turkish Airlines", "Aeroflot", "Utair", "FlyDubai" və "Azimuth" aviaşirkətləri tərəfindən daşınıb.

Ötən ay Bakıdan ən populyar beynəlxalq istiqamətlər onluğuna Moskva, İstanbul, Dubay, Tbilisi, Əbu-Dabi, Şarca, Daşkənd, Mineralnıye Vodı, Ciddə və Ankara daxil olmuşdur. Ümumilikdə bu istiqamətlər üzrə 225 min nəfərə xidmət göstərilib.

Heydər Əliyev Beynəlxalq Aeroportu (IATA: GYD) sərnişin və yükdaşımalarının, uçuş-enmə əməliyyatlarının həcminə, aerovağzal kompleksinin sahəsinə və yük kompleksinin tutumuna görə Azərbaycanın və regionun ən böyük hava limanıdır.

Nüfuzlu "Skytrax" Beynəlxalq Agentliyi tərəfindən Bakı Hava Limanı ən yüksək "5-ulduz" reytinqinə, həmçinin COVID-19 pandemiyası dövründə epidemioloji təhlükəsizlik üzrə maksimal reytinqə layiq görülüb.

Cari ilin iyun ayında Heydər Əliyev Beynəlxalq Aeroportu nüfuzlu "Skytrax" Beynəlxalq Agentliyinin versiyasına görə ardıcıl olaraq beşinci dəfə MDB ölkələri sırasında ən yaxşı hava limanı statusunu təsdiqləyərək "Skytrax World Airport Awards" mükafatına layiq görülüb. Qeyd edilən mükafat mülki aviasiya sahəsi üçün keyfiyyət meyarıdır.





OXUCULARIN NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" qəzetinə abunə yazılışı davam edir!

Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*


# Xəzərdə suitilərin sayı tükənir

## "Ginnesin Rekordlar Kitabı"na düşən bu heyvanların kütləvi ölüm səbəbi ya infeksion xəstəlik, ya da zəhərlənmədir

**Müxtəlif illərdə Xəzər dənizinin sahillərində suitilərin kütləvi ölümünə rast gəlinib. Bənzər hadisənin bəzən il ərzində bir neçə dəfə təkrarlandığı da müşahidə edilir.**



Ötən günlərdə Xəzərin Dağıstan sahillərində 2500-ə yaxın suiti cəsədi tapılıb. Rusiya Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatına görə, suitilər Sulak və Şurinka çaylarının mənsəbləri arasındakı ərazidə aşkar edilib. Qeyd olunub ki, bu, son on ildə Xəzər suitilərinin (Phoca caspica)) ən kütləvi tələfatıdır. Səbəbi isə ölmüş heyvanların patoloji materialının laboratoriya tədqiqatlarından sonra müəyyən ediləcək.

### Xəzərin yeganə məməlisi

Azərbaycan Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəisi Firuddin Əliyev bununla bağlı bildirib ki, Dağıstanda Xəzər dənizinin sahilində aşkarlanan suitilərin ölüm səbəbi hazırda Xəzəryanı ölkələrin mütəxəssisləri tərəfindən araşdırılır. Bakterioloji-virusoloji analizlərin aparılması üçün cəsədlərdən nümunələr götürülüb. Onun sözlərinə görə, Xəzər dənizinin Azərbaycan bölməsində də suiti cəsədləri aşkarlanıb. Dağıstan sahillərində suitilərin kütləvi ölüm hallarının aşkarlanması ilə əlaqədar Xəzərin Azərbaycan bölməsində Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları tərəfindən genişmiqyaslı monitorinqlər keçirilib. Monitorinqlər zamanı dənizin Xaçmaz rayonu ərazisində İstisu qəsəbəsi, Tikanlıoba, Seyidli və Nabran kəndi istiqamətlərində ümumilikdə 21 suiti cəsədi aşkar olunub.

"Suitilərin ölüm səbəbinin araşdırılması məqsədilə Qida Təhlükəsizliyi Agentliyinin mütəxəssisləri ilə birgə cəsədlərdən nümunə götürülüb və nəticələr barədə məlumat veriləcək", - deyə xidmət rəisi bildirib. F.Əliyev deyib ki, suiti cəsədlərinin üzərində aparılan vizual müşahidələr zamanı zədə izlərinə rast gəlinməyib.

Rusiya və Qazaxıstan elmi mərkəzləri ilə aparılan ilkin müzakirələr zamanı hazırkı suiti ölümünün 2000-ci ildə it taunu virusu ilə yoluxma nəticəsində baş vermiş kütləvi ölüm halları ilə oxşarlığı ehtimalı irəli sürülüb.

Xatırladaq ki, ötən ilin ilk 6 ayı ərzində Dərbənddə üç belə hadisə baş vermişdi. Sosial şəbəkələrdə Xəzər suitilərinin cəsədlərinin tapılması barədə kadrlar yayılmışdı.

Xəzərin yeganə məməlisi 2008-ci ildə Beynəlxalq Təbiətin Mühafizəsi Birliyi tərəfindən "nəsli kəsilməkdə olan" heyvanlar siyahısına daxil edilib. Bu zaman suitilərin sayı cəmi 104 min idi və hər 4 kvadratkilometrə bir suiti hesablanırdı. 2020-ci ildə isə suitilər Rusiyanın "Qırmızı Kitabı"na salınıb. Eyni zamanda bu məməlilər dünya okeanının ən kiçik suitisi kimi "Ginnesin Rekordlar Kitabı"na daxil edilib.

### Suitilərin məhvinə səbəblər...

Dünyanın ən kiçik qulaqsız suiti növlərindən sayılan məməlinin sayı XX əsrin sonlarından azalmağa başlayıb. XIX əsrin sonlarında Xəzərdə suitilərin sayı 1 milyondan çox idisə, 1990-ci illərin ortalarında brokonyerlik, çirklənmə və digər səbəblərdən bu göstərici xeyli aşağı düşüb.

Xəzər suitiləri 50 ilə qədər ömür sürə bilirlər. Şimaldan cənuba və geriyə ilboyu səyahət edən suitilər 5 ölkəni payızın əvvəlinə qədər sahilbəsahil gəzirlər. Şahdili ərazisi suitilərin ən çox toplaşdığı yerlərdən biri oub. 1930-cu illərdə Abşeron arxipelağının sahillərində hər il 10 minə qədər suiti dincəlirdi. Hətta 1935-1937-ci illərdə bu rəqəm 100 mindən 200 minə qədər yüksəlib. Əsrin sonuna doğru isə bu rəqəm sürətlə azalıb. 1970-1980-ci illərdə Şahdili və ətraf adalarda ildə cəmi 2 minə qədər suitinin məskunlaşdığı məlum olub. Sonuncu dəfə 2002-ci ildə bu ərazilərdə suitilərə rast gəlinib ki, onların da sayı 100-ü ötməyib.

1997-ci ildə 5 dövlətin sahillərində suitilərin kütləvi tələfatı baş verib. Onların cəsədlərindən götürülmüş nümunələrdə xlor üzvi birləşmələrinin miqdarının yüksək olduğu müəyyən olunub. 2000-ci il aprel-iyun aylarında şimalda başlamış növbəti kütləvi tələfat oktyabrda İrana çatıb. O vaxt təkcə Abşeronun 100 kilometrlik şimal sahilində 2210 ölü suiti tapılıb. İlk dəfə ingiltərəli professor Seamus Kenedi tələfatın əsas səbəbini CDV kimi tanınan it taunu xəstəliyi ilə diaqnozlaşdırıb. Qeyd olunan virus mədə-bağırsağı korlayır, göz yaşarması, burun axması, qusma, qızdırma və digər əlamətlərlə müşahidə olunur.

2001-ci ildə kütləvi tələfatın üçüncü dalğası baş verəndə onların sayının müəyyənləşdirilməsi üçün "Xəzər suitilərinin mühafizəsi" layihəsi yaradılıb. Layihənin ilk seminarı 2006-cı ilin sentyabrında Bakıda keçirilib. Tədbir müddətində alimlər Bakı yaxınlığında adalara yollansalar da, orada heç bir suitiyə rast gəlməyiblər.

### Xəzərdəki ekoloji şərait suitilər üçün qənaətbəxş deyil

Azərbaycan Milli Elmlər Akademiyasının Zoologiya İnstitutunun aparıcı elmi işçisi Süleyman Süleymanov qəzetimizə açıqlamasında deyib ki, 1990-ci ildən bugünə kimi Xəzər suitilərinin sayı azalmaqdadır. Onun sözlərinə görə, son 10-20 ildə suitilərin sayının heç 100 minə çatmadığı qeyd olunur, amma bu, dəqiq rəqəm deyil: "Ötən il yay aylarında Xəzər dənizində araşdırmalar zamanı cəmi 4 suiti gördük. Yay dövründə 4 suiti görmək o deməkdir ki, artıq onların sonudur. Suitilərin sayı 70-80 faiz azalıb. 1990-cı ildə Türkmənistan tərəfdə Suiti adasında çoxlu suitilər vardı. İndi bu say dəfələrlə azalıb".

S.Süleymanov deyir ki, Xəzər dənizindəki ekoloji şərait suitilər üçün qənaətbəxş deyil. Xəzər suitisi endemik yırtıcı məməlidir. Onlar ancaq kilkə balıqları ilə qidalanırlar, bu balıqların sayı isə əvvəlki illərlə müqayisədə azalıb.

Mütəxəssis vurğulayır ki, suitilər ən çox iki dəfə - qidalanma və balavermə vaxtı toplaşırlar. Onlar noyabr-dekabr aylarında Xəzərin Rusiya sərhədinə miqrasiya edirlər. Orada bir yerə cəmləşdiklərinə görə, kütləvi ölüm halları şimal sahillərində tez-tez müşahidə edilir. Burada qalanlar əsasən yaşlı və bala verməyən cavan fərdlər olurlar.

Dağıstan sahillərində suitilərin kütləvi ölüm halından danışan S.Süleymanov deyir ki, son illərdə suitilərin ölümünə səbəb dənizdəki güclü çirklənmə, qida ehtiyatının azalması və brokonyerlik ola bilər. Hazırkı kütləvi məhv olmanın səbəbi ya infeksion xəstəlik, ya da zəhərlənmədir. Zəhərlənmə dəqiq deyil, güclü toksiki təsir olmalıdır ki, ölümlə nəticələnsin. Bu da ağlabatan deyil. Dəniz səviyyəsinin aşağı düşməsi ilə balıqların sayının azalması qida ehtiyatının da azalmasına səbəb olur. Volqa çayından ani gələn zəhərli su da suitilərin cəmləşdiyi yerə təsir edə, onların məhvinə səbəb ola bilər.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Bursada Şuşa Günləri keçirilir

**Şuşanın 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə əlaqədar Türkiyənin Bursa şəhərində Şuşa Günləri keçirilir. Tədbir çərçivəsində "Türk dünyasının mədəniyyət paytaxtı" statusu Bursadan Şuşaya təhvil veriləcək.**



AZƏRTAC xəbər verir ki, tədbirin ilk günü Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu ilə Bursa Böyükşəhər Bələdiyyəsinin birgə təşkilatçılığı ilə açılış mərasimi keçirilib.

Mərasimdə çıxış edən Bursa Böyükşəhər Bələdiyyəsinin sədri Alinur Aktaş, Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) baş katibi Sultan Rayev, Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüraliyev və Bursa valisi Yakup Canbolat "Bursa ili" çərçivəsində ortaq mədəniyyətimizi özündə əks etdirən festivalların, idman oyunlarının, təbliğat proqramlarının və bir çox digər tədbirlərin keçirildiyini, bununla əlaqədar türk dünyasından çox sayda siyasətçinin, mədəniyyət və elm xadiminin Bursaya gəldiklərini deyiblər.

"Türk dünyasının mədəniyyət paytaxtı" statusunun gələn il Şuşaya keçəcəyini xatırladan çıxışçılar iştirakçılara Şuşa haqqında geniş məlumat veriblər.

Bildirilib ki, Azərbaycanın mədəniyyət beşiyi olan Şuşa şəhəri 30 illik işğaldan sonra 44 günlük Vətən müharibəsi nəticəsində şanlı Zəfərlə azad edilib və bu hadisə türk tarixində dönüş nöqtəsi kimi qiymətləndirilir.

Qeyd edilib ki, işğal dövründə ermənilər tərəfindən Şuşanın mədəni-mənəvi irsi, o cümlədən tarixi abidələri və məscidləri dağıdılıb, şəhər viran qoyulub. Hazırda Azərbaycan dövləti bu ərazilərdə bərpa-yenidənqurma işləri aparır. Yaxın zamanda vətəndaşlarımızın doğma yurd-yuvalarına köçürülməsi dövlətimizin əsas məqsədlərindən biridir.

Qəhrəmanlıq, fədakarlıq və eşqin dastanı olan Şuşanın mədəni irsi, əsrarəngiz təbiəti, bəşəri mirasa böyük fikirlər bəxş edən şairləri, yazıçıları və dahi musiqiçiləri kimi tarixi şəxsiyyətləri ilə dünyada tanındığını deyən natiqlər şəhərin işğaldan azad edilməsi ilə yenidən həyata qaytarıldığını, mədəni və tarixi mirasımıza yenidən bəxş edildiyini vurğulayıblar.

Bildirilib ki, Azərbaycan xalqı üçün xüsusi məna kəsb edən Şuşanın "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi eyni zamanda türk dünyası xalqları arasında birlik və bərabərliyin daha da möhkəmləndirilməsi, əməkdaşlığın inkişaf etdirilməsi üçün mühüm əhəmiyyət daşıyır. Şuşa Azərbaycanın tarixini özündə əks etdirən açıq havada muzeydir. Bundan sonra Şuşada xarıbülbülün qoxusu hiss ediləcək, Qarabağ atları qamətini görəcək və Azərbaycan mədəniyyətinin paytaxtı dünyaya layiqli şəkildə nümayiş olunacaq.

Türkiyə-Azərbaycan münasibətlərinə toxunan natiqlər türk dünyasının hər dövlətinin Türkiyə üçün əhəmiyyətli olduğunu qeyd ediblər. Bildirilib ki, xüsusilə Azərbaycanın bütün məsələlərini Türkiyə hər zaman öz məsələsi kimi qəbul edib. Ölkələrimiz arasında birliyin əsas memarları Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğandır. İki dahi liderin nümayiş etdirdiyi birlik dünya üçün nümunədir.

Sonra Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva tərəfindən "Türk dünyasının mədəniyyət paytaxtı" statusunun Bursadan Şuşaya keçməsi məqsədilə Bursada keçirilən Şuşa Günlərinin təşkilində əməyi olanlara təşəkkürnamələr və xüsusi plaketlər təqdim edilib.

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Mərkəzi Bankında istismarda olan elektron imza üzrə sertifikatlaşma sisteminin proqram platformasının dəstəklənməsi xidmətinin satın alınması ilə bağlı elan edilmiş və elektron satınalma prosedurları çərçivəsində keçirilmiş açıq tender üzrə Satınalmalar komissiyasının 17 noyabr 2022-ci il tarixli qərarına əsasən "STELL TECHNOLOGY" MMC qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Satınalmalar komissiyası*

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin general-mayoru Elşən Zeynalova anası

**VALİDƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Bakı Ağır Cinayətlər Məhkəməsinin sədri

**MAHMUD NƏBİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi general-mayor Elşən Zeynalova anası

**VALİDƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin general-mayoru Elşən Zeynalova anası

**VALİDƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru professor Ədalət Muradov və universitetin kollektivi Mühəndislik fakültəsinin dekanı Elçin Səmədova atası

**ƏLƏSGƏR SƏMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin kollektivi sədr vəzifəsini müvəqqəti icra edən hakim Mirheydər Zeynalova anası

**SİDDİQƏ FƏRZAĞA QIZI ZEYNALOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 6484
Sifariş 3454
Qiyməti 40 qəpik